QÜVVƏT ELMDƏDİR, ELMƏ DOĞRU!

# AZİMUT

«HƏRBİ BİLİK» JURNALININ ELMİ-NƏZƏRİ AYLIQ BÜLLETENİ №6, 2014



## SİLAHLI QÜVVƏLƏRİN ŞƏXSİ HEYƏTİNİN MƏNƏVİ-PSİXOLOJİ TƏMİNATI:

ELMİ-PRAKTİKİ KONFRANSLAR

MÜZAKİRƏ VƏ MÜLAHİZƏLƏR

MƏDƏNİ-KÜTLƏVİ TƏDBİRLƏR

## ORDUDA TƏRBİYƏVİ XARAKTERLİ TƏDBİRLƏRİN KEÇİRİLMƏSİNƏ, YENİ ÜSULLARIN İŞLƏNİB HAZIRLANMASINA CİDDİ EHTİYAC VARDIR

(məruzədən sitat)

**ORDUYA DİQQƏT AZƏRBAYCAN DÖVLƏTİNİN PRİORİTETİDİR. BİZİM ORDUMUZ BİZİM QÜRURUMUZDUR VƏ MÜSTƏQİLLİYİ ŞƏRTLƏNDİRƏN ƏSAS AMİLDİR**



Bu gün biz yaxşı bilirik ki, Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranıbdır. İrəvan xanlığı, Zəngəzur, Göyçə mahalı bizim tarixi torpağımızdır. Biz azərbaycanlılar o torpaqlara qayıtmalıyıq və qayıdacağıq. Biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Həmişə belə olub, bu gün də belədir, sabah da belə olacaq. Sadəcə olaraq, 1990-cı illərin əvvəllərində baş vermiş hadisələr nəticəsində müvəqqəti olaraq torpaqlarımız işğal altına düşmüşdür. Ancaq biz öz suverenliyimizi bərpa edəcəyik. Bütün işğal edilmiş torpaqlarda, o cümlədən Şuşada, Xankəndində Azərbaycan bayrağı qaldırılacaqdır. Bu, bizim məqsədimizdir. Bu məqsədə doğru gedirik və biz bu məqsədə çatmaq üçün daha da güclü ordu yaratmalıyıq.

Bu gün ölkəmizin iqtisadi, siyasi potensialı Ermənistandan qat-qat artıqdır, üstündür. Son illər ordu quruculuğu sahəsində görülən işlər nəticəsində biz hərbi üstünlüyü də əldə etmişik və öz potensialımızı getdikcə daha da artıracağıq. Münaqişənin həlli yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində mümkündür. Dağlıq Qarabağ Azərbaycan ərazisidir. Tarixi, əzəli Azərbaycan torpağıdır. Beynəlxalq hüquq normaları bizim mövqeyimizi dəstəkləyir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycan ərazisi kimi tanıyır. Biz heç vaxt Azərbaycan torpağında ikinci qondarma "erməni dövləti"nin yaradılmasına imkan verməyəcəyik, öz ərazi bütövlüyümüzü bərpa edəcəyik: ya sülh yolu ilə, ya hərbi yolla.

**Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan**
**İlham ƏLİYEV**

# ŞƏXSİ HEYƏTİN MƏNƏVİ-PSİXOLOJİ HAZIRLIĞI VƏ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİ DİQQƏT MƏRKƏZİNDƏDİR

# FAKTLAR

## VACİB ƏLAQƏ

Milli Mətbuat Günü ərəfəsində Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Müdafiə Nazirliyi və Mətbuat Şurasının birgə təşkilatçılığı ilə ölkənin aparıcı media nümayəndələrinin görüşü keçirilib. Görüş zamanı kütləvi informasiya qurumları ilə əlaqələrin inkişaf etdirilməsini diqqətə çatdıran general-leytenant K. Vəliyev ordu quruculuğu məsələlərində obyektivliyin və şəffaflığın təmin edilməsi baxımından bu əlaqələrin vacibliyini vurğulayıb.

## QABAQCIL TƏCRÜBƏ

Silahlı Qüvvələrimizdə "Ən yaxşı ictimai-siyasi hazırlıq qrupu" adı uğrunda müsabiqə keçirildi. Yarışmada baş leytenant Rauf Fərmanlının rabitəçi əsgərlərdən ibarət qrupu qalib oldu. Naxçıvandakı Əlahiddə Ümumqoşun Ordusuna məxsus bölmə ikinci yeri qazandı. Baş leytenant Elməddin İmanovun qrupunu təşkil edənlər – ərazilərimizin müdafiəsində dayanmış "N" hərbi hissəsinin bölməsi müsabiqədə üçüncü yerə layiq görüldü. Qaliblər mükafatlandırıldı.

## GENİŞ LAYİHƏ

Lənkəran Zabitlər Evində Müdafiə Nazirliyinin Təşkilatçılığı ilə Tahir Əliyevin rejissorluğu ilə çəkilmiş sənədli hərbi vətənpərvərlik filmləri həftəsi keçirilmişdir. Sənədli filmlər həftəsi ərzində hərbi hissələrin şəxsi heyəti, eləcədə, lənkəranlılar "Təxəllüsü – Mixaylo","Unudulmuş partizan", "Səhra gülü", "9-cu korpus", "Qafqaz qartalının uçuşu", "Medo Hollandiyadadır", "Xəzərdən Dunaya" filmlərinə baxmaq imkanı qazanmışlar.

# TƏDBİRLƏR







# TƏLTİFLƏR







# XƏBƏRLƏR

## MÜHÜM ZİYARƏTLƏR

"Heydər Əliyev irsini öyrənirik" devizi çərçivəsində "N" hərbi hissəsinin bir qrup şəxsi heyəti Yasamal rayonu İcra Hakimiyyəti nəzdində fəaliyyət göstərən Heydər Əliyev muzeyini ziyarət etmişlər. Ulu öndər Heydər Əliyevin mənalı həyatını və çoxşaxəli fəaliyyətini milli-mənəvi dəyərlərimiz hesab edən əsgərlər muzeylə tanış olub , orada dünya miqyaslı dövlət xadiminə həsr edilmiş filmə baxmışlar.

## ƏHƏMİYYƏTLİ SƏFƏRLƏR

Müdafiə Nazirliyinin təşkilatçılığı ilə bir qrup QHT və KİV nümayəndəsi cəbhə bölgəsinə səfərlər edib. Onlar səngərlərdə əsgər, gizir və zabitlərlə görüşüb, döyüş növbəsi çəkən hərbçilərimizin xidməti ilə yaxından tanış olublar. Füzuli, Tərtər, Bərdə, Qazax, Tovuz və s. rayonlarına baş tutan belə səfərlər ictimaiyyətlə əlaqəni yeni tərzdə qurmaq üçündür.

## YENİ KURSLAR

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində səxsi heyətlə işləyən zabitlərin hazırlıq səviyyəsini artırmaq məqsədi ilə bir aylıq təkmilləşdirmə kurslarının təşkil olunması daha bir yenilikdir. Səxsi heyətlə iş üzrə zabitlər burada ümumqoşun hazırlığı üzrə nəzəri və praktiki məşğələlər keçərək, tərbiyəvi işin təşkili və hərbi diplomatiya sahəsində lazımi biliklərlə yanaşı, hərbi psixologiya, sosiologiya, hüquq, beynəlxalq münasibətlər və s. elmlərə aid mövzularla tanış olurlar.

**VACİB GÖRÜŞ**




## ŞƏXSİ HEYƏTİ QARŞIDA DURAN MÜHÜM VƏZİFƏNİN YERİNƏ YETİRİLMƏSİNƏ SƏFƏRBƏR EDƏK!

Azərbaycan Respublikasının Müdafiə Naziri general-polkovnik Zakir Həsənov şəxsi heyətlə iş üzrə bölük komandiri müavinlərinin təkmilləşdirmə kursunun ilk məzunları ilə görüşündə orduda aparılan son islahatlardan, silahlı qüvvələrin şəxsi heyətinin döyüş və mənəvi-psixoloji tərbiyəsində qarşıda duran mühüm vəzifələrdən danışmışdır. Müdafiə naziri çıxışında qeyd etmişdir ki, hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Ali Baş Komandana, Vətənimizə, torpağımıza, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır. Məhz bu keyfiyyətləri özündə əks etdirən Azərbaycan Ordusunun şəxsi heyəti hər an qələbəyə hazır ola bilər. Müdafiə naziri general-polkovnik Zakir Həsənov çıxışında əsasən bunları qeyd etmişdir:

– Müasir mərhələdə Azərbaycan dövlətinin artan siyasi-iqtisadi uğurları, daxili və xarici siyasətimizdə qazanılan geniş miqyaslı nailiyyətlər ölkədə bütün sahələrin, həmçinin ordu quruculuğunun inkişaf etdirilməsinə möhkəm zəmin yaradır. Bu gün dövlət rəhbərliyi, şəxsən Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən orduya böyük diqqət və qayğı vardır. Həm silahlı qüvvələrimizin bölmələri müasir silah və hərbi texnikalarla təmin edilir, həm də hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm işlər görülür. Hər kəs yaxşı bilməlidir ki, bu gün ordumuzun şəxsi heyətini qarşıda duran mühüm vəzifənin icrasına, torpaqlarımızın işğaldan azad edilməsinə səfərbər etmək qarşımızda dayanan ən mühüm vəzifədir. Ölkəmizin müstəqilliyinin və suverenliyinin qarantı olan silahlı qüvvələrimizdə şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi hazırkı mərhələdə ordu rəhbərliyinin qarşısında dayanan əsas vəzifələrdəndir. Ermənistan və Azərbaycan arasında illərdən bəri davam edən müharibə şəraiti və münaqişənin həll edilməməsi nəticə etibarilə torpaqlarımızın işğaldan hərbi yolla azad edilməsi zərurətini reallaşdırır.

Bu baxımdan şəxsi heyətin təlim-tərbiyəsinə cavabdehlik daşıyan komandir və zabitlərin üzərinə böyük məsuliyyət düşür. Orduda önəm verilən əsas şərt gənc döyüşçülərin milli-mənəvi dəyərlərimiz ruhunda tərbiyə edilməsidir. Bu məqsədlə şəxsi heyətin şüuruna dövlətin və xalqın mənafeyini müdafiə etmək hissləri aşılanmalıdır. Hər bir gənc döyüşçü hansı amal və məqsəd uğrunda xidmət etdiyini, mübarizə apardığını dərindən dərk etməlidir.

Əsgərin tərbiyəsinə cavabdehlik daşıyan zabit bütün mənəvi-əxlaqi keyfiyyətləri ilə hərbi kollektivdə nümunə olmalıdır. Bölmə komandirlərinin şəxsi heyətlə iş üzrə müavini bilməlidir ki, bu gün ordu rəhbərliyi ona böyük etimad göstərib. Onların vəzifələri bir pillə artırılıb, yəni, o, öz komandiri ilə bir səviyyədə dayanır. Mənə elə gəlir ki, bu göstərilən etimad həmin zabitin vəzifə məsuliyyətini qat-qat artıracaqdır. O, öz üzərində daha səylə çalışmalı, hərbi bilik və vərdişlərini artırmalı, qarşısında dayanan tapşırıqların məsuliyyətini dərindən dərk etməlidir.




Xalqımızın illərdən bəri üzləşdiyi münaqişənin mahiyyəti şəxsi heyətə izah edilməli və doğma torpaqlarımızın işğaldan azad edilməsi uğrunda mübarizənin bizim ədalətli işimiz olduğu aşılanmalıdır. Yəni əsgərlərimizin müharibəyə hazır olmasının əsas zərurəti yalnız xalqımızın ədalətli mübarizəsindən – doğma torpaqlarımızı işğaldan azad etmək zərurətindən irəli gəlir. Əgər işğalçı dövlət ölkəmizin ərazi bütövlüyünün sülh yolu ilə təmin olunmasına razılaşmayacaqsa, onda Azərbaycan hərbi yolla bu məsələnin həllində israrlı olacaqdır. Xalqımızın qəhrəmanlıq ənənələri əsgərlərə layiqincə təbliğ edilməlidir

Qoy hər bir əsgər qədim xalqın nümayəndəsi olduğunu dərindən dərk etsin, qəhrəmanlarımızı yaxşı tanısın, böyük dövlət xadimi, ulu öndər Heydər Əliyevin irsini mükəmməl öyrənsin.

Kim cəmiyyətdə özünə layiqli yer tutmaq istəyirsə, dahi insanların ömür yolunu özünə örnək bilməlidir. Bu mənada ümummilli liderimizin mənalı ömür yolu və tarixi fəaliyyəti silahlı qüvvələrimizin şəxsi heyətinə ən layiqli örnəkdir.

– Biz çalışmalıyıq ki, Silahlı Qüvvələrimizin şəxsi heyətinin qarşısına qoyulmuş döyüş tapşırıqlarının yerinə yetirlməsində hər bir zabit üzərinə düşən məsuliyyəti dərindən başa düşsün və öz vəzifə borcunu yerinə yetirsin.

– Ordumuzun mühüm döyüş vəzifəsinin icra edilməsində şəxsi heyətin mənəvi-psixoloji hazırlığı da az əhəmiyyət daşımır və bu sahəyə cavabdeh olan zabitlər məsuliyyət hissini daha dərindən hiss etməlidirlər. Ümumiyyətlə, hər bir zabit şəxsi heyətin döyüş ruhunu artırmaq üçün öz hərbi biliyi, davranışı və əxlaqi keyfiyyətləri ilə şəxsi heyətə nümunə olmalıdır. Şəxsi igidlik nümunələri göstərən hərbi qulluqçular hamıya örnəkdir. Məsələn, bu yaxınlarda cəbhənin müxtəlif istiqamətlərində düşmənin təxribat xarakterli cəhdlərinin qarşısının alınmasında bəzi hərbi qulluqçularımız xüsusilə fərqlənmişdilər. Belə qəhrəmanlıq nümunələri başqa hərbi bölmələrin şəxsi heyətinə də təbliğ edilməlidir

Belə bir halda orduda şəxsi heyətin döyüş ruhunun artırılmasına xüsusi önəm verilməlidir. Silahlı Qüvvələrimizdə təlim-tərbiyə sisteminin təkmilləşdirilməsi, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı işinin günün tələbləri səviyyəsində qurulması, daim diqqət mərkəzində olmalıdır.




**Azərbaycan Respublikası Müdafiə naziri general-polkovnik Zakir HƏSƏNOVUN 27 sentyabr 2014-cü il tarixli təbrik məktubundan:**

**Cənab generallar, zabitlər, gizirlər və əsgərlər!**

Hörmətli konfrans iştirakçıları! "Silahlı Qüvvələrdə şəxsi heyətin mənəvi-psixoloji təminatının aktual məsələləri" elmi-praktiki konfransının öz işinə başlaması münasibətilə Sizi təbrik edir və uğurlar arzulayıram.

Sürətli inkişaf dövrünü yaşayan müstəqil respublikamız möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvəffəqiyyətli daxili və xarici siyasəti nəticəsində dünya birliyində mövqeyini günbəgün möhkəmləndirir, ölkə iqtisadiyyatı durmadan inkişaf edir.

Ölkəmizin iqtisadiyyatı gücləndikcə silahlı qüvvələrimiz də güclənir, qüdrətlənir. Möhtərəm Prezidentimizin qeyd etdiyi kimi, artıq Azərbaycanın istənilən döyüş tapşırığını yerinə yetirməyə qadir milli ordusu vardır.

Ali Baş Komandan cənab İlham Əliyev 6 avqust 2014-cü ildə təmas xəttində döyüşdə fərqlənmiş bir qrup hərbi qulluqçu ilə görüş zamanı demişdir: "Azərbaycan ordusunun peşəkarlığı, döyüş qabiliyyəti artır. Azərbaycanın əsgər, gizir və zabitləri vətənə sədaqətlə xidmət edirlər, öz vətəninə sadiqdirlər. Bunu bütün hərbi hissələrimizdə, xüsusilə, ön cəbhədə yerləşən hərbi hissələrdə xidmət edən şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksək olması tamamlayır. Azərbaycan əsgərinin ruh yüksəkliyi, vətənpərvərlik hissləri çox yüksəkdir, möhkəmdir".

Əmin olduğumu bildirmək istəyirəm ki, siz bundan sonra da ulu öndər Heydər Əliyevin ideyasına sadiq qalaraq, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin göstərdiyi bu diqqət və qayğıya, etimada əməli fəaliyyətinizlə, vətənə, dövlətə, xalqa nümunəvi xidmətlərinizlə cavab verəcəksiniz.

Bu gün qarşımızda duran ən mühüm vəzifələrdən biri orduda mənəvi-psixoloji hazırlıq işini, eləcə də, əsgəri heyətin vətənpərvərlik tərbiyəsini yüksəltmək üçün mümkün olan bütün üsul və vasitələrdən yaradıcılıqla istifadə etməkdir. Heç vaxt unutmamalıyıq ki, ordunun maddi-texniki bazası nə qədər güclü olsa, ordu nə qədər müasir silahla təchiz edilsə də, ordunun əsas gücü onun şəxsi heyətinin döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə olmasındadır.

Orduda xidmət edən hər kəs düşməni məğlub etmək üçün yüksək vətənpərvərlik hissinə malik olmalıdır. Yalnız vətəninə, xalqına və dövlətinə ürəkdən sevgisi olan hərbi qulluqçu dövlətimizin keşiyində möhkəm dayana bilər.

İnanıram ki, bütün bu məsələlər konfransda müzakirə obyekti olacaq və şəxsi heyəti qarşıda duran ən vacib vəzifənin yerinə yetirilməsinə – qısa zaman ərzində torpaqlarımızı erməni silahlı birləşmələrinin işğalından azad etməyə daha bir stimul yaradacaqdır.

Bir daha konfransın öz işinə başlaması münasibətilə sizi təbrik edir və işgüzar müzakirələr arzulayıram.

# « BİZİM ƏN ƏSAS VƏZİFƏMİZ ORDUNUN DÖYÜŞ QABİLİYYƏTİNİ ARTIRIB, TORPAQLARIMIZI DÜŞMƏNDƏN AZAD ETMƏKDİR »



*Müdafiə nazirinin şəxsi heyət üzrə müavini – Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim VƏLİYEV*

***Silahlı Qüvvələrin döyüş hazırlığı planına və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq əmrinə əsasən Müdafiə nazirinin müavini, general-leytenant Kərim Vəliyevin rəhbərliyi ilə cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsində elmi-praktik konfrans keçirilmişdir. Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin təşkilatçılığı ilə keçirilən tədbirdə Əlahiddə Ümumqoşun Ordusunun, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrinin komandir və rəislərinin şəxsi heyətlə iş üzrə müavinləri, hərbi xidmətdə fərqlənən zabitlər, gizirlər, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları, əsgərlər və psixoloqlar, mətbuat nümayəndələri iştirak etmişlər.***

General-leytenant Kərim Vəliyevin tezis və tövsiyə xarakterli çıxışı konfransa istiqamət verməklə yanaşı, onun məqsədini, praktiklik dərəcəsini və əhəmiyyətinin nədən ibarət olduğunu sərgiləmişdir. General-leytenant K.Vəliyev öz çıxışında bunları vurğulamışdır:

– Son zamanlar silahlı qüvvələrdə aparılan islahatlar şəxsi heyətin döyüş əzminin, mənəvi-psixoloji və peşəkar hazırlığı səviyyəsinin yüksək olduğunu deməyə əsas verir. Ordu quruculuğunun əsasını təşkil edən mənəvi-psixoloji təminat silahlı qüvvələrin döyüşə hazır olmasının ən əsas göstəricilərindən biridir. Ordu potensialına görə güclü ola bilər, lakin şəxsi heyətin mənəvi-psixoloji vəziyyəti yetərincə deyilsə, o ordu məğlubiyyətə düçardır. Bizim ən əsas vəzifəmiz ordunun döyüş qabiliyyətini artırıb, torpaqlarımızı düşməndən azad etməkdir. Yüksək nizam-intizam, təşkilatçılıq, şəxsi igidlik, qəhrəmanlıq nümunələri və hərbçinin şəxsi heyətin zəruri keyfiyyətləridir. İnsan faktoru ən vacib faktor kimi qalmaqdadır, bunu hər kəs bilməlidir.

"Silahlı Qüvvələrdə şəxsi heyətin mənəvi-psixoloji təminatının aktual məsələləri" mövzusunda keçirdiyimiz bugünkü elmi-praktiki konfrans hər birimizin həyatında və fəaliyyətində yeni mərhələnin başlanğıcı olacaq, qarşımızda yeni mühüm vəzifələr qoyacaq və məsuliyyətimizi daha da artıracaqdır. Mövzunun aktuallığı hər bir konfrans iştirakçısını düşünməyə, yeni yollar arayıb-axtarmağa, xalqa, Vətənə yeni nəfəs, yeni qüvvə ilə xidmətə ruhlandırır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı ilə ordumuzun maddi-texniki təminatı günbəgün güclənir, şəxsi heyət müasir texnika və silahlarla təchiz olunur. Ardıcıl olaraq cəbhə bölgələrində və Bakıətrafı poliqonlarda qoşun növləri üzrə keçirilən iri-miqyaslı taktiki təlimlər böyük rezonans doğurdu. Bu təlimlər silahlı qüvvələrimizin strukturunu təşkil edən bütün qoşun növlərinin döyüş hazırlığının yüksək olmasının təsdiqi ilə yanaşı, onların arsenalına daxil olan hərbi texnikaların modern texnologiyaya əsaslandığını, müasir döyüş standartlarına tam cavab verdiyini bir daha nümayiş etdirdi. Buna görə də, qeyd edə bilərik ki, hər bir təlim ordunun döyüş hazırlığına öz töhvəsini verir. Elə hazırkı toplantımız da belə təlimlərdən biridir və sizi fəal olmağa, müzakirələrə qoşulmağa, diskussiyalarda yaxından iştirak etməyə çağırıram.

# SİLAHLI QÜVVƏLƏRDƏ ŞƏXSİ HEYƏTİN MƏNƏVİ-PSİXOLOJİ TƏMİNATININ AKTUAL MƏSƏLƏLƏRİ

Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi

**Polkovnik Rüfət ƏMİROVUN məruzəsi**



**Cənab general-leytenant! Cənab zabitlər, gizirlər, çavuşlar və əsgərlər!**

Məruzəyə başlamadan öncə böyük inam hissi ilə əmin olduğumu bildirmək istəyirəm ki, "Silahlı Qüvvələrdə şəxsi heyətin mənəvi-psixoloji təminatının aktual məsələləri" mövzusunda keçirdiyimiz bugünkü elmi-praktiki konfrans hər birimizin həyatında və fəaliyyətində yeni mərhələnin başlanğıcı olacaq, qarşımızda yeni mühüm vəzifələr qoyacaq və məsuliyyətimizi daha da artıracaqdır.

Mövzu həqiqətən aktualdır və hər bir konfrans iştirakçısını düşünməyə, yeni yollar arayıb axtarmağa və xalqa, Vətənə yeni həvəs, yeni qüvvə ilə xidmətə ruhlandırır.

Mən deyərdim ki, insan yarandığı ilk gündən maddi təminatla yanaşı, mənəvi-psixoloji təminat məsələləri də onun ehtiyacına çevrilmiş və ömrünün sonuna kimi bəşər övladını əhatə etmişdir. Müharibələr zamanı qələbənin əldə olunmasında maddi-texniki və digər təminatlardan əlavə mənəvi-psixoloji təminat məsələləri heç də az rol oynamamışdır. Bütün dövrlərdə görkəmli sərkərdələr, filosoflar hətta şahlar, xaqanlar belə qoşunların mənəvi-psixoloji təminat məsələlərini önə çəkmişlər. Sağlam mənəvi-psixoloji mühit olmayan yerdə uğurdan, qalibiyyətdən danışmaq əsla mümkün deyildir.

Zaman dəyişir, insanın mənəvi-psixoloji təminatı özünün yeni forma və metodları, prinsip və mahiyyəti etibarı ilə daim yeniləşir, qarşıya dövrün diqtəsi ilə daha qlobal problemləri həll etmək vəzifələri qoyulur. Bu mənada, biz fəaliyyətimizdə tarix boyu əldə edilmiş, sınaqlardan çıxmış, özünü doğrultmuş müsbət təcrübələrdən bəhrələnməli, dünyaya baxaraq, zamanın nəbzini tutmalı, yeniləşmənin, müasirləşmənin və qloballaşmanın tələblərini işimizdə tətbiq etməliyik.

Biz dünyanın elə xoşbəxt xalqlarındanıq ki, bizim zəngin yeraltı, yerüstü sərvətlərimiz, milli-mənəvi dəyərlərimiz, zəngin ziyalı potensialımız vardır. Biz ona görə xoşbəxt xalqıq ki, bizim taleyimizə xalqımızın ümummilli lideri Heydər Əliyev kimi xilaskar, yolgöstərən, müdrik bir rəhbər və dünya şöhrətli şəxsiyyət düşmüşdür. Müasir müstəqil Azərbaycanımızın bu günü və gələcək inkişaf perspektivlərinin, milli-ideoloji konsepsiyasının əsasını məhz ulu öndərimiz yaratmış və bu iş bu gün də əbədiyaşar Ali Baş Komandanımızın özü qədər inandığı və gələcəyinə böyük ümidlər bəslədiyi möhtərəm prezidentimiz Cənab İlham Əliyev tərəfindən uğurla, yaradıcılıqla davam etdirilir. Heydər Əliyev irsi bizim ən kəsərli silahımızdır. Ulu öndərimizin düşüncə sistemi: Vətən naminə, dövlətçiliyimiz naminə, xalqımız naminə – o dahi insanın gördüyü hər cür işdə hər bir davranışda ağıllı, savadlı olmaq, dürüst, həqiqətsevər, insansevər, sülhsevər, çalışqan olmaq, müstəqil, müasir və milli birlik, bərabərlik uğrunda mübariz olmaq əsas şərtlərdəndir. Adını hörmət və ehtiramla xatırladığımız Heydər Əliyevin dövlətçilik prinsipi bi-

zim hər birimizə aydındır. Bu, dövlətçilik, azərbaycançılıq, layiqlik, sədaqətlilik prinsipləridir. Bəli, müstəqil Azərbaycan Respublikasının qurucusu olan Heydər Əliyevin düşüncə sistemi, dövlətçilik ənənələri bizim hər birimizin fəaliyyətində əsas prinsiplərdən olmalıdır. Şəxsi heyətin mənəvi-psixoloji təminatı istiqamətində bizim əsas fəaliyyətimiz Heydər Əliyevin düşüncə sisteminə, dövlətçilik ənənələrinə əsaslanmalıdır. Bu düşüncə sistemi və dövlətçilik ənənələri isə ilk növbədə Vətənə, dövlətə, xalqa sədaqətdən, yüksək əxlaqi, mənəvi, iradi keyfiyyətlərə malik olmaqdan, vətənpərvərlik, torpaqsevərlik, insansevərlik Vətən, torpaq uğrunda şəhidliyə hər an hazır olmaqdan ibarətdir. Kim ki, Silahlı Qüvvələrdə və yaxud qanunvericilikdə nəzərdə tutulmuş digər strukturlarda xidmət edir, gələcəkdə öz taleyini Vətənə, xidmətə həsr etmək istəyir, gərək o, sağlam mənəviyyata malik olsun. Ulu Öndərimizə görə sağlam mənəviyyat Azərbaycanın müstəqilliyinə sədaqət, Azərbaycan dövlətinə sədaqət, Azərbaycan xalqının bu gününə və gələcəyinə sədaqət, millətimizə sədaqətdir. Azərbaycan dövlətinə, müstəqilliyinə sədaqəti olmayan, xalqa xidmət etməyi özünə şəraf kimi qəbul etməyən insan Silahlı Qüvvələrdə xidmət edə bilməz. Bunun üçün də hər biriniz bilməlisiniz ki, mənəvi dəyərlərə, mənəvi keyfiyyətlərə malik olmasanız, bütün başqa biliklərinizə baxmayaraq siz müstəqil Azərbaycan Ordusunun dəyərli zabiti, dəyərli döyüşçüsü ola bilməzsiniz.

Gəlin etiraf edək ki, bu gün sürətli inkişaf dövrünü yaşayan Azərbaycan, həyata keçirilən uğurlu daxili və xarici siyasi kursu nəticəsində dünya birliyində mövqeyini günbəgün möhkəmləndirir. Dünyanın inkişaf etmiş dövlətlərinin cəmləşdiyi Avropa birliyi və s. beynəlxaq təşkilatların Azərbaycanla əməkdaşlığa can atması, bir çox regional, həmçinin qlobal iqtisadi layihələrdə ölkəmizin iştirakı bu amili bir daha təsdiq edir. Sözsüz ki, bütün bu uğurlar ölkə rəhbərliyinin həyata keçirdiyi düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində qazanılıb.

Bir faktı xüsusi olaraq vurğulamaq lazımdır ki, Heydər Əliyev ideyalarının daşıyıcısı cənab İlham Əliyevin 2013-cü ildə xalqın böyük səs çoxluğu ilə prezident seçilərək ölkəyə rəhbərlik etməsindən sonra Azərbaycanın həyatında yeni inkişaf mərhələsi başlayıb. Təkcə onu vurğulamaq kifayətdir ki, 2004-cü ildən ötən dövr ərzində ölkə iqtisadiyyatı 3,4 dəfə artıb, yoxsulluğun səviyyəsi 5,5 %-ə, işsizlik isə 4,8%-ə enib. Müasir sosial-iqtisadi infrastruktur yaradılıb, ölkənin enerji təhlükəsizliyi tam, ərzaq təhlükəsizliyi isə əsasən təmin olunub. Çoxlu sayda istehsal obyekti yaradılıb, müasir texnologiyalara əsaslanan zavod və fabriklər, texnoparklar istifadəyə verilib. Azərbaycan Cənubi Qafqazın və Xəzər hövzəsinin nəqliyyat-loqistika mərkəzinə çevrilib. Regional inkişaf proqramlarının davamlı olaraq həyata keçirilməsi bölgələrin simasını əsaslı şəkildə dəyişib və müasirləşdirib.

Məhz Prezident İlham Əliyevin gərgin əməyi sayəsində Azərbaycan 2011-ci ildə 155 ölkənin dəstəyi ilə BMT-nin Təhlükəsizlik Şurasına üzv seçilib. Nəzərə almaq lazımdır ki, yüz illik müstəqillik tarixinə malik olan bir çox ölkələr nə qədər cəhdlər etsələr də BMT Təhlükəsizlik Şurasının tərkibinə düşə bilməyiblər. Ona görə də qeyd etmək lazımdır ki, bu, Azərbaycan üçün böyük uğurdur. Ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artmasını göstərən amillərdən biri də 2015-ci ildə Birinci Avropa Oyunlarının məhz Azərbaycanda keçiriləcəyidir. Bu onu nümayiş etdirir ki, Azərbaycan dünya dövlətləri tərəfindən etibarlı tərəfdaş, güclü, qüdrətli ölkə kimi tanınır və qəbul edilir. Ölkəmiz inkişaf etdikcə ordumuz daha da qüdrətlənir, daha da güclənir. Əbəs yerə deyirlər ki, güclü dövlət güclü ordu deməkdir.

Cənab zabitlər, yaxşı bilirsiniz ki, Azərbaycan müasir texnologiyalara əsaslanan hərbi texnika və döyüş vasitələri ilə təchiz olunub və bu iş bu gün də davam etdirilir. Ordumuz bir sıra ölkələrin, xüsusilə də, Ermənistanın ordusundan qat-qat güclüdür. Azərbaycanın büdcəsi imkan verir ki, silahlı qüvvələr müasirləşdirilsin, yenidən qurulsun, ən yeni və güclü döyüş vasitələri ilə təchiz edilsin. Bu gün ordumuzun gücləndirilməsi ona görə vacibdir ki, Ermənistanın işğalçı siyasəti nəticəsində torpaqlarımızın 20%-i işğal olunub. Eyni zamanda Dağlıq Qarabağ münaqişəsinin həllinə yardımçı olan ATƏT-in Minsk Qrupunun fəaliyyəti qənaətbəxş deyil, ölkə başçıları, eyni zamanda xarici işlər nazirləri səviyyəsində

aparılan danışıqlar heç bir səmərə vermir. İstənilən ölkə üçün döyüş hazırlıqlı modern silahlar və döyüş vasitələri ilə təchiz olunmuş ordunun yaradılması, saxlanılması böyük həcmdə vəsaitlər tələb edir. Bu səbəbdən Azərbaycan güclü silahlı qüvvələrə malik olmaq üçün ölkənin iqtisadi qüdrətinin daha da artması ilə paralel şəkildə hərbi xərcləri də artırır.

Bu bir həqiqətdir ki, regionun lider dövləti olan Azərbaycan, eyni zamanda bölgədə sülhün, əmin-amanlığın qarantı rolunda çıxış edir. Dövlətimizin və xalqımızın əsas amalı regionu sabitlik və inkişaf məkanına çevirməkdən ibarətdir. Bununla belə, məlum olduğu kimi, Azərbaycanın davamlı sülh çağırışlarının müqabilində işğalçı Ermənistan tərəfindən adekvat addımlar atılmır. Belə ki, Ermənistanın işğalçılıq siyasəti nəticəsində suveren dövlətlərin ərazi bütövlüyünü təsbit edən beynəlxaq hüquq normaları kobud şəkildə pozulmuşdur. Təxminən bir milyon soydaşımız doğma yurd-yuvasından didərgin salınaraq qaçqın və məcburi köçkün vəziyyətində yaşayır. Siz bunları çox yaxşı bilirsiniz. Qeyd etdiyim kimi, bir sıra beynəlxalq təşkilatlar, o cümlədən BMT, ATƏT, AŞ PA, İƏT Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edilməsi faktını təsdiqləyən və pisləyən, işğalçı qoşunların zəbt olunmuş ərazilərdən qeyd-şərtsiz çıxarılmasını tələb edən qərar və qətnamələr çıxarmalarına baxmayaraq, Ermənistan işğalçılıq siyasətini davam etdirir, həmçinin hər vəchlə aqressiya nəticəsində yaranmış statuskvonun saxlanılmasına nail olmağa çalışır. Mövcud durum heç bir halda Azərbaycanı qane etmir.

Azərbaycan müharibə şəraitində yaşayır. Belə olan halda ordu quruculuğu nəinki dövlət qurumları, hər bir vətəndaş üçün də ən vacib, ən ümdə məsələyə çevrilmişdir.

Məlum hadisələr zamanı Azərbaycan Silahlı Qüvvələrinin düşmənə tutarlı zərbələr vurması həm xalqın Azərbaycan əsgərinə inamını artırmış, həm də şəxsi heyətdə daha böyük ruh yüksəkliyi yaratmışdır.

Hadisələrdən az sonra Azərbaycan Prezidenti Ali Baş Komandan cənab İlham Əliyevin cəbhə bölgəsinə gəlməsi, təmas xəttində döyüşçülərimizlə görüşü, fərqlənmiş hərbi qulluqçuları mükafatlandırması və şəxsi heyət qarşısında proqram əhəmiyyətli çıxış etməsi hər birimizin yadındadır. İndi qarşımızda duran əsas vəzifələrdən bəlkə də birincisi Prezidentin nitqindən irəli gələn vəzifələri uğurla həyata keçirmək və şəxsi heyəti məhz bu yönümdə tərbiyələndirməkdir.

Möhtərəm prezidentimiz həmin gün xidmətlərimizi yüksək qiymətləndirərək dedi: “**Azərbaycan Ordusunun peşəkarlığı, döyüş qabiliyyəti artıb, Azərbaycanın əsgər, gizir və zabitləri vətənə ləyaqətlə xidmət edirlər, öz vətəninə sadiqdirlər. Bizim bütün hərbi hissələrimizdə, xüsusi ilə ön cəbhədə yerləşən hərbi hissələrdə ruh yüksəkliyi var və Azərbaycan əsgərinin vətənpərvərlik hissləri çox yüksəkdir, möhkəmdir.”**

Həmin çıxışı ilə Ali Baş Komandan düşmənə tutarlı mesajlar göndərərək bəyan etdi ki, ordumuzda ən güclü artilleriya qurğuları vardır. Böyük dəqiqliyə və çox böyük dağıdıcı qüvvəyə malik olan raket sistemləri, döyüş və nəqliyyat helikopterləri, döyüş təyyarələri, zirehli texnika, tanklar – bütün bunlar bu gün Azərbaycan Ordusunun potensialını təşkil edən amillərdir. Bu gün Azərbaycan ordusu Dağlıq Qarabağdakı istənilən obyekti məhv edə bilər. Bunu biz də bilirik, Azərbaycan xalqı da, düşmən də bilməlidir.

Göründüyü kimi ölkə rəhbəri ən müasir hərbi texnikalardan, komplekslərdən, raket sistemlərindən danışmazdan öncə şəxsi heyətin ruh yüksəyliyindən, Azərbaycan əsgərlərinin vətənpərvərlik hissinin çox yüksək, möhkəm olduğundan bəhs etdi. Bu, hər birimizi düşündürməlidir. Deməli, ruh yoxdursa, vətənpərvəlik işi düzgün qurulmayıbsa, hər bir döyüşçü vətənpərvəlik hissi ilə yaşamırsa heç bir texnikanın gücündən danışmağa dəyməz. Bu mənada bizim işimiz çox, qarşımızdakı vəzifələr isə böyük zəhmət tələb edən məsuliyyətli vəzifələrdir. Mən bir daha cənab Ali Baş Komandanımızın 6 avqustda Ağdam bölgəsində, düşmənlə təmas xəttində döyüşçülərimiz qarşısında çıxışından daha bir sitat gətirmək istərdim. Möhtrəm Prezidentimiz o gün böyük inam hissi ilə dedi: Biz heç vaxt Azərbaycan torpağında ikinci qondarma “Erməni dövləti”nin yaradılmasına imkan verməyəcəyik, öz ərazi bütövlüyümüzü bərpa edəcəyik... ya sülh yolu ilə

ya hərbi yolla. Biz hər iki varianta hazırıq. Son həftə ərzində və ondan əvvəlki dövrdə təmas xəttində müşahidə olunan mənzərə onu deməyə əsas verir ki, biz istənilən varianta hazırıq. Necə ki, siyasi və iqtisadi meydanda ermənilərə qalib gəlmişik, döyüş meydanında da onlara qalib gəlməyə qadirik. Biz güclü hərbi potensiala malik dövlətik. Artıq bu, müxtəlif vaxtlarda nümayiş etdirilib. Hərbi təlimlərdə və paradlarda bizim texnikamız nümayiş etdirilir. Amma bizim ən böyük gücümüz əsgərlərimizin cəsarəti və vətənpərvərliyidir. Bu gün Azərbaycanda elə gözəl gənc nəsil yetişib ki, onların hamısı Ali Baş Komandanın əmrini gözləyir. Son hadisələr də bunu göstərir. Hətta hərb işindən kənarda olan insanlar da öz fikirlərini, istəklərini bildirirlər, könüllü olaraq cəbhə bölgəsinə getmək istəyirlər. Bu onu göstərir ki, Azərbaycanda vətənpərvərlik ruhu yüksəkdir. Mənəvi üstünlük bizim tərəfimizdədir.

Cənab zabitlər, mən çıxışımın bu məqamında ulu öndər Heydər Əliyevin bir kəlamını da xatırlatmaq istəyirəm. Vaxtilə ümummilli liderimiz demişdir: Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır. Bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. “Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişimizi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi, tariximizi yaxşı bilməyən gənc nəsil vətənpərvər ola bilməz.”

Bu dəyərli fikirlərdə tərbiyə işinin strateji istiqamətləri o qədər dəqiqliklə göstərilmişdir ki, onları qeyd-şərtsiz ordu məkanında aparılan mənəvi-psixoloji və vətənpərvərlik tərbiyəsi işində proqram sənəd kimi qəbul etməliyik.

Bu konsepsiya, proqram öyrədir ki, şəxsi heyətlə aparılan mənəvi tərbiyə işində keçmişlə bu günün, tarixlə müasirliyin vəhdətinə, xalqın qəhrəmanlıq ənənələrinin roluna, onun şanlı keçmişinə böyük əhəmiyyət verilməli, ötən illərin plakatçılıq, şüarçılıq kimi artıq tarixin arxivinə verilmiş metodlarından tam imtina olunmalıdır. Belə olarsa, yeni məzmun və formaya malik ordu mədəniyyəti deyilən bir mədəniyyətin formalaşması labüddür. Onun həm yaradıcısı, həm də daşıyıcısı olan hərbi qulluqçular isə öz hərbi xidmətini başa vurub ailəyə, cəmiyyətə daha yüksək davranış mədəniyyətinə, yenilməz, möhkəm xarakterə malik kamil vətəndaş kimi qayıdacaqlar. Silahlı qüvvələrdə şəxsi heyətin mənəvi-psixoloji tərbiyəsinin əsas istiqamətləri müəyyən edilərkən mədəni irsimizin tarixi nailiyyətlərinə, onun qurucu, yaradıcı enerjisinə, milli əxlaq və davranış kodeksinə daha çox istinad edilməlidir ki, hər bir hərbi qulluqçu hərbi kollektiv daxilində öz yerini doğma evindəki yeri kimi başa düşsün, bu ailənin möhkəmləndirilməsi, şərəf və ləyaqətinin uca tutulması üçün cavabdehlik hissi daşısın. Hərbi hissələrdə keçirilən mədəni-kütləvi tədbirlərin səviyyəsini yüksəltmək üçün səylər göstərilməli, bu tədbirlər elə təşkil olunub keçirilməlidir ki, konkret bir problem, mövzu ətrafında canlı ünsiyyət, fikir mübadiləsi kimi böyük təsir gücü qazansın.

Şəxsi heyətin vətənpərvərlik tərbiyəsində bütün problemlərin tam şəkildə həll olunduğunu düşünmək sadəlövhlük olardı. Bu, bir neçə amillə şərtlənir. Əvvəla Azərbaycan Silahlı Qüvvələrinin əsas hissə və bölmələri ekstremal şəraitdə, bilavasitə düşmənlə təmas xəttində fəaliyyət göstərir. Bununla əlaqədar olaraq şəxsi heyətin mənəviyyatında və psixologiyasında xidmətin xüsusi şəraitindən irəli gələn qəfillik, gözlənilməzlik, çeviklik, operativlik, sayıqlıq və gərginlik kimi motivlər ön plana keçir. Bunlar isə xüsusi fiziki və əsəbi dayanıqlıq tələb edən motivlərdir. Ona görə də Azərbaycan Silahlı Qüvvələrində mənəvi-psixoloji tərbiyə işi ilə məşğul olan zabitlərin fəaliyyətinin əsas məqsədi şəxsi heyətin yüksək döyüş fəallığına, döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı yüksək əsəb-psixi gərginliyə dözmə və döyüş qabiliyyətini saxlama bacarığına nail olmaqdır. Bu vəzifənin yerinə yetirilməsi Vətənə, Konstitusiyaya, dövlətçiliyimizə sədaqət, dözümlülük, mətn iradə kimi yüksək mənəvi-psixoloji keyfiyyətlərin formalaşdırılması istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi ilə təmin olunur. Obrazlı şəkildə desək, mənəvi-psixoloji işlə məşğul olan mütəxəssis konkret halda hər hansı bir hərbi qulluqçunun saf mənəviyyatı, sabit və tarazlaşdırılmış psixoloji durumu uğrunda mübarizə aparsa da, əslində həm də bütün kollektivin döyüş hazırlığının səviyyəsini yüksəltmək istiqamətində fəaliyyət göstərir.

Bunun üçün ictimai-siyasi hazırlıq sistemində keçirilən məşğələlərlə yanaşı, gündəlik tərbiyə işi aparılmalı və bu zaman ümumi və xüsusi psixoloji tərbiyə sahələrində psixoloji yardım və psixoloji bərpa kimi iş üsullarından istifadə olunmalıdır. Son məqsəd müasir psixologiya elminin nailiyyətlərindən istifadə edərək hərbi qulluqçuların fərdi-psixoloji xüsusiyyətlərini öyrənmək, hərbi xidmətin özəllikləri, çətinlikləri ilə bağlı yarana bilən mənfi psixoloji halların – ruh düşkünlüyünün, özünə inamsızlığın, depressiyaların qarşısını almaq, hərbi qulluqçuların şüuraltı gedən qarmaşıq prosesləri düzgün məcraya yönəltmək, orduda qarşılıqlı münasibətlərin düzgün psixoloji modelini qurmaq və kollektivi döyüş tapşırıqlarının həllinə səfərbər etməkdir. Məsələnin ikinci tərəfi isə onunla bağlıdır ki, hal-hazırda Azərbaycan ordusunda xidmət edən əsgər kontingentinin əsas hissəsi uşaqlıq dövrü ictimai həyatın müxtəlif sahələrində mənəvi dəyərlərin hələ tam oturuşmadığı dövrə düşən gənclərdir. Köhnə dəyərlərin dağıldığı, yenilərinin isə hələ tam yaranmadığı həmin illərdə ictimai şüurda, mənəviyyatda baş verən təlatümlər, heç şübhəsiz ki, onların xarakterində həyat və düşüncə tərzində öz izlərini  qoyub.

Əlbəttə, birdən-birə ailəsindən, dostlarından, vərdiş etdiyi həyat tərzindən, elektron informasiya şəbəkəsinin təlqin etdiyi virtual dünyadan, artıq formalaşmış fəaliyyət ritmindən ayrılıb yeni mühitə düşən gənclərin hərbi xidmətin ilk dövründə, buna ordu mühitinə uyğunlaşma dövrü də deyirlər,  bu gənclərin mülkü həyat üçün darıxmaları təbiidir. Özü də bu, sırf psixoloji xarakter daşıyan problem deyil, burada sosioloji amillərin rolundan da danışmaq olar. Axı insan bir şəxsiyyət kimi ailədə, cəmiyyətdə tərbiyə olunur. Etiraf etməliyik ki, hərbi xidmətə çağırılan kontingent savad, dünyagörüş, mənəvi-sosial maraqlar, ruhi vəziyyət parametrləri üzrə yekcins deyil. Ordu müxtəlif sosial xa-rakterlərin, müxtəlif maraq və motivlərin qovuşduğu məkandır. Burada fiziki və mənəvi key-fiyyətlərinə görə bir-birinə bənzəməyən on minlərlə ailədən çıxmış gənclər xidmət edirlər. Onların hər birinin özünəməxsus sosial temperamenti, ailədə, məktəbdə aldığı tərbiyədən asılı olaraq fərqli dünyagörüşü, maraq dairəsi var. Ailədə nəzarətsiz buraxılmış, mənəvi dünyası deformasiyaya uğramış, yaxud həyat haqqında təsəvvürləri tam formalaşmamış gəncin orduya gələn kimi bir neçə günün içində dəyişib başqa adama çevriləcəyini fikirləşmək sadəlövhlük olardı. Bu mənada, Vətən qarşısında öz konstitusiya borcunu dərk edən, torpağını, xalqını sonsuz məhəbbətlə sevən əsgər yetişdirmək valideynlərdən, bağça müəllimlərindən tutmuş komandirlərə qədər hər bir şəxsin, bütün humanitar profilli institutların, ictimai təsisatların birgə işidir. Çox təəssüflər olsun ki, bu istiqamətdə həyata keçirilən tədbirlərin yüksək effektindən danışmaq, bütün  problemlərin aradan qaldırıldığını söyləmək hələ tezdir. Əksinə, əsgərlərin hərbi xidmətlə bağlı məruz qaldıqları ən amansız psixoloji təsir də elə mülki həyatdan, bəzi kütləvi informasiya vasitələrinin ordu həyatı, hərbi xidmət barədə yazdıqları yalanlardan irəli gəlir. Bir sıra hallarda bəzi qüvvələr ordu ilə cəmiyyət arasında uçurum yaratmaq, ordunun imicini ləkələmək uğrunda sanki yarışa girirlər. Bəzi özəl televiziya və radio kanalları gəncləri işğal altında olan torpaqların təəssübünü çəkməyə yox, restoranlara, barlara çağırır. Mənasız, bayağı şoular təşkil edərək kosmopolit düşüncə və əxlaq tərzini təbliğ edirlər. Vətənpərvərlik tərbiyəsi sahəsində audiovizual kommunikasiya vasitələrinin çevik imkanlarından lazımınca istifadə olunmur.

Ölkəmizdə onlarla qeyri-hökumət təşkilatı fəaliyyət göstərir. Vətənpərvərlik tərbiyəsi sahəsində bu təşkilatların əksəriyyətinin gördüyü işləri qənaətbəxş hesab etmək olmaz. Halbuki, onlar hərbi vətənpərvərlik klubalrının təşkili qayğılarını öz üzərlərinə götürüb bu mühüm işə layiqli töhvələr verə bilərdilər.

Əlbəttə, bütün bunlar öz təsirini obrazlı şəkildə desək, cəmiyyətin bətnindən doğan orduda göstərməyə bilməz. Lakin biz günahkar axtarışlarından yan keçərək, ordudan artıq mənəvi cəhətdən kamilləşmiş, müəyyən dünyagörüşə malik sosial fərd kimi yetişmiş kontingentin tərxis olunmasının zəruriliyi barədə fikirləşməliyik. Bu isə hərbi qulluqçuların vətənpərvərlik tərbiyəsində yeni meyarların, vasitələrin tapılması lüzumunu doğurur. Bəşəriyyətin tarixi göstərir ki, xalqın daxili enerjisinə, gücünə, müdrikliyinə istinadən apa-

rılan tərbiyə işi həmişə effektli olur, arzulanan nəticələri əldə etməyə imkan verir. Biz şəxsi heyətin vətənpərvərlik tərbiyəsində bu amildən istifadə etməli, tərbiyə obyektinə ona doğma olan, onun genetik yaddaşında yaşayan bir dillə təsir etməyi bacarmalıyıq. Yad dildə, mücərrəd anlayışlar üzərində, özgə xalqların əxlaq və düşüncə meyarları ilə aparılan tərbiyə işi elə ilk cəhddən uğursuzluğa məhkumdur. Ona görə də şəxsi heyətlə aparılan ictimai-siyasi hazırlıq məşğələlərində, eləcə də digər mədəni tədbirlərdə xalqımızın illərin sınağından çıxmış milli-mənəvi dəyərlər sistemindən daha çox istifadə olunmalı, daha dəqiq desək, bütün ideoloji tərbiyə işi daha çox bu baza üzərində qurulmalıdır.

Fürsətdən istifadə edərək qeyd edim ki, son vaxt-lar həyata keçirilən tədbirlər nəticəsində ordu sıralarında qulluq edən gənclərimizin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi prioritet istiqamətə çevrilməkdədir. Ölkəmizin işğal olunmuş torpaqlarının azad olunmasının, ərazi bütövlüyümüzün bərpa edilməsinin dövlətimizin ən əsas məqsədlərindən olduğunu tam dərk edən gənclərimiz milli və hərbi vətənpərvərlik ideyalarına sədaqəti özfəaliyyət prinsiplərinə çevrilmiş, bu yolda həmişə döyüşə hazırdırlar.

Xalqımızın milli davranış etiketi, əxlaqı, ümumiyyətlə, milli mentalitetimiz əsrlər boyu yaradılmış maddi və mənəvi mədəniyyət örnəklərimizdə hifz olunmuşdur. Vətənə, torpağa yiyəlik hissi, düşmən qabağında əyilməmək, ona arxa çevirməmək, dostluqda sədaqət, doğruçuluq, ən çətin anlarda da ləyaqət hissini itirməmək və sair mənəvi-əxlaqi dəyərlər atalar sözlərindən, folklor nümunələrindən tutmuş epik təşəkkülün məhsulu olan monumental sənət abidələrinə qədər bütün mənəvi sərvətlərimizdə yüksək pafosla tərənnüm olunmuşdur. "Keçmə namərd körpüsündən, qoy aparsın sel səni", "İgid odur hər əzaba qatlana, igid odur atdan düşə, atlana" deyən babalarımız igidliyi, mərdliyi qəhrəmanlıq dastanlarında xüsusi bir məhəbbətlə vəsf etmiş və bu dəyərlər neçə əsrlər boyu Azərbaycan xalqının kişilik, ərənlik təsəvvürlərinin məhək daşına çevrilmişdir. Elə indinin özündə də silahlı qüvvələrin şəxsi heyəti ilə aparılan tərbiyə işində bu ənənələrə sadiqlik bir çox problemlərin həllində ən yaxşı vasitəyə çevrilir. Məsələn, götürək keçmiş sovet ordusundan miras qalmış "dedovşina" problemini. "Dedovşina" plakatçılıq və şüarçılıq prinsipləri ilə aparılan mənəvi-ideoloji işin mahiyyətindən doğan bir hadisədir. Şəxsiyyətin mənəvi cəhətdən sındırılması, ləyaqətin alçaldılması bütövlükdə totalitar düşüncənin, əxlaq tərzinin mayasında idi. Azərbaycanda da silahlı qüvvələr quruculuğunun ilk dövrlərində onun təzahürlərinə rast gəlmək mümkün olurdu. Şəxsi heyətlə aparılan tərbiyə işinin əsas istiqamətləri müəyyənləşdirilərkən hər bir fərdin şəxsiyyə-tinə və mənlik hisslərinə hörmət edilməsinin va-cibliyi ön plana çəkildiyinə görə bu təmayülün qarşısı demək olar ki alınmışdır.

Hərbi qulluqçular arasında qarşılıqlı münasibətlər, əlbəttə, ilk növbədə nizamnamələrin tələbi əsasında qurulur. Lakin heç şübhəsiz ki, milli əxlaq kodeksindən, davranış etiketindən irəli gələn genetik yaddaş da sözünü deyir. Öz layiqli əməyi, faydalı fəaliyyəti ilə nüfuz qazanmış şəxslərə hörmətlə yanaşmaq milli davranış mədəniyyətimizin təməl prinsiplərindən biridir. Qarşılıqlı münasibətləri sivil bir tərzdə tənzimləyən bu ənənənin ordu məkanında da davam etdirilməsinin böyük tərbiyəvi əhəmiyyəti var.

Yaxud leksikonumuzda bol-bol işlədilən "vətənpərvərlik" anlayışını götürək. Olduqca geniş mənaya malik olan bu anlayış özündə Vətənə, millətə sevgi hissini, Vətənə xidmət etməyi birləşdirsə də, bunların zirvəsində Vətən yolunda şəhidliyə hazır olmaq hissi dayanır. Bu, vətənpərvərliyin ən ali formasıdır. Müstəqil Azərbaycanın hərb tarixində bu həqiqəti təsdiq edən onlarla örnək var. Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun göstərdiyi fədakarlıq isə Azərbaycan gənclərinin şüuruna hakim kəsilən dərk edilmiş vətənpərvərlik modelinə ən parlaq nümunədir. Millətin vətənpərvərliyi heç şübhəsiz ki, onun tamlığının, bütövlüyünün təməlidir. Hər bir xalqın vətənpərvərlik şüuru onun digər xalqlar tərəfindən qəbul edilməsi, hörmətlə qarşılanması, ən başlıcası isə, o xalqın yaratdığı dövlətin suverenliyi ilə ölçülür.

Əgər tarixə nəzər salsaq görərik ki, Azərbaycanın igid oğulları həmişə vətənpərvər olmuş, Vətəni düşmən ayağına verməmişlər. Vətənə təmən-

nasız xidmət, onun yolunda hər cür çətinliklərə dözmək xalqımızın milli düşüncə və əxlaq tərzinə çevrilmişdir. Bu şanlı ənənəni ləyaqətlə davam etdirən oğulların şərəfli ömür yolu ordumuzun şəxsi heyəti üçün örnək olmalıdır. Biz unutmamalıyıq ki, bu mənəvi dəyərlərin təkcə qoruyucusu yox, həm də daşıyıcısı və bayraqdarı olmaq lazımdır. Elə etmək lazımdır ki, bu hiss təkcə hərbi qulluqçuların deyil, ümumiyyətlə, bütün vətəndaşların qəlbinə və düşüncəsinə hakim kəsilsin.

Müasir müharibənin davamı və nəticəsi həlledici mərhələdə hissələrin şəxsi heyətinin mənəvi-psixoloji vəziyyətindən asılıdır. Mənəvi-psixoloji vəziyyət hərbçilərin psixoloji əhvalının və mənəvi sağlamlığının göstəricisi olaraq, onların döyüş xidmətinin, döyüş növbəsinin, döyüş hazırlığı tapşırıqlarının yerinə yetirilməsinə hazırlığı deməkdir. Şəxsi heyətin mənəvi-psixoloji vəziyyəti – özünü ayrılıqda hərbçinin və hərbi kollektivin müəyyən vaxt və müəyyən şəraitdəki psixologiyası, hərbçilərin şəxsi döyüş (xidməti) fəallığı səviyyəsində büruzə verən, psixoloji və hərbi-əxlaqi meyarlar nöqteyi-nəzərindən qiymətləndirilən psixoloji vəziyyətdir.

Döyüşçünün mənəvi-psixoloji keyfiyyətləri bilavasitə planlı və gərgin döyüş hazırlığı prosesində formalaşır. Hazırda Azərbaycan Respublikası ərazisinin bir hissəsinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduğu bir dövrdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bir sıra hərbi hissələri düşmənlə bilavasitə təmas vəziyyətində döyüş növbətçiliyi xidmətlərini aparır və torpaqlarımızın düşməndən etibarlı müdafiəsi kimi şərəfli və eyi zamanda çox çətin bir vəzifəni yerinə yetirirlər. Bu isə həmin hərbi hissələrin şəxsi heyətindən yüksək döyüş hazırlığı, möhkəm hərbi intizam, öz postunda ayıq-sayıq xidmət aparmaq, qorxmazlıq, düşmənə nifrət, öz silahına, komandirlərinə inam kimi döyüşçü keyfiyyətlərinin tərbiyə olunmasını tələb edir.

Döyüş tapşırıqlarının dərk edilməsinin və yerinə yetirilməsinin əsasını hərbi qulluqçunun Vətən və xalq qarşısında Vətəni qorumaq kimi müqəddəs borcunu, öz vəzifələrini şüurlu şəkildə anlaması təşkil edir. Mən bu məsələ üzərində qısaca dayanmaq istəyirəm. Əlbəttə, konkret şəraitdən asılı olaraq insanı nəyəsə məcbur etmək olar. Lakin tərbiyə işində bu taktikanın faydalı iş əmsalı heç də yüksək olmayacaq. Müdriklərdən biri deyir ki, dünyanı dərk etməyin ən qısa yolu – özünü dərk etməkdir. İnsanın hər bir əməli yalnız onun motivlərini, zəruriliyini dərk etdikdə real güc qazanır. Bu mənada insanı vətənpərvər, cəsur, qorxmaz, iradəli olmağa sövq edə bilər. Şəxsi heyətlə iş apararkən bu amil mütləq nəzərə alınmalıdır. Elə etmək lazımdır ki, hərbi qulluqçuların xidmətində dərk olunmuş dəyərlər sistemi ön plana keçsin. Yalnız bu halda tərbiyə işinin effektivliyindən danışmaq olar.

Özünə inam hissinin formalaşması hərbi qulluqçunun bir döyüşçü kimi yetişməsində əsas şərtdir. Özünə inam olmayanda hətta istedad da qeybə çəkilir, əməli əhəmiyyətini itirir, hisslərə hakim kəsilən süstlük, digər mənəvi keyfiyyətlərin də iflic vəziyyətə düşməsinə səbəb olur. Buna görə də hər bir hərbi qulluqçuya onun düşməndən hər cəhətdən üstün olan bir xalqın övladı olması, qüdrətli bir dövləti təmsil etməsi inamını dərindən aşılamaq lazımdır.

Mənəvi – döyüş keyfiyyətlərindən biri də dözümlülükdür. Dözümlülüyə adətən çətinliklərlə uzunmüddətli mübarizədə, qoyulmuş tapşırıqların yerinə yetirilməsində yenilməz, qəti və məqsədyönlü inadkarlıqla nail olunur.

Cəsarət və igidlik bilavasitə təhlükəli şəraitdə şüurlu riskə getməyə və döyüş fəallığı göstərməyə kömək edir. Hər bir hərbi qulluqçunun fəaliyyətində təşəbbüskarlıq, qətiyyətlilik və müstəqillik böyük əhəmiyyətə malikdir.

**Təşəbbüskarlıq** – bu, döyüşçünün komandirin əmrlərini və tapşırıqlarını yerinə yetirərkən yaradıcılıq, ağıllı təşəbbüs göstərmə və bacarıq qabiliyyətidir.

**Qətiyyətlilik** – vaxtında qərar qəbul etmək, ləngimədən, dərhal onu yerinə yetirmək deməkdir və inamlı, qəti hərəkət, işgüzarlıq, tapşırılmış iş üçün yüksək məsuliyyət hissi ilə ifadə olunur. Bu keyfiyyət yaranmış vəziyyəti tez qiymətləndirməyə və qəbul edilmiş qərarı yerinə yetirməyə kömək edir.

Mənəvi-döyüş keyfiyyətlərindən biri də hərbi qulluqçunun xalq və Vətən qarşısında olan məsuliyyətinə ciddi münasibət və düşmənə nifrət

hissləri ilə ifadə olunan sayıqlıqdır.

Milli-mənəvi dəyərlərimizdən danışarkən din faktorunun üzərindən sükutla keçmək olmaz. Nəzərinizə çatdırım ki, Azərbaycan ordusunda şəxsi heyətin din azadlığı təmin olunub, hərbi qulluqçuların dini ritualları yerinə yetirməsində heç bir maneə və məhdudiyyət yoxdur. Lakin, fikrimizcə, dini təbliğatın ordu mühitinə gətirilməsi və bu işin nəzarətsiz buraxılması yolverilməzdir. Əvvəla ona görə ki, Konstitusiyaya görə din dövlətdən ayrıdır. Digər tərəfdən, cəmiyyətin özündə sui-istifadə, onun düzgün təbliğ olunmaması kimi hallara təsadüf edilir. Bu məsələnin islam fundamentalizmi ilə əlaqələndirilə bilən siyasi məqamlarını da unutmaq olmaz.

Hörmətli zabitlər!

Möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev çıxışlarının birində torpaqlarımızın işğaldan azad edilməsi üçün cəmiyyətdə və orduda hərbi vətənpərvərlik tərbiyəsinin, mənəvi ruhun yüksək səviyyədə olmasının vacibliyini diqqətə çatdırmış və bu baxımdan silahlı qüvvələrdə vəziyyətdən razı qaldığını bildirmişdir. Biz gündəlik işimizdə bu ehtimalı daha da möhkəmləndirməyə hər an səy göstərməliyik.

Hər bir hərbi hissənin öz təyinatına görə döyüş tapşırıqları var. Bu tapşırıqları yerinə yetirmək üçün hissə və bölmələr kifayət qədər texnika, silah və sursatlara malikdirlər. Hərbi qulluqçular onlara həvalə olunmuş döyüş texnikası, digər texnikadan və silahlardan bacarıqla istifadə etməklə qarşıda qoyulmuş döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirmək üçün öz bilik, bacarıq və vərdişlərini daha da artırmalı, Azərbaycan xalqı və dövləti qarşısında Vətənin müdafiəsi, ərazi bütövlüyünün bərpası və müstəqilliyimizin təmin olunmasında məsuliyyətlərini şüurlu dərk etməli, yüksək döyüş və mənəvi-psixoloji hazırlığa, möhkəm hərbi intizama malik olmalıdırlar.

Yəqin ki, məndən sonra çıxış edənlər Silahlı Qüvvələr şəxsi heyətinin mənəvi-psixoloji hazırlığının aktual məsələlərindən bəhs edərək bugünkü elmi-praktiki konfransın qarşımızda qoyduğu məqsədinə çatmaq üçün öz səylərini əsirgəməyəcəklər. Xahiş edərdim ki, real faktlara, təcrübəyə əsaslanaraq öz fikirlərinizi, təkliflərinizi bildirəsiniz. Bizim əsas məqsədimiz ondan ibarətdir ki, hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, xalqımıza sədaqət hissini hər şeydən üstün tutsun. Məhz bu keyfiyyətləri özündə əks etdirən Azərbaycan Ordusununun hərbi qulluqçusu ordumuzu möhkəmləndirə və hər an qələbəyə nail ola bilər.

Mən məruzəmin sonunda bir daha silahlı qüvvələrdə tərbiyə işinin əsas tərkib hissələrini sizə xatırlatmaq istərdim. Bu, hərbi-ideoloji iş, hərbi tərbiyə işi, nizam-intizamın təhlili, mənəvi-psixoloji hazırlıq, hərbi qulluqçuların sosial-hüquqi müdafiəsi, mədəni-kütləvi iş, asudə vaxtın təşkili, texniki-təbliğat vasitələri ilə təminatdan ibarətdir.

Tərbiyə işinin təşkili və aparılması müəyyən prinsipləri əsas tutmaqla həyata keçirilir. Bu prinsiplər isə aşağıdakılardan ibarətdir: dövlətin siyasi və hərbi rəhbərliyi, mərkəzi idarəetmə, inadkarlıq və möhkəmlik, şəraitə operativ və vaxtında uyğunlaşma, şəxsi məsuliyyət.

Tərbiyə işində öyrətmək, təhlil etmək, qiymətləndirmək, nəticə çıxarmaq, proqnoz vermək, məqsədi və tapşırıqları müəyyənləşdirmək, planlaşdırma, kadrların öyrənilməsi, yerləşdirilməsi və onların tərbiyəsi, təcrübənin ümumiləşdirilməsi və təbliği üsullarından istifadə olunur.

Ümumiyyətlə, silahlı qüvvələrin şəxsi heyətinin şüurunda dövlətin, xalqın mənafeyini müdafiə etmək hisslərinin aşılanmasına, onların inkişafına, daha da təkmilləşməsinə yönəldilən fəaliyyət hər birimizdən böyük məsuliyyət tələb edir və mən əminəm ki, Azərbaycan naminə biz fəaliyyətimizi müasir dövrün tələblərinə uyğun olaraq tənzimləyəcəyik.

Bu gün möhtərəm Prezidentimiz Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı sayəsində Azərbaycan Ordusunun hər bir əsgər və zabiti Azərbaycan Respublikasının Konstitusiyasina, Hərbi Anda və nizamnamələrə sadiq qalaraq respublikamızın ərazi bütövlüyünün bərpasına, torpaqlarımızı işğalçılardan azad etməyə hər an hazırdır.

Diqqətinizə görə sağ olun.

# YENİ HƏVƏS YENİ QÜVVƏ İLƏ



### ŞƏXSİ HEYƏTLƏ İŞ ÜZRƏ ZABİTLƏRİN TƏKMİLLƏŞDİRMƏ KURSUNUN BURAXILIŞ MƏRASİMİ KEÇİRİLİB

Məlum olduğu kimi, ordu rəhbərliyinin həyata keçirdiyi önəmli islahatlardan biri orduda təlim-tərbiyə işinin təkmilləşdirilməsi və şəxsi heyətin mənəvi psixoloji hazırlığının artırılmasıdır. Hazırda bu vacib sahədə çalışan zabitlərin hazırlıq səviyyəsini yüksəltmək üçün ardıcıl tədbirlər həyata keçirilir. Artıq bölük komandirinin şəxsi heyətlə iş üzrə müavinlərinin təkmilləşdirmə kursunun ilk mərhələsi başa çatıb.

Azərbaycan Hərb Tarixi Muzeyinin həyətində şəxsi heyətlə iş üzrə zabitlərin təkmilləşdirmə kursunun ilk buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilib. Əvvəlcə mərasim iştirakçıları Fəxri Xiyabana gələrək ulu öndər, müasir Azərbaycan Ordusunun yaradıcısı Heydər Əliyevin məzarını, Birinci və İkinci Şəhidlər xiyabanlarında uyuyan Vətən övladlarının xatirəsini ehtiramla yad ediblər. Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi polkovnik Rüfət Əmirov tədbir iştirakçılarını salamlayıb və təkmilləşdirmə kursunu bitirmələri barədə sertifikatlar alacaq zabitləri təbrik edib. Sonra tədbirdə ümummilli lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəis müavini polkovnik Abdulla Qurbani tədbirin gündəliyini diqqətə çatdırıb. Nazirliyin idarə rəisi polkovnik R.Əmirov çıxış edib. Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində şəxsi heyətlə iş üzrə zabitlərin ilk təkmilləşdirmə kursunun başa çatdığını bildirən idarə rəisi Müdafiə naziri general-polkovnik Zakir Həsənovun məzunlarla görüşünü əhəmiyyətli və yaddaqalan bir hadisə kimi dəyərləndirib. İdarə rəisinə görə, gənc zabitlər təkmilləşdirmə kursunun davam etdiyi müddətdə hərbi pedaqogika və psixologiyanın, hüquq və beynəlxalq münasibətlər elminin, hərbi taktikanın, mühəndis hazırlığının, hərbi topoqrafiyanın, atəş hazırlığının, dövlət sirlərinin mühafizəsinin və ən əsası, hərbi qulluqçular arasında təlim-tərbiyə işinin müasir metod və üsullarının sirlərinə dərindən yiyələniblər. Kütləvi informasiya vasitələri və ictimaiyyətlə düzgün əlaqələrin qurulması onların diqqətinə çatdırılıb. Şəxsi heyətin təlim-tərbiyəsinə cavabdehlik daşıyan zabitlərin yüksək mənəvi-əxlaqi keyfiyyətlərə malik olmalarının zəruriliyini qeyd edən polkovnik Rüfət Əmirov bildirib ki, belə zabitlər ilk növbədə sağlam mənəviyyata malik olmalıdır.



Ulu öndərimiz Heydər Əliyev həmişə qeyd edərdi ki, "sağlam mənəviyyat Azərbaycanın müstəqilliyinə sədaqət, xalqımızın bugününə və gələcəyinə sədaqət, millətimizə sədaqətdən ibarətdir. Sizin hər biriniz bilməlisiniz ki, mənəvi dəyərlərə, yüksək əxlaqi keyfiyyətlərə malik olmasanız, bütün başqa biliklərinizə baxmayaraq, siz Azərbaycan ordusunun dəyərli zabiti, layiqli döyüşçüsü, şəxsi heyətlə iş üzrə zabiti ola bilməyəcəksiniz". Azərbaycan Silahlı Qüvvələrinin son uğurlarına toxunan idarə rəisi vurğulayıb ki, artıq bugünkü ordumuz əvvəlki illərin ordusu deyil. – Ölkəmiz inkişaf etdikcə, ordumuz güclənir, daha da qüdrətlənir, – deyə o, qeyd edib. Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətinin əsas prioriteti ordu quruculuğu məsələsidir. Son irimiqyaslı taktiki təlimlər və cəbhə bölgəsindəki uğurlarımız bir daha göstərdi ki, Azərbaycan Ordusu Ali Baş Komandanın hər bir əmrinə hər an hazırdır. Möhtərəm Prezidentimizin dediyi kimi, "Azərbaycan Ordusunun peşəkarlığı, döyüş qabiliyyəti artır. Azərbaycanın əsgər, gizir və zabitləri Vətənə ləyaqətlə xidmət edirlər, öz vətənlərinə sadiqdirlər. Bizim bütün hərbi hissələrimizdə, xüsusilə ön cəbhədə yerləşən hərbi hissələrdə ruh yüksəkliyi var və Azərbaycan əsgərinin vətənpərvərlik hissləri çox yüksəkdir, möhkəmdir". Ordunun şəxsi heyətinin qarşısında dayanan mühüm bir vəzifənin yerinə yetirilməsində, yəni, torpaqlarımızın işğaldan azad edilməsində hər bir zabitin məsuliyyət daşıdığını xüsusi qeyd edən polkovnik R.Əmirov deyib ki, şəxsi heyətin döyüş növbətçiliyini ayıq-sayıq həyata keçirməsində, ictimaiyyətlə əlaqənin düzgün qurulmasında və əsgərlərin dövlətimizə, xalqımıza sonsuz sədaqət ruhunda tərbiyə edilməsində komandirlərin şəxsi heyətlə iş üzrə müavinlərinin üzərinə ağır və məsuliyyətli iş düşür. Sonda idarə rəisi əminliklə bildirib ki, şəxsi heyətlə iş üzrə zabitlərin təkmilləşdirmə kursunun ilk məzunları Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin və Müdafiə Nazirliyi rəhbərliyinin qarşıya qoyduğu əmr, göstəriş və tələbləri yerinə yetirmək üçün səylərini əsirgəməyəcəklər. Buraxılış mərasimi ilk məzunlara sertifikatların təqdim olunması ilə davam etdirilib. Əlaçı məzunlara – kapitan Vahid Manafova, baş leytenantlar Rəvan İlyasova və Vüqar Hüseynova nazirliyin idarə rəisi polkovnik R.Əmirov, digərlərinə isə idarənin mə-sul zabitləri tərəfindən sertifikatlar təqdim olunub. Kapitan V. Manafov çıxış edərək təkmilləşdirmə kursunun keçirildiyi müddətdə zəruri hərbi bilik və vərdişlərə yiyələndikləri üçün minnətdarlığını bildirib, həmçinin məzun yoldaşları adından söz verib ki, qarşıya qoyulan vəzifə və tapşırıqların yerinə yetirilməsi üçün bacarıq və imkanlarını səfərbər edəcəklər.

# ÜMUMMİLLİ LİDER "HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN MƏFKURƏSİ" ƏSASINDA ŞƏXSİYYƏTİN TƏRBİYƏ OLUNMASI

Polkovnik Elçin KƏRİMOV



***Azərbaycançılığın və azərbaycançılıq məfkurəsinin ümummilli ideya halına gəlməsi bütün dünya azərbaycanlılarını birləşdirən ideologiyaya, müstəqil Azərbaycan dövlətinin ideya əsasına çevrilməsi xalqımızın böyük oğlu Heydər Əliyevin tarixi xidmətidir.***

Əsası Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycançılıq məfkurəsin bu gün Azərbaycanın milli və dövlət ideologiyasının əsasını təşkil edir və dövlətimizin əsas təməl prinsiplərindəndir.

Azərbaycan tarixin ən ağır mərhələlərində ən ağır sınaqlardan çıxıb və ən ümidsiz vəziyyətlərdə belə özünün varlığını qoruyub saxlaya bilib. Məşhur alman filosofu Bismark 1871-ci ildə yazmışdı: "Hər bir dövlətin dünyanın siyasi sahəsində uzunömürlü olması, ilk növbədə, onun ərazisində yaşayan bütün xalqları öz ətrafında birləşdirməyi bacaran liderlərdən və millətin gələcəyinə xidmət edən vahid məfkurənin olmasından asılıdır". Bu baxımdan Azərbaycan, Heydər Əliyevin simasında onu məhv olmaqdan xilas edərək yenidən dünyanın siyasi sahəsinə çıxaran qüdrətli bir siyasi xadimini tapmış oldu.

***Müxtəlif tarixi mərhələlər Azərbaycan xalqının inandığı (tapındığı) milli ideyanın ölkənin gələcək inkişaf prioritetlərinin müəyyənləşdirilməsində mühüm rolu .***

***Azərbaycan ərazisində mövcud olan dövlətlər (eramızdan əvvəl Əhəmənilər və Sasanilər imperiyası tərkibində). Atropatena və Qafqaz Albaniyası.***

Azərbaycan xalqının hansı məfkurəyə əsaslandığını müəyyən edən ilk mənbə "Dədə Qorqud" eposu olmuşdur (türkçülük, islam və müasirlik).

Azərbaycan xalqının hansı məfkurəyə əsaslandığını bütün aydınlığı ilə təqdim edən bu mənbə əsasən VI-VIII əsrlərdə cərəyan etmiş hadisələri əhatə edən I minilliyin inanc, düşüncə və dövlətçilik təsəvvürlərini əks etdirən ideoloji sistemlər toplusudur.

***Erkən orta əsrlər (Şirvanşahlar) və orta əsrlər dövrü (Atabəylər, Səlcuqlar imperiyası, Qaraqoyunlu, Ağqoyunlu və Səfəvilər dövləti)***

XI-XII əsrlərdə türklərin Qafqaza və Azərbaycana üçüncü gəlişi baş verdi. Oğuzların Qınıq elinə mənsub 24 tayfadan ibarət Səlcuqlar Azərbaycan ərazisində türklərin sayı və nüfuzunu artırdılar. Ərəblər Azərbaycana ciddi ehkamlara malik mərkəzləşdirilmiş din gətirdilər və Azərbaycanda yaşayan türk və Qafqaz mənşəli tayfalar eyni inamda birləşərək vahid ümmətə çevrildilər. Vətəndaş birliyi ilə bərabər dini birlik də cəmiyyətin formalaşmasına imkan verir. İslamiyyətin qəbulundan sonra ölkəmizin ərazisində dövlətçiliyin təkamülü baxımından ənənə və mərhələ yaradan dövlətlər – Şirvanşahlar, Atabəylər və Səfəvilər Azərbaycan dövlətçiliyinin zirvələri idi. XVI əsrdə Azərbaycanın böyük hökmdarı və qüdrətli dövlət xadimi Şah İsmayıl Xətai tərəfindən Azərbaycan türkcəsinin dövlət dili səviyyəsinə qaldırılmasında burada yaşayan xalqların Azərbaycan ətrafında daha sıx birləşməsində önəmli faktora çevrildi.

İrançılıq və Turançılıq ideyalarının Azərbaycanda təşəkkül tapması.

***Yeni tarix: Azərbaycan Demokratik Respublikasının yaranması, bu dövrdə özünüdərkin, ana dilinin, vətən əxlaqı və milli vicdan uğrunda mübarizənin təntənəsi.***

Müasir Azərbaycan Demokratik Respublikasının yaranmasının reallaşması 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Demokratik Respublikasının adı ilə bağlıdır. 23 aya qədər qısa bir müddət ərzində mövcud olmasına baxmayaraq, ADR öz fəaliyyəti dövründə gələcək dövlətçilik ənənələrinin formalaşmasında, həmçinin milli məfkurənin tərəqqisində əvəzedilməz rol oynadı. Bu dövr ərzində Azərbaycan Demokratik Respublikasının himn və bayrağının qəbul edilməsi tarixin mühüm dönüş nöqtələrindən biri idi.

**AZƏRBAYCAN SOVET İMPERİYASI DÖVRÜNDƏ**

Sovet dövründə milli ideyaların həyata keçirilməsi üçün olduqca məhdud şəraitdə Azərbaycan rəhbəri respublikanın iqtisadi təsərrüfat həyatının canlandırılması, elmin, təhsilin inkişafı, ana dilinin, ədəbiyyatın, incəsənətin mövqeyinin yüksədilməsi, milli hərbi kadrların yetişdirilməsi, Azərbaycanın beynəlxalq miqyasda tanıdılması və s. kimi əhəmiyyətli tədbirlər görmüşdür və böyük mütəfəkkir bunları elə etmişdir ki, görülən tədbirlər sovet rejiminin əks reaksiyası, dağıdıcı müqaviməti ilə qarşılaşmasın.

Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi Heydər Əliyev tərəfindən Azərbaycana gələcəkdə müstəqilliyini əldə etməsinə xidmət edən belə möhtəşəm tədbirlərdən biri idi. SSRİ adlı bir imperiyanın qılıncının dalının və qabağının da kəsdiyi bir vaxtda Heydər Əliyevin şəxsi təşəbbüsü ilə 1978-ci ildə qəbul edilən Azərbaycan SSRİ-nin Konstitusiyasında Azərbaycan dili dövlət dili elan edildi. Bununla da Heydər Əliyev tərəfindən ölkəmizi gələcəyə aparan azərbaycançılıq məfkurəsinin təməli atılmış oldu. Bu, həm də Azərbaycanın müstəqilliyinin əldə edilməsi yönündə ulu öndər tərəfindən atılan uğurlu bir addım idi. Sonralar Heydər Əliyev o dövrü belə xatırlayırdı: "Yadımdadır, 1978-ci ildə biz Azərbaycanın Konustitusiyasına Azərbaycan dilinin dövlət dili olması haqqında maddə daxil edəndə Moskvadan bizim başımıza nə qədər oyunlar açıldı, nə qədər təzyiqlər göstərildi. Ancaq biz bu təzyiqlərə dözdük".

***Heydər Əliyevin sovet dönəmində Azərbaycana rəhbərliyi.***

Ümummilli lider Heydər Əliyev ilk dəfə Azərbaycana rəhbərlik etdiyi dövrdə sovet ideologiyasına zidd olaraq şəxsi iradəsi hesabına Azərbaycançılıq ideyasını inkişaf etdirdi.

***Sovet ideologiyası içində azərbaycançılığın formalaşması.***

***Çağdaş tarix: Sovet imperiyasının süqutu ilə 1991-1993- cü illərdə yaranmış boşluq.***

***Ümummilli lider H. Əliyevin hakimiyyətə gəlişi (15 iyun 1993).***

1990-1993-cü illərdə Azərbaycandakı hakimiyyətsizlik, hərc-mərclik, Ermənistanın Azərbaycana etdiyi təcavüz, ictimai-siyasi sabitliyin pozulması – bunların hamısı Azərbaycanın iqtisadiyyatını tənəzzülə uğratdı. Xalqın təkidli tələbi ilə 1993-cü ilin iyun ayının 9-da Heydər Əliyev Bakıya gəldi. 1993-cü ilin iyunun 15-də isə Ulu öndər Heydər Əliyev Azərbaycan parlamentinin sədri seçildi. Bununla da, Azərbaycan tarixində yeni mərhələ başlandı.

Separatçı meyillərlə (şimal-cənub) mübarizə, Azərbaycanın parçalanmasının və vətəndaş müharibəsinin qarşısının alınması.

ABŞ prezidentinin təhlükəsizlik məsələləri üzrə keçmiş müşaviri, tanınmış siyasi xadim Zbiqnev Bjezinski Heydər Əliyevin şah əsərlərindən biri olan azərbaycançılıq məfkurəsi haqqında belə demişdi: "Heydər Əliyev mahir bir strateq və siyasətçi kimi azərbaycançılıq məfkurəsini gündəmə gətirərək, onu yeni, gənc müstəqil dövlətin təməl daşlarından birinə çevirdi. Bununla da o, Azərbaycanı etnik bölmək, parçalamaq və məhv etmək istəyən güclərin niyyətlərinin qarşısını aldı". Heydər Əliyevin Azərbaycan məfkurəsi Azərbaycanı məhv olmaqdan xilas edərək, dünyanın siyasi səhnəsinə güclü və inkişaf etməkdə olan bir Azərbaycan çıxardı.

H. Əliyevin azərbaycançılıq məfkurəsini milli ideologiya kimi inkişaf etdirməsi.

Ölkədə bütün konfessiya və etnosların həmrəylik və anlaşma içində birgə yaşamasının təmin olunması.

***Azərbaycanın çoxmilli tərkibinin olması*** – Azərbaycanın, eyni zamanda Azərbaycanda yaşayan xalqların vahid ideya ətrafında birləşməsi demək-

dir. Məhz azərbaycançılıq Azərbaycana qarşı bir çox istiqamətlərdən yönələn təhdidlərin, ölkəmizin milli etnik bölücülük əsasında parçalamaq cəhdinin qarşısında güclü ideoloji və siyasi sipər oldu.

Ulu öndər H. Əliyev öz çıxışlarında bir vacib məqamı hər zaman diqqətə çatdırıb ki, Azərbaycanın çoxmillətli, tolerant ölkə olması bizim böyük sərvətimizdir və biz bunu qoruyub saxlamalı, dünyaya ən yüksək səviyyədə təbliğ etməliyik: "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Azərbaycanın ən başlıca sərvətlərindən biri qədimlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan müxtəlif dinlərə etiqad edən adamlardır. Biz bunu qiymətləndiririk və qoruyub saxlayacayıq. Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz tövhəsini verir. Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Azərbaycan sözü bizi həmişə birləşdirib".

***Dünya azərbaycanlılarını birləşdirən dəyərlər:***

1991-ci ildən başlayaraq ilk dəfə Naxçıvanda, sonra isə bütün Azərbaycanda 31 Dekabr dünya azərbaycanlılarının həmrəylik gününün qeyd olunması;

H. Əliyev, dünya azərbaycanlılarının milli birlik və həmrəylik nümayiş etdirməsi;

Xaricdə Azərbaycan diasporunun təşəkkül taparaq formalaşması prosesinin dövlət səviyyəsinə qaldırılması;

H. Əliyevin xarici səfərləri zamanı Azərbaycan icmaları ilə görüşlər keçirməsi;

Dünya Azərbaycanlılarının I-III və qurultaylarının (2001-2011) keçirilməsi;

Dünya azərbaycanlılarının Azərbaycanın ictimai, iqtisadi, siyasi və mədəni həyatında real iştirakı cəlb edilməsi.

Nahaq yerdən ulu öndər belə söyləməmişdir: "Bizim vəzifəmiz, Azərbaycan dövlətinin vəzifəsi ondan ibarətdir ki, bütün ölkələrdə yaşayan azərbaycanlılara mümkün olan qayğını, diqqəti göstərək, onların həyatı ilə maraqlanaraq ayrı-ayrı ölkələrdə olan Azərbaycan icmaları ilə dövlətimiz arasında əlaqələri daha da inkişaf etdirək. Azərbaycandan uzaqda yaşayan azərbaycanlılar isə gərək, indi müstəqil Azərbaycan ilə daha sıx ələqələr qursunlar. Bunlar hamısı dünyada olan bütün Azərbaycanlıların birliyinin, həmrəyliyinin təmin olunması üçün əsas şərtlərdir"

***Heydər Əliyev və gənclərin milli vətənpərvərlik ruhunda tərbiyə olunmasının rəhnidir.***

Heydər Əliyev gənclərin milli vətənpərvərlik, hərbi vətənpərvərlik problemlərini daim diqqətdə saxlayırdı. Hərbi vətənpərvərliyi milli vətənpərvərliyin zirvəsi hesb edən ulu öndər gəncləri hərbi xidmətə hazırlaşmağa, orduda qulluq edən gənclərə qayğı göstərməyə, onların fiziki və mənəvi, hərbi-texniki hazırlığını yüksəltməyə xüsusi əhəmiyyət verirdi.

Heydər Əliyev gənclər qarşısında çıxışlarının birində qeyd etmişdir: "Azərbaycanın suverenliyi hər bir azərbaycanlı vətəndaş üçün ən müqəddəs məqsəddir, ən müqəddəs vəzifədir. Belə olan halda biz öz taleyimizin sahibi kimi, vətənimizi, torpaqlarımızı öz gücümüzlə qorumalıyıq. Bunu xalq, bizim gənclər, ordu sıralarındakı vətən oğulları etməlidirlər. Ona görə orta məktəblərdə bir tərəfdən hərbi tədrisə, gənclərin fiziki hazırlığına ciddi fikir verilməlidir, digər tərəfdən isə gənclərdə vətənpərvərlik hissini yüksəltmək, vətəni qorumağa hazır olmaq ruhunda tərbiyə işləri lazımdır".

## NƏTİCƏ

Heydər Əliyevin azərbaycançılıq məfkurəsi sağlam vətənpərvərlik ideologiyasıdır və onun təməlində başqa xalqlarla sülh içində yaşamaq, milli və dini dözümlülük fəlsəfəsi dayanır. Bu baxımdan mütərəqqi, ümumbəşəri dəyərlərin təcəssümü olan azərbaycançılıq məfkurəsi, qonşu xalqlara düşmənçilik, milli nifrət aşılayan ermənilik məfkurəsinin tam əksidir.

Dünya Azərbaycanlılarının III qurultayında çıxış edən Prezident İlham Əliyev bu məsələyə diqqəti bir daha cəlb edərək öz çıxışında: "Axı bura bizim vətənimizdir. Bizim bir dilimiz var – Azərbaycan dili! Bizim ümumxalq ideologiyamız var – Azərbaycan məfkurəsi!" demişdir.

Sonda isə ümummilli lider Heydər Əliyev dediyi və hər bir azərbaycanlının yaddaşında həkk olunmuş məşhur kəlamı söyləmək yerinə düşərdi:

***"Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gündə fəxr edirəm ki, mən, azərbaycanlıyam".***

# ŞƏXSİ HEYƏTİ TORPAQLARIMIZIN İŞĞALDAN AZAD OLUNMASINA SƏFƏRBƏR ETMƏK QARŞIMIZDA DURAN MÜHÜM VƏZİFƏDİR

Polkovnik Elşad ƏBİLOV



Bu mövzu haqqında danışarkən ilk növbədə xalqımızın mübarizələrlə dolu zəngin tarixi keçmişinə nəzər salmaq lazımdır. Bu tarixi öz canları və qanları bahasına yaradan və yaşadan qəhrəman oğullarımız – azadlıq elçilərinin keçdikləri keşməkeşli həyat yolu şübhəsiz hər bir Azərbaycan vətəndaşı üçün əsil örnəkdir. Babəki, Şah İsmayıl Xətaini, Nəsimini, Qaçaq Nəbini... unutmaq, bugünkü gəncləri tarixi keçmişimizdən ayırmaq, məhrum etməkdən özgə bir şey deyil. Ona görə də səngərdə gecə-gündüz keşik çəkən əsgərlərimizin əsas diqqətini məhz bu vacib sahəyə yönəltmək lazımdır. Hansı ki, torpaqlarımızın, xüsusilə də, mənəvi dünyamızın müdafiəsini onların simasında görmüşük. Qarabağ probleminin sülh yolu ilə həll olunması illərdir ki, uzanır. Bu gün silahlı qüvvələrin əsas vəzifəsi əldə olunmuş nəticələrlə kifayətlənməmək, döyüş hazırlığını daha da təkmilləşdirmək, hərbi nizam-intizamı möhkəmləndirmək, mənəvi-psixoloji hazırlığı həmişə döyüş hazırlığı ilə paralel həyata keçirmək, şəxsi heyətdə hərbi anda, Vətənə, xalqa sədaqət hissləri aşılamaq, hərbi vətənpərvərlik işini yüksəltmək, gənc nəslin sağlam qüvvə kimi tərbiyə edilməsi naminə ordunun nüfuzunu möhkəmləndirmək, vahid rəhbərlik prinsipinin təmin olunmasına çalışmaq, hərbi kollektivlərdə döyüş ruhunun saxlanılması kimi vəzifələrə nail olmaqdır.

Azərbaycan torpaqlarının müdafiəsi və azad edilməsi hər bir azərbaycanlının şərəfli borcudur. Nizami ordusu olmayan dövlət öz müstəqilliyini qoruya bilməz. Azərbaycan ordusu artıq öz formalaşma mərhələsini başa çatdırmışdır. O, torpaqlarımızı müdafiə edə biləcək döyüş hazırlığına malik bir ordudur. Azərbaycan Respublikası qarşısında onun silahlı qüvvələrinin daha da möhkəmləndirilməsi, hərbi kadrların hazırlanması, onların peşəkar mütəxəsssiz kimi yetişdirilməsi və təkmilləşdirilməsi ilə əlaqədar mühüm vəzifələr durur. Unutmaq olmaz ki, gələcəyin ordusu peşəkarlar ordusudur. Ordumuzun şəxsi heyəti hər vaxt ayıq-sayıq olmalı, döyüş əzmini daim yüksək səviyyədə saxlamalıdır. Buna nail olmaq üçün hərbi nizamnamələrin tələblərinə, sosial ədalət prinsiplərinə riayət etmək, qayda-qanunu möhkəmləndirmək, hərbi peşələrə səylə yiyələnmək lazımdır. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Ali Baş Komandana, Vətənimizə, torpağımıza, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır. Məhz bu keyfiyyətləri özündə əks etdirən Azərbaycan ordusunun şəxsi heyəti hər an qələbəyə nail ola bilər.

Müasir mərhələdə Azərbaycan dövlətinin artan siyasi-iqtisadi uğurları, daxili və xarici siyasətimizdə qazanılan genişmiqyaslı nailiyyətlər ölkədə bütün sahələrin, həmçinin ordu quruculuğunun inkişaf etdirilməsinə möhkəm zəmin yaradır.

Bu gün dövlət rəhbərliyi, şəxsən Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən orduya böyük diqqət və qayğı vardır. Həm silahli qüvvələrimizin bölmələri müasir silah və hərbi texnikalarla təmin edilir, həm də hərbi qulluqçuların sosial məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm işlər görülür. Hər kəs yaxşı bilməlidir ki, bu gün ordumuzun şəxsi heyətini qarşıda duran mühüm vəzifənin

icrasına – torpaqlarımızın işğaldan azad edilməsinə səfərbər etmək qarşımızda dayanan ən mühüm vəzifədir. Bu baxımdan şəxsi heyətin təlim-tərbiyəsinə cavabdehlik daşıyan komandir və zabitlərin üzərinə böyük məsuliyyət düşür. Orduda önəm verilən əsas şərt gənc döyüşçülərin milli-mənəvi dəyərlərimiz ruhunda tərbiyə edilməsidir. Bu məqsədlə şəxsi heyətin şüuruna dövlətin və xalqın mənafeyini müdafiə etmək hissləri aşılanmalıdır. Hər bir gənc döyüşçü hansı amal və məqsəd uğrunda xidmət etdiyini, mübarizə apardığını dərindən dərk etməlidir.

Bu ilin sentyabrında Müdafiə naziri general-polkovnik Zakir Həsənov keçirilən komanda-məntəqəsi təlimində səfərbərlik ehtiyatlarının çağırılması zamanı təlimlərə cəlb edilən ehtiyatdan çağırılmış hərbi vəzifəlilərlə görüşüb. Müdafiə naziri ehtiyatdan çağırılan şəxsi heyətə təlim toplanışında mütəşəkkil qaydada iştirak etdiklərinə, bir an belə tərəddüd etmədən Vətənin müdafiəsi üçün şərəf və vicdanla yenidən xidmətə cəlb olunmağa hazır olduqlarına görə təşəkkür edib. Nazir bildirib ki, onlar bu təlimlərdə iştirak etməklə döyüş qabiliyyətlərini, hərbi ixtisaslarını və təcrübələrini təkmilləşdirmək, silahlanmada olan yeni, müasir və modernləşdirilmiş silah və hərbi texnikanın nümunələri ilə yaxından tanış olmaq, onun düzgün istifadəsi və istismarı qaydalarını bilmək imkanı əldə ediblər. Cənab nazir bildirmişdir ki, Vətən, torpaq, xalq, millət, dövlət naminə hər bir hərbi qulluqçu səfərbər olmalı, bu məhfumları özünün həyat idealına çevirməlidir.

**Əsgər heyəti ilə aparılan təlim-tərbiyə prosesində müasir üsullardan istifadə edilməlidir.**

İlk növbədə qeyd etmək istərdim ki, əsgərin tərbiyəsinə cavabdehlik daşıyan bütün kateqoriyalı zabit, gizir və çavuşlar mənəvi-əxlaqi keyfiyyətləri ilə hərbi kollektivlərdə nümunə olmalıdır. Bütün şəxsi heyət bilməlidir ki, bu gün ordu rəhbərliyi onlara böyük etimad göstərib. Hər bir hərbi qulluqçu öz üzərində daha səylə çalışmalı, hərbi bilik və vərdişlərini artırmalı, qarşısında dayanan tapşırıqların məsuliyyətini dərk etməlidir.

Xalqımızın illərdən bəri üzləşdiyi münaqişənin mahiyyəti şəxsi heyətə izah edilməsi və doğma torpaqlarımızın işğaldan azad edilməsi uğrunda mübarizənin bizim ədalətli işimiz olduğu aşılanmalıdır. Yəni əsgərlərimizin müharibəyə hazır olmasının əsas zərurəti yalnız xalqımızın ədalətli mübarizəsindən – doğma torpaqlarımızı işğaldan azad etmək zərurətindən irəli gəlir. Əgər işğalçı dövlət ölkəmizin bütövlüyünün sülh yolu ilə təmin olunmasına razılaşmayacaqsa, onda Azərbycan hərbi yolla bu məsələnin həllində israrlı olacaqdır.

Xalqımızın qəhrəmanlıq ənənələri əsgərlərə layiqincə təbliğ edilməlidir. Hər bir əsgər qədim xalqın nümayəndəsi olduğunu dərindən dərk etməli, qəhrəmanlarımızı yaxşı tanımalı, böyük dövlət xadimi, ulu öndər Heydər Əliyevin irsini mükəmməl öyrənməlidir. Həyatda da belədir, hər kəs cəmiyyətdə özünə layiqli yer tutmaq istəyirsə, dahi insanların ömür yolunu özünə örnək bilməlidir. Bu mənada ümummilli liderimizin mənalı ömür yolu və tarixi fəaliyyəti silahlı qüvvələrimizin şəxsi heyətinə ən layiqli örnəkdir.

– Biz çalışmalıyıq ki, silahlı qüvvələrimizin şəxsi heyətinin qarşısına qoyulmuş döyüş tapşırıqlarının yerinə yetirilməsində hər bir zabit, gizir və çavuş üzərinə düşən məsuliyyəti dərindən başa düşsün və öz vəzifə borcunu yerinə yetirməli olduğunu dərk etsin.

– Ordumuzun mühüm döyüş vəzifəsinin icra edilməsində, şəxsi heyətin döyüş ruhunu artırmaq üçün hər bir hərbi qulluqçu bu vacib işə, fərdi hazırlığına ciddi fikir verməlidir. Şəxsi igidlik nümunələri göstərən hərbi qulluqçular hamıya örnəkdir. Məsələn, bu yaxınlarda cəbhənin müxtəlif istiqamətlərində düşmənin təxribat xarakterli cəhdlərinin qarşısının alınmasında bəzi hərbi qulluqçularımız xüsusilə fərqlənmişdir. Birliyin heç bir əsgəri öz mövqeyini tərk etməmiş, əksinə arxa bölmələrin əsgərləri də ön xəttdə xidmət keçmək arzusunda olduqlarını bildirmişlər. Belə qəhrəmanlıq nümunələri hər bir bölmələrin şəxsi heyətinə də təbliğ edilməlidir.

Ona əmanət olunan Vətəni etibarlı şəkildə inamla qorumaq Azərbaycan əsgəri üçün böyük şərəfdir. Vətənin bir adı da torpaqdır. “Bir ovuc qızılın olunca, bir ovuc torpağın olsun” – deyib atalarımız. İndiki müharibə şəraitində doğma yurdumuzun gələcəyi məhz onun bütövlüyünü qoruyan, keşiyində duran Azərbaycan əsgərindən asılıdır. Bu gün doğrudan da Vətən sənə inanır, etibar edir, Azərbaycan əsgəri: Bu qan yaddaşından irəli gələn, sırf tarixi faktlara, olaylara əsaslanan bir hökmdür, inamdır, etibardır. Bu inam, bu etibarı qazanmaq onu doğrultmaq qədər ağırdır. Hər bir əsgər bütün bunları daim dərk etməli, ürəyində yaşatmalıdır...

# SİLAHLI QÜVVƏLƏRDƏ KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ İLƏ İŞİN TƏŞKİLİ

**Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi**

**Polkovnik Vaqif DƏRGAHLI**



**Cənab general! Cənab zabitlər! Hörmətli qonaqlar!**

Bu konfransın keçirilməsi son dərəcə zəruri olduğundan tədbirin təşkilində zəhməti keçən bütün şəxslərə dərin minnətdarlığımı bildirirəm.

İlk növbədə onu bildirmək istərdim ki, ölkəmizin müdafiə qüdrətinin möhkəmləndirilməsi, silahlı qüvvələrin şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması və maddi-texniki təminatının artırılması həmişə ulu öndərimiz Heydər Əliyevin diqqət mərkəzində olmuş və bu ənənə bu gün də möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, onun birbaşa nəzarəti və qayğısı əhatəsindədir.

Ali Baş Komandanın rəhbərliyi ilə irimiqyaslı təlimlərin uğurla keçirilməsi, onun tez-tez müdafiənin ön xəttində yerləşən hərbi hissələrdə olması, şəxsi heyətlə görüşüb, döyüşlərdə fərqlənən hərbi qulluqçuları dövlət mükafatları ilə təltif etməsi və bütün bu proseslərin mətbuatda işıqlandırılması ordumuzun yüksək döyüş əzmini, əsgər və zabitlərimizin döyüş ruhunu daha da artırır.

Ancaq bütün bunlar bizi heç də arxayın etmir, dövlət rəhbərliyi tərəfindən qarşımızda qoyulan əmr, göstəriş və tapşırıqların ciddi və dəqiqliklə yerinə yetirilməsi üçün məsuliyyətimizi daha da artırır.

Çıxışımı son zamanlar ictimaiyyətimizi, xüsusilə də silahlı qüvvələrimizi narahat edən bir problem – silahlı qüvvələrlə kütləvi informasiya vasitələri arasında münasibətlərin qurulması və işin təşkili məsələsi üzərində qurmaq istərdim.

Son dövrlərdə Müdafiə Nazirliyi ilə kütləvi informasiya vasitələri arasında əlaqələr xeyli genişlənib. Nazirliyin rəhbərliyi mətbuatla münasibətlərin dövlət sirlərinin qorunmasını təmin etməklə qarşılıqlı anlaşma, şəffaflıq və dəqiqlik prinsipləri əsasında qurulmasını qarşımızda prioritet vəzifə kimi qoyub.

Müdafiə Nazirliyi sağlam tənqidin, düzgün iradın, məsuliyyət və peşəkarlığın tərəfdarıdır. Ancaq ordu məsələsində qərəz, kin, ayrı-seçkilik yolverilməzdir. İnformasiyaların ötürülməsində hərbi xidmətin və müharibə şəraitinin xüsusiyyətləri, Müdafiə Nazirliyinin qapalı qurum olması və bir sıra digər amillər mütləq nəzərə alınmalıdır.

Qısa müddət ərzində Müdafiə Nazirliyi və Silahlı Qüvvələrin fəaliyyəti haqqında, baş verən hadisələr, ictimaiyyət üçün maraqlı olan məlumatlara aydınlıq gətirilməsi məqsədilə komandanlığın icazəsi ilə hər gün Müdafiə Nazirliyinin rəsmi internet səhifəsi vasitəsilə bir neçə dəfə informasiyalar yayılır.

Bu ilin 9 ayı ərzində kütləvi informasiya vasitələrindən 300-dən artıq yazılı sorğu, 800-dən çox müxtəlif sual daxil olub və onların hamısı cavablandırılıb. Cari ilin yanvar ayından bu günə qədər

vətəndaşlardan 4000-dən artıq müraciət daxil olub ki, onların da hamısı müvafiq istiqamətlər üzrə yönəldilib və icrası üçün tərəfimizdən səlahiyyətlərimiz çərçivəsində köməklik göstərilib.

İndi isdə fikrinizi bizi daha çox narahat edən əsas məqama yönəltmək istərdim.

Avqustun 29-da Azərbaycan Respublikası Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin yanında dövlət orqanlarının informasiyanın verilməsinə məsul struktur bölmələrinin və kütləvi informasiya vasitələri rəhbərlərinin müşavirəsi keçirildi. Müşavirədə çox vacib, əhəmiyyətli və son dərəcə aktual bir problem – Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi ilə bağlı bir sıra məsələlər geniş müzakirə olundu.

Məlum olduğu kimi, iyulun sonu və avqustun əvvəllərində erməni kəşfiyyat-təxribat qrupları Ermənistan-Azərbaycan dövlət sərhədində və qoşunların təmas xəttində mövqelərimizə basqın etməyə cəhd göstərmiş, nəticədə hərbi qulluqçularımız arasında itkilər olmuşdu. Düşmən də itki verərək geri çəkilməyə məcbur edilmişdi. Bu hadisə ordumuzun gücünü əyani nümayiş etdirməklə yanaşı, həm də döyüş əməliyyatlarının fəallaşması zamanı ictimaiyyət arasında yaranan bəzi narahatedici məqamları üzə çıxartdı.

Həmin dövrdə bəzi kütləvi informasiya vasitələri, xüsusilə internet informasiya resursları və sosial şəbəkələrin istifadəçiləri qanunlarımıza məhəl qoymadan, qeyri-peşəkar, bəzi hallarda isə ermənilərin maraqlarına uyğun fəaliyyət göstərdilər. Faktiki olaraq bu anda keçən əsrin 90-cı illəri ilə müqayisə ediləcək bir vəziyyət yarandı.

O vaxt məhz cəmiyyətdə hökm sürən xaosun, özbaşınalığın nəticəsi idi ki, bəzən Azərbaycan silahlı birləşmələrinin əməliyyat planı əvvəlcədən qəzet səhifələrində müzakirə olunur, hərbi arsenalın həcmi, texniki göstəriciləri, hərbi hissələrin zəif və ya güclü olduğu mövqelər, düşmənlə üzbəüz dayanmış yaşayış məntəqələrində əhalinin sayı və əhval-ruhiyyəsi dəqiqliklə təsvir edilirdi. Düşmən kəşfiyyatı heç bir əziyyət çəkmədən, sadəcə dövri mətbuatı, anti-azərbaycan xəttini yürüdənlərin hazırladığı telesüjetləri izləməklə özünə lazım olan informasiyanı əldə edə bilirdi.

İndiki zamanda da yayılan məlumatların monitorinqi bəzi media nümayəndələrinin bu məsələlərə qeyri-peşəkar yanaşmasını müəyyən etdi.

Hərbi hissələrin nömrələri, təyinatı, dislokasiya yerlərinin göstərilməsi, xidməti təyinatlar və yerdəyişmələr barədə məlumatlarda şəxslər haqqında fərdi informasiyaların yayılmasının yolverilməzliyi dəfələrlə tövsiyə olunmasına baxmayaraq, bəzi media nümayəndələri hələ də bu praktikanı davam etdirirlər.

Diqqətinizə bəzi nümunələri çatdırmaq istərdim.

**Silahlı qüvvələrin rəhbərliyi cəbhəyanı bölgədə genişləndirilmiş səyyar kollegiya iclası keçirir.** Təhlükəsizlik məsələləri nəzərə alınmaqla toplantı ilə bağlı məlumatın bir gün sonra mətbuata ötürülməsi qərara alınır. Ancaq iclasın bitməsindən az sonra sosial şəbəkələr vasitəsilə bəzi mətbuat nümayəndələri məlumatı əldə edir və yayırlar.

**Cəbhədə əsgər şəhid olur.** Araşdırma aparılır. Şəhidin valideynlərinə rəsmi surətdə xəbər çatmadan mətbuat onun adı və soyadını göstərməklə məlumat yayır. Fikrimizcə bu da qəti surətdə yolverilməz və birmənalı qarşısı alınmalı bir haldır.

**May ayının əvvəllərində sosial şəbəkələrə** istinadən guya cəbhə bölgəsində atəşkəsin pozulması və silahlı qüvvələrin 4 şəhid verməsi ilə bağlı məlumat yayılmışdı. Dərhal araşdırma apardıq və məlumatda göstərilən 3 nəfərin ümumiyyətlə silahlı qüvvələr sıralarında xidmət etməməsi müəyyən edildi. Digər 1 nəfərin isə ad, soyadı məlumatda göstərilənlə üst-üstə düşsə də, o şəxs deyilən bölgədə deyil digər istiqamətdə yerləşən hərbi hissədə xidmət etməsi məlum oldu.

**Digər ordularda olduğu kimi, bizdə də tez-tez döyüş texnikasının planlı surətdə yerdəyişməsi həyata keçirilir.** Amma bu proses dərhal foto və hətta video çəkilişlər aparılaraq zirehli texnikanın sayı, hərəkət istiqaməti və digər detallar da qeydə alınmaqla bəzi elektron informasiya vasitələrində yayılır. Əhalidə çaşqınlıq yaradır.

**Döyüş aviasiyamız uçuşlar həyata keçirir.** Yenə də bəzi jurnalistlərin məlumatı əldə etmək üçün istinad etdikləri mənbə Müdafiə Nazirliyi deyil, yerli kənd sakinləri, anonim və dəqiqliyi

şübhə doğuran qaynaqlardır.

Digər bir məsələyə də toxunmaq istərdim. **Ermənistan mediası silahlı qüvvələrimiz haqqında tez-tez dezinformasiya yayır**. Təəssüf edirik ki, bəzi kütləvi informasiya vasitələri bu məlumatları olduğu kimi, heç bir dəqiqləşdirmə aparmadan, tərcümə edərək dərhal ölkə ictimaiyyətinə çatdırır və erməni mənbələrinə əsaslanaraq ordumuz haqqında qeyri-obyektiv fikrin formalaşdırılmasına cəhd göstərirlər.

İyul-avqust aylarında cəbhədə vəziyyət gərginləşdiyi zaman informasiya məkanında xaotik, pərakəndə bir situasiyanın yaranmasının şahidi olduq. Qeyri-dəqiq, həqiqətdən uzaq, yalan, təhrif olunmuş, ictimaiyyəti çaşdıran, narahat edən, olduqca zərərli məlumatlar yayıldı və bu informasiya qısa bir müddətdə media məkanını "işğal" etdi.

Avqustun 7-də Tovuz rayonu ərazisində Karen Petrosyan və avqustun 26-da Qazax rayonu ərazisində Sarkis Ananyanın saxlanılması ilə bağlı agentliklərin və Müdafiə Nazirliyinin yaydıqları məlumatlar arasında yaranmış ziddiyyətləri buna misal kimi göstərmək olar.

**Hörmətli konfrans iştirakçıları!**

Silahlı qüvvələrlə kütləvi informasiya vasitələri nümayəndələri arasında münasibətlərin qurulması və işin təşkili sahəsində mövcud boşluqları doldurmaq, baş verə biləcək problemi qabaqcadan müəyyən edərək qarşısını almaq Müdafiə naziri general-polkovnik Zakir Həsənov tərəfindən qarşımızda qoyulan tapşırıqlardan biridir. Son dövrlərdə kütləvi informasiya vasitələrində silahlı qüvvələrin təbliğinə daha çox diqqət yetirilir.

Şəhidlərimizin əsgəri ənənələrə uyğun olaraq son mənzilə yola salınması, vida mərasimlərində dövlət qurumları və ictimaiyyət nümayəndələri, millət vəkillərinin iştirakı, Milli Qəhrəmanların və keçmiş döyüşçülərin anma mərasimlərinin keçirilməsi, döyüşlərdə fərqlənən hərbçilərə dövlət təltiflərinin təqdim edilməsi silahlı qüvvələrin şəxsi heyətinin döyüş ruhunu, düşmən üzərində qələbə əzmini daha da artırır.

Müdafiə Nazirliyi ilə Mətbuat Şurasının bu yaxınlarda keçirilən görüşü, deputatlar, ictimaiyyət və media nümayəndələrinin cəbhəyanı bölgələrə səfərləri kimi tədbirləri buna misal kimi göstərmək olar. Bu fəaliyyətlər yenə də davam etdiriləcəkdir.

Kütləvi informasiya vasitələri ilə necə işləmək və münasibətləri hansı formada qurmaq mövzusunda da bilik və təcrübəyə yiyələnmiş şəxsi heyətlə iş üzrə zabitlərin təkmilləşdirmə kursunu başa vuran bir qrup hərbi qulluqçunun ilk buraxılışının keçirilməsi, kütləvi informasiya vasitələrinin silahlı qüvvələrin hərbi hissələri və müəssisələrində fəaliyyət göstərməsinə dair akkreditə qaydalarının hazırlanması, hərbi mövzuda ixtisaslaşan jurnalistlər üçün seminarların, hərbi hissələrə səfərlərin təşkili, mətbuat konfranslarının keçirilməsi və digər fəaliyyətlər də nazirliyin diqqət mərkəzindədir.

Onu da bildirim ki, artıq tərəfimizdən "Silahlı Qüvvələrdə kütləvi informasiya vasitələrinin nümayəndələri ilə işin təşkili haqqında" Təlimat hazırlanıb və yaxın günlərdə bu sənəd hərbi hissələrə daxil olacaqdır.

Qısaca onu da qeyd edim ki, təlimat kütləvi informasiya vasitələrinin nümayəndələri ilə işin təşkili qaydalarını, KİV ilə əlaqələri, münasibətlərin əsas istiqamətlərini, prinsiplərini, jurnalistin hərbi obyektə buraxılması qaydaları və digər məsələləri müəyyən edir.

Son olaraq diqqətə çatdırım ki, sentyabrın 24-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ermənistan Respublikası Silahlı Qüvvələri ilə təmas xəttində bəzi təhlükəsizlik tədbirləri haqqında" Sərəncamın imzalanması üzərimizə daha da böyük vəzifələr qoyur.

Hörmətli konfrans iştirakçıları, biz mətbuat xidməti olaraq, sərəncamın üzərimizə qoyduğu məsuliyyəti dərindən dərk edirik. İnanıram ki, biz bundan sonra da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin imzaladığı sərəncamın tələblərini gündəlik xidmətimizdə tətbiq etməklə, media ilə qarşılıqlı münasibətlərimizi ordumuzun güclənməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində daha səmərəli quracaq və bütün gücümüzü ölkəmizin ərazi bütövlüyünün təmin edilməsinə səfərbər edəcəyik.

**Diqqətinizə görə minnətdaram!**

# MÜDDƏTDƏN ARTIQ HƏQİQİ HƏRBİ XİDMƏT HƏRBİ QULLUQÇULARI İLƏ APARILAN TƏRBİYƏVİ İŞİN ƏSAS XÜSUSİYYƏTLƏRİ

Polkovnik Valeh RƏCƏBOV

***Bu gün ölkəmizin müdafiə qabiliyyətinin daha da möhkəmlənməsi və torpaqlarımızın işğaldan azad edilməsi üçün ordumuzun qarşısında bir sıra həlli vacib məsələlər dayanır. Bunlardan biri də şəxsi heyətin mənəvi-psixoloji hazırlığını və vətənpərvərlik tərbiyəsini gücləndirməkdir. Adətən belə deyirlər ki, ordunun maddi-texniki bazası nə qədər güclü, ordu nə qədər müasir silahlanmaya malik olsa da, ordunun əsas gücü onun şəxsi heyətinin döyüş ruhunun və mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə olmasındadır.***

Yəni, silahları da, ən müasir texnikanı da idarə edən insanın zəkası və təfəkkürüdür. Orduda xidmət edən hər kəs düşməni məğlub etmək üçün yüksək vətənpərvərlik hisslərinə malik olmalıdır. Yalnız vətəninə, xalqına və dövlətinə ürəkdən sevgisi və inamı olan hərbi qulluqçu dövlətçiliyimizin keşiyində möhkəm dayanmağa qadirdir. Buna görə də, orduda şəxsi heyətin vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi hazırkı mərhələdə əsas vəzifə kimi qarşımızda dayanır.

Biz çalışırıq ki, müdafiənin ön xəttində yəni Vətənimizin, torpaqlarımızın qorunduğu bir yerdə ən nümunəvi, ən bacarıqlı və öz şüurunda vətənpərvərlik keyfiyyətlərini daşıyan əsgərlər, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları xidmət etsinlər.

Yeri gəlmişkən, bir vacib məsələnin üzərində dayanmaq istərdim. Manqanın təlim-tərbiyə işinə və psixoloji vəziyyətinə cavabdeh manqa komandirin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları hərbi kollektivə xarici görünüşü, nizam-intizamı, davranışı, mədəniyyəti, peşəkarlığı ilə nümunə olmalıdır. Eyni zamanda həm mənəvi-əxlaqi keyfiyyətləri, həm də təşkilatçılığı və əsl hərbçiyə lazım olan xüsusiyyətləri baxımından müsbət mənada fərqlənməlidirlər.

Cənab zabitlər, mən sizə bizim müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları ordu sıralarına qəbul edərkən əsasən hansı problemlərlə qarşılaşdığımızı çatdırmaq istəyirəm.

İlk öncə onların yaradılmış daxili komissiya tərəfindən düzgün seçimi olmalıdır. Bunun üçün müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuların fiziki və intellektual hazırlığına, mənəvi-psixoloji durumuna, ailə vəziyyətinə və xidmətə gəlməkdə niyyətinə fikir vermək lazımdır. Orduda xidmət edən hər kəs düşməni məğlub etmək ücün yüksək vətənpərvərlik hisslərinə malik olmalıdır. Yalnız Vətəninə, xalqına və dövlətinə ürəkdən sevgisi və inamı olan hərbi qulluqçu dövlətçiliyimizin keşiyində möhkəm dayana bilər.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları xidmətə başladığı ilk gündən onların şəxsi heyətlə işləmə, liderlik və müstəqil qərarvermə qabiliyyətinə daim diqqət yetirmək lazımdır.

Bu gün əsas istəyimiz ondan ibarətdir ki, ordu sıralarında xidmət edən hərbi qulluqçular müharibədə qalib gəlmək üçün yüksək hərbi vərdişlərə



yiyələnərək, ordumuzun hazırlıqlı döyüşçüləri kimi formalaşsınlar.

Müasir dövrdə silahlı qüvvələrimizin qarşısında duran ən vacib tapşırıq – qısa zaman ərzində torpaqlarımızın erməni silahlı birləşmələrinin işğalından azad edilməsi vəzifəsi hər birimizin məsuliyyət hissini, öz borcuna tələbkarlığını daha da artırır.

İnsanın özünə inam hissinin güclü olması diqqət çəkən əsas məqamlardandır. Özünə güvənməyən, özünə etibarı olmayan şəxs heç zaman uğura nail ola bilməz. Bütövlüklə şəxsi heyətin özünə və silahına inamı bütün hərbi nailiyyətlərimizin özəyində dayanmalıdır. Şəxsi heyətdə qələbəyə inam hissi aşılamaq üçün öncə tabeliyimizdə olan hərbi qulluqçularla fərdi söhbətləşmə düzgün qurulmalıdır. Bu söhbətləri təşkil edən kiçik komandirlər yəni müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları manqaya yenicə qədəm qoyan gəncin fərdi təfəkkürünü və dünyagörüşünü tədqiq etməyə önəm verməlidir.

Müdafiə Nazirliyinin rəhbərliyini narahat edən məsələlərdən biri də hərbi hissələrə xidmətə çağırılan hərbi qulluqçuların sağlamlıq durumudur. Ölkəmiz müharibə şəraitində olduğu üçün hazırda hərbi hissələrimizin əksəriyyəti çətin iqlim şəraiti və mürəkkəb relyefi olan ərazilərdə yerləşir. Şübhəsiz, belə şəraitdə xidmət etmək üçün ordu sıralarına çağrılan gənclərin sağlam, mənəvi-psixoloji və fiziki cəhətdən möhkəm, dözümlü olmaları vacibdir.

Bir daha əminliklə bildirmək istərdim ki, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları qarşılarına qoyulan mühüm vəzifə və tapşırıqların məsuliyyətini dərindən hiss edəcək və Vətənə, xalqa, dövlətə sədaqətlə xidmət edəcəklər.

# MƏDƏNİ-KÜTLƏVİ TƏDBİRLƏR İCTİMAİYYƏTLƏ ƏLAQƏNİN TƏRKİB HİSSƏSİDİR

**(«Azərbaycan Ordusu» qəzeti səhifələrindən)**

***Bərdə – Qarabağın son dayanacağı. Eramızdan xeyli əvvəllərə gedib çıxan tarixi bütöv Azərbaycanımızın tarixinin ən dərin qatı. Gözəlliyinin vəsfi dillər əzbəri. "Arranın anası", Nüşabə yurdu. Bu yurdun insanları bütün dövrlərdə qəhrəmandır. Yenilməzlik, mübarizlik, mərdlik, sədaqətlilik simvoluna çevrilib bu diyarın insanları. Zaman-zaman döyüşlərdən üzüağ çıxıb. Torpaqlarını yadelli işğalçılardan qoruyublar.***

Azərbaycanın ən qədim şəhərlərindən biri olan Bərdənin tarixi bu gün də araşdırılır, sirli-sehrli mənbəsi dəqiqləşdirilir. "Kitabi-Dədə Qorqud" dastanında adı çəkilən Bərdə V əsrdə Albaniyanın paytaxtı elan olunmuşdu. 552-ci ildə Alban kilsəsinin də mərkəzi Bərdəyə köçürülüb. Orta əsr tarixçiləri Bərdənin Tərtər çayının Kürlə qovuşduğu yerdən 20 km aralıda olduğunu göstərirlər. 3000 ildən çox yaşı olan Bərdə tarixin ağır sınaqlarına çəkilsə də, hər zaman məğrur dayanıb. Öz tarixi missiyasına sadiq qalaraq, bu gün də əyilməzdir, məğrurdur.

Bərdənin tarixinə qısaca ekskurs heç də təsadüfi deyil. Bu günlərdə Bərdə şəhərinin mərkəzi meydanında böyük qələbəlik, insanlarda bayram əhval-ruhiyyəsi var idi. Bərdə yeni tarixi bir gün yaşayırdı. Bu şəhər həm arxa cəbhə, həm də ön cəbhə kimi fəaliyyətdə olub. Təsadüfi deyil ki, Qarabağ müharibəsinin birinci mərhələsində Bərdə şəhəri qərargaha çevrildi, igid oğulları ermənilərə qarşı qəhrəmanlıqla vuruşub, düşmənlə mübarizədə amansız oldular. İzdihamlı mərkəzi meydan döyüş meydanına bənzəyirdi. Göy, yaşıl, qırmızı bayraqlar qədim, Azərbaycan Xalq Cümhuriyyəti dövrünün hərbi geyimində olan əsgərlər, səhnə tərtibatı insanın daxilində qürur hissi alovlandırırdı. "Hər şey ordu üçün, hər şey qələbə üçün" teatrlaşdırılmış kütləvi mərasim Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Bərdə rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə həyata keçirildi. Tədbirdə millət vəkilləri, Bərdə rayon





İcra Hakimiyyəti başçısı, Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev, Müdafiə Nazirliyinin idarə rəisi general-mayor Elbrus Orucov, polkovnik Rüfət Əmirov, ehtiyatda olan general-leytenant Yaşar Aydəmirov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəis müavini general-mayor Novruzəli Orucov, hərbi qulluqçular, Böyük Vətən, Əfqanıstan, Qarabağ müharibəsi veteranları, şəhid ailələri, ictimai xadimlər, ictimaiyyət nümayəndələri iştirak edirdilər.

Hərbi vətənpərvərlik bayramı Azərbaycanın Dövlət himninin səsləndirilməsi ilə başlandı. Bərdə rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev tədbir iştirakçılarını hərbi vətənpərvərlik bayramı münasibəti ilə təbrik edərək dedi: "Ali Baş Komandan tez-tez cəbhə bölgələrində olur, hərbi qulluqçularla görüşür, onların problemləri və qayğıları ilə şəxsən tanış olur, irimiqyaslı taktiki təlimləri izləyir, əmr, göstəriş və tapşırıqlarını verir. Bu gün ölkəmizdə ordu mövzusu əsas mövzudur. Ordumuz daim diqqət mərkəzindədir. Orduya qayğı artıq ümumxalq işinə çevrilib. Bu bayram da ordu ilə xalqın monolit birliyinin nümayişinə çevriləcək və hər birimiz Ali Baş Komandanın hər bir əmrinə hər an hazır olacağımızı bir daha bəyan edəcəyik".

Tədbirdə Milli Məclisin deputatları Zahid Oruc və Xanhüseyn Kazımlı Azərbaycanda həyata keçirilən ordu quruculuğu işindən fəxrlə danışdılar. Qeyd edildi ki, ümummilli lider Heydər Əliyevin ordu quruculuğu istiqamətində başladığı işlər bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən inamla davam etdirilir. Azərbaycan ordusunun maddi-texniki bazası, müasir silahlarla təminatı, ən əsası şəxsi heyətin döyüş ruhu, mənəvi-psixoloji əhval-ruhiyyəsi işğal altında olan torpaqlarımızın tezliklə azad ediləcəyinə böyük inam yaradır.

Polkovnik Abdulla Qurbaninin ssenari müəllifi olduğu tədbirin rəsmi hissəsi başa çatdıqdan sonra bədii hissəyə start verilir. Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının, tanınmış incəsənət ustalarının ifasında hərbi vətənpərvərlik mövzusunda mahnılar və rəqslər tədbir iştirakçılarına təqdim edilir. "Hər şey ordu üçün, hər şey qələbə üçün" mövzusunu əhatələyən musiqili bədii





kompozisiyalar, xüsusi təyinatlı qrupun döyüş tapşırığı nümayiş etdirməsi səhnələri iştirakçılarda xoş ovqat yaratdı. Quruluşu rəngarəng olan



səhnələrə tamaşa etdikcə, musiqi nömrələrini izlədikcə, sadə vətəndaşlarla hərbçilərin meydanda daha sıx birləşdiyinin şahidi olurduq.

**Haydı, igid oğullar,**
**Qarabağa yürüş var,**

– deyən cəngavərlərin göstərdiyi teatrlaşdırılmış səhnə igidlər diyarı Bərdədə daha möhtəşəm görünürdü.

Xalq artisti Zümrüd Məmmədovanın ifasında səslənən "Qardaşım əsgər gedir" mahnısının sədaları altında hərbi xidmətə yola düşəcək gənc çağırışçılar rəqs edirlər. El qızları əllərində bəzənmiş xonçalarla onlara yaxınlaşır. Budur, sanki uzaq tarixi keçmişin yolunu Bərdədən salan Qarabağın simvolu – at meydana gətirilir. “Qaçaq Nəbi” mahnısının sədası bütün Qarabağa yayılır. Qəhrəman Nüşabənin səhnələşdirilmiş obrazını, dekorda Şuşanın təsvirini, Xan qızı Natəvan ilə şair Molla Pənah Vaqifin şeir deyişməsini tədbir iştirakçıları maraqla izlədilər.

# XÜSUSİ TƏYİNATLI TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ ŞƏXSİ HEYƏTİN MƏNƏVİ-PSİXOLOJİ HAZIRLIĞI VƏ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİ İŞİNİN TƏŞKİLİ

**Polkovnik Rauf DƏMİROV**

Hər bir konfransın məqsədi olduğu kimi, bu günkü, konfransda da mühüm məsələlər müzakirə olunur.

Mənə həvalə olunmuş "Xüsusi təyinatlı məktəblərdə mənəvi-psixoloji hazırlıq və hərbi vətənpərvərlik tərbiyəsi işinin təşkili" mövzusunda qənaətimi paylaşmaq istərdim.

Bu gün Azərbaycan cəmiyyətində, eləcə də orduda ümummilli liderimiz, Heydər Əliyev tərəfindən hazırlanmış elmi-nəzəri prinsipləri zamanın sınağından çıxmış mükəmməl hərbi vətənpərvərlik konsepsiyası mövcuddur.

İstər sülh, istərsə də müharibə dövründə hərbi qulluqçularda Vətənə, xalqa, dövlətçiliyimizə sədaqət və məhəbbət hisslərinin möhkəmləndirilməsi, insanlarda öz daxili potensialına inamın artırılması, onların ümumdövlət mənafeləri ətrafında səfərbər edilməsi bu istiqamətlərdə aparılan fəaliyyətin əsas məqsədləridir. Ulu öndərimiz Heydər Əliyev tərəfindən orduda mənəvi amilin möhkəmləndirilməsinin ayrıca, əlahiddə bir problem kimi yox, bütün cəmiyyət miqyasında aparılan vətənpərvərlik tərbiyəsinin tərkib hissəsi kimi irəli sürülməsi həmin konsepsiyasının baza prinsiplərindən biridir. Məsələnin bu cür quruluşu orduda mənəvi-psixoloji tərbiyəni həm də dövlət siyasətinin bir qolu kimi başa düşməyə imkan verir. Çıxışlarının birində ulu öndər Heydər Əliyev demişdir: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz".

Kursantlarla aparılan mənəvi tərbiyə işində keçmişlə bu günün, tarixlə müasirliyin vəhdətinə, xalqın qəhrəmanlıq ənənələrinə, onun şanlı keçmişinə böyük əhəmiyyət verildiyindən, ötən illərdən plakatçılıq, şüarçılıq kimi artıq tarixin arxivinə verilmiş metodlardan yan keçildiyindəndir ki, hal-hazırda yeni məzmun və formaya malik olan ordu mədəniyyəti deyilən bir mədəniyyətin mövcudluğunun şahidiyik. Hərbi məktəblərdə, hərbi liseylərdə şəxsi heyətin mənəvi-psixoloji tərbiyəsinin əsas istiqamətləri müəyyən edilərkən mədəni irsimizin tarixi nailiyyətlərinə, onun qurucu, yaradıcı enerjisinə, milli əxlaq və davranış kodeksinə daha çox istinad edilməsi nəticəsində hər bir kursant hərbi kollektiv daxilində öz yerini doğma evindəki yer kimi başa düşür, bu ailənin möhkəmləndirilməsi, şərəf və ləyaqətinin uca tutulması üçün cavabdehlik hissi daşıyır. Son vaxtlar hərbi məktəblərdə keçirilən mədəni-kütləvi tədbirlərin səviyyəsini yüksəltmək üçün göstərilən səylər öz bəhrəsini verməkdədir. Bu tədbirlər elə təşkil olunur və keçirilir ki, konkret bir problem, mövzu ətrafında canlı ünsiyyət, fikir mübadiləsi kimi böyük təsir gücü qazanılır. Bugünkü konfrans buna əyani misaldır. Lakin bunlarla yanaşı şəxsi heyətin vətənpərvərlik tərbiyəsində bütün problemlərin həll olunduğunu düşünmək sadəlövhlük olardı. Bu vəzifə Vətənə, Konstitusiyaya, dövlətçiliyimizə sədaqət, dözümlük, mətin iradə kimi yüksək mənəvi-psixoloji keyfiyyətlərin formalaşdırılması istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi ilə təmin edilir. Obrazlı şəkildə desək, mənəvi-psixoloji işlə məşğul olan mütəxəssis konkret halda hər bir kursantın saf mənəviyyatı, sabit və tarazlaşdırılmış psixoloji durumu uğrunda mübarizə aparsa da, əslində həm də bütün kollektiv döyüş hazırlığının səviyyəsini yüksəltmək

istiqamətində fəaliyyət göstərir. Gündəlik tərbiyə işinin aparılması zamanı ümumi və xüsusi psixoloji bərpa kimi iş üsullarından istifadə olunur. Son məqsəd müasir psixologiya elminin nailiyyətlərindən istifadə edərək kursantların fərdi psixoloji xüsusiyyətlərini öyrənmək, hərbi xidmətin özəllikləri, çətinlikləri ilə bağlı yarana bilən mənəvi-psixoloji halların – ruh düşkünlüyünün, özünə inamsızlığın, depressiyaların qarşısını almaq, kursantların alt şüurunda gedən rəngarəng prosesləri, məktəbdə qarşılıqlı münasibətləri düzgün məcraya yönəltmək, məktəbdə qarşılıqlı münasibətlərin düzgün psixoloji modelini qurmaqdır. Hal-hazırda xidmət etdiyim Cəmşid Naxçıvanski adına Hərbi Liseydə şəxsi heyətlə iş üzrə şöbənin psixoloq-mütəxəssisləri tərəfindən 1-ci kurs kursantları ilə psixoloji testlər keçirilir. 3 testin nəticəsi (xarakter, temperament və aqressivlik) bizə hər bir kursantı daha yaxşı tanımağa imkan verir. Eyni zamanda komandir heyəti üçün şəxsi heyətə tərbiyə işinin düzgün qurulmasında böyük əhəmiyyət kəsb edir.

Hərbi liseylərə, hərbi məktəblərə qəbul olan kursantların əsas hissəsi uşaqlıq dövrü siyasi, iqtisadi və mənəvi həyatda köklü dəyişikliklərin baş verdiyi dövrə düşən gənclərdir. Köhnə dəyərlərin dağıdıldığı, yenilərinin isə hələ tam yaranmadığı həmin illərdə ictimai şüurda, mənəviyyatda baş verən təlatümlər, heç şübhəsiz ki, onların xarakterində, həyat və düşüncə tərzində öz izlərini qoyub. Kursantların məktəbdən kənar həyat üçün darıxmaları təbiidir. Özü də bu, sırf psixoloji xarakter daşıyan problem deyil, burada sosioloji amillərin rolundan da danışmaq olar. Axı insan bir şəxsiyyət kimi ailədə, cəmiyyətdə tərbiyə olunur. Ona görə də hərbi liseylərdə, hərbi məktəblərdə aparılan vətənpərvərlik tərbiyəsinə bütün cəmiyyət miqyasında aparılan tərbiyə işinin bir qolu kimi baxmaq lazımdır.

Şəxsi heyətin hərbi tədris müəssisələrinə gələn kimi bir neçə gün içində dəyişib başqa adama çevriləcəyini fikirləşmək sadəlövhlük olardı. Bu mənada Vətən qarşısında Konstitusiya borcunu dərk edən, torpağını, xalqını sonsuz məhəbbətlə sevən gələcəyin zabitini yetişdirmək valideynlərdən, müəllimlərdən tutmuş, komandirlərə qədər hər bir şəxsin birgə işidir.

Bəşəriyyət tarixi göstərir ki, xalqın daxili enerjisinə, gücünə, müdrikliyinə istinadən aparılan tərbiyə işi həmişə effektli olur, arzulanan nəticələri əldə etməyə imkan verir. Biz, kursantların vətənpərvərlik tərbiyəsində bu amildən istifadə etməli, tərbiyə obyektinə ona doğma olan, onun genetik yaddaşında yaşayan bir dillə təsir etməyi bacarmalıyıq.

Kursantlarla aparılan mədəni tədbirlərdə illərin sınağından çıxmış milli-mənəvi dəyərlər sistemindən daha çox istifadə olunmalı, daha dəqiq desək, bütün ideoloji tərbiyə işi bu baza üzərində qurulmalıdır.

Azərbaycan Respublikası Müdafiə nazirinin 20 fevral 2014-cü il tarixli 70 saylı əmri ilə “Xüsusi təyinatlı təhsil müəssisələrinin fəaliyyətinin təşkili haqqında” təlimat təsdiq edilmişdir. Həmin təlimatda təhsil müəssisəsinin fəaliyyətinin əsas tərkib hissəsi kimi tərbiyəvi iş qeyd edilmişdir və bu, bütün vəzifəli şəxslərin əsas tapşırıqlarından biridir.

Tərbiyə işi – şəxsiyyətin formalaşması üçün mütəşəkkil təşkil olumuş məqsədyönlü prosesdir. Hərbi vətənpərvərlik, mənəvi-əxlaqi, estetik, hüquq və fiziki tərbiyə məsələlərinin həllinə kompleks yanaşma əsasında, tədris prosesi ilə birgə aparılır. Təlim-tərbiyə işi aşağıdakılardan ibarətdir:

– kursantlara vətənpərvərlik hissləri aşılamaq, onları Azərbaycan Respublikasının Konstitusiyasının qanunlarına və digər qanunvericilik aktlarına, insan və vətəndaş hüquq və azadlıqlarına hörmət ruhunda tərbiyə etmək;

– dövlətə, xalqa, sədaqət, xidməti borcun yerinə yetirilməsinə məsuliyyətlə yanaşma, yüksək intizam və mənəviyyat, mətinlik və fiziki dözümlülük keyfiyyətlərini aşılamaq;

– kursantların milli və ümumbəşəri dəyərlərə yiyələnməsini təmin etmək.

«Konfransın qiyabi mülahizəçisi» silsiləsindən

«Hərbi Bilik» jurnalı Hərbi Təhsil və Tədris İdarəsinin elm şöbəsi ilə birgə

# BİR YUMRUQ OLAQ

**Komandir, müavinləri və qərargah rəisi yumruq kimi sıxılaraq birgə işləməlidir.**

Eyni və ya ayrı-ayrı bölmələrdə xidmət etmələrindən asılı olmayaraq, zabitlər arasında sıx yoldaşlıq münasibətləri olmalıdır. Bu münasibətlər özünü qarşılıqlı hörmətdə ifadə etməlidir. Bu, vahid məqsədə çatmaq üçün əsasdır və bir-birinə dəstəyi və müxtəlif döyüş tapşırıqlarını yerinə yetirdikdə yardımlaşmanı, eləcə də, əsgər və çavuşlara olan yüksək tələbkarlığın əldə edilməsini bilavasitə təmin edir. Əgər belə olmazsa, kiçik bir nüans, əgər zabit onun bölməsinin əsgəri olmaması ilə izah edib əsgər tərəfindən edilən pozuntulardan yan keçərsə və ya görməzlikdən gələrsə, demək bu bölmədə zabitlər arasında birlik yoxdur və qarşılıqlı dəstəyi gözləmək olmaz. Döyüşdə isə bunlarsız tapşırığı müvəffəqiyyətlə yerinə yetirmək mümkünsüzdür. Axı, özünün və əsgərlərinin həyatı təhlükə altında qalanda qonşu dəstəyinə ehtiyac olacaq. İntizamsiz qonşu isə sənə zərər gətirə bilər.

Hərbi kollektivin işinin effektivliyi, çox zaman, komandir, onun müavinləri və qərargah rəisi arasında olan münasibətlərdən asılıdır. Onlar bir-birlərini dərhal anlamalı və yumruq kimi bir olmalıdırlar. Bir çox hərbi rəhbərlərin memuarlarında bu münasibətlər barədə ifadələr görmək olar, bu rəhbərlər belə münasibətlərə böyük diqqət yetirirdilər, çünki onlar qazanılan uğurlarda belə münasibətlərin böyük rol oynadığını sınamışdılar.

Sovet İttifaqı marşalı K.Meretskov öz memuarlarında cəbhənin hərbi şurasının üzvü T.Ştıkov və qərargah rəisi A.Krutikov barədə yazırdı: “Yanında arxalanacağın insanların olması çox vacibdir. Bizi döyüş dostluğu birləşdirir. Biz bir-birimizin müsbət və mənfi tərəflərini bilirdik, bir-birimizlə işləməyə vərdiş etmişdik, bir-birimizə hörmətimiz vardı. Hər iki döyüş dostum mənim xidmətə olan tələblərimi bilirdi, öz tapşırıqlarını aydın olaraq dərk edirdi, iş ardıcıllığını bilirdi və havadarlıq tələb etmirdilər. Bu xüsusiyyətlər böyük kollektivlərdə çox böyük nailiyyətdir”. Belə münasibətlər həm briqada, həm də tabor kollektivlərinə də aid edilməlidir.

Komandir və onun müavinlərinin vahid tapşırığa və məqsədlərə əsaslanan düşüncələrinin olması və işə səmimi yanaşma sərgiləməsi və birgə fəaliyyətləri çox böyük əhəmiyyət kəsb edir. Əlbəttə ki, bu onların hər birinin müstəqil fikirli olmasını qadağan etmir, lakin təcrübələr onu göstərir ki, fikirlərə hörmətlə yanaşaraq və bu düşüncələri nəzərə alaraq, vahid məxrəcə gəlib öz tabeçiliyində olanların qarşısına çıxmaq daha məqsədəuyğundur. Çünki fikir ayrılıqları və narazılıqlar istər-istənməz kollektivin nəzərinə çarpır. Həmin vəziyyətdə kollektivi ələ almaq çox çətindir.

Fikir belədir ki, əsas diqqət qərargah rəisinin seçilməsinə və onunla ahəngdar işə yönəldilməlidir. Çünki idarəetmənin sükanı arxasında dayanan göstərilən iki rəhbər arasında narazılıq olarsa, bu, hərbi kollektivdə iş effektivliyinin aşağı enməsinə səbəb olacaqdır. Deməli, kollektivlərdə zabitlər arasında arzu olunmayan münasibətlərin yaranmasının qarşısının alınması və narazılıqların aradan qaldırılması çox böyük əhəmiyyət kəsb edir. Bunun üçün də, ahəngdar iş, hörmət və etibar göstərmə, prinsipial münasibət əsasında qarşılıqlı münasibətlərin qurulmasından başqa, vəzifələri dəqiq reqlamentləşdirmək lazımdır. Komandir hesab etməməlidir ki, müavini öz sə



bəyan etsin.

Komandirin qərar qəbul etməsi üçün məlumatların hazırlanması, onun tərtib olunması, tapşırıqların bölmələrə çatdırılması və qoşunların idarəolunması kimi başqa bir sıra tədbirlərin yerinə yetirilməsi zamanı, qərargah rəisi, komandirin müavinləri, xidmət rəisləri və başqa zabitlər birgə çalışaraq böyük həcmdə iş görürlər.

Qərargahın üzərinə düşən cavabdehliyi bilavasitə qərargah rəisi daşıyır. O, qərargahın işinə rəhbərlik edir, komandirin adından sərəncam və əmr vermək səlahiyyətinə malik olması ona öhdəlik yaradır ki, qoşun növü və xidmət rəislərinin və komandir müavinlərinin işlərini əlaqələndirsin. Bir yandan da müavinlərin və xidmət rəislərinin birbaşa komandirə tabe olması müəyyən dərəcədə qərargah rəisinin işini çətinləşdirir. Psixoloji nöqteyi-nəzərdən adı keçən rəislərlə əlaqə və münasibət qurmaq komandirə nəzərən qərargah rəisi üçün daha mürəkkəbdir. Xüsusilə, komandir tərəfindən lazımi dəstəyi almadıqda münasibətlərin qurulması daha da mürəkkəbləşir, komandir qərargah rəisi ilə bu və ya digər qoşun növü və xidmət rəisi ilə normal iş münasibətlərinin olmamasını qınamadıqda isə bu münasibətlərin tənzimlənməsi prosesi daha da çətinləşir. Digər tərəfdən verilən tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi, necə deyərlər, qərargah rəisinin yerini bilməsindən cox asılıdır, buna komandir müavinləri və başqa rəislərlə iş münasibətlərinin düzgün qurulması, hərbi kollektivdə digər cavabdeh şəxslərlə nəzakətli davranış, onların rolu və vəzifələrinə hörmətlə yanaşmaq da daxildir.

Rəhbər öz köməkçilərinin təcrübə və biliklərindən faydalanmalıdır, belə ki, kollektivin dərrakəsi ilə hərəkət etmək daha məqsədəuyğun qərarların qəbul olunmasının zəmanətidir. Vahid komandanlıq prinsipinin tələbləri ilə tabeçilikdə olanların düşüncə və məsləhətlərinə qulaq asıb

lahiyyətlərini aşır, müavin isə hesab etməməlidir ki, komandir onun səlahiyyətlərini məhdudlaşdırır. Bu zaman rəsmi rəhbər sənədlərin tələblərini əsas götürülməlidir.

Belə ki, komandirlər öz müavinləri və qərargahına arxalanaraq məsləhətləşmələrlə xidməti qurmağa üstünlük verməlidir, xüsusilə də, döyüş qərarının hazırlanması və başqa rəhbərlik fəaliyyətlərinin müəyyənləşdirilməsi zamanı bu özünü daha çox göstərir. Bu cür iş üsulu kollektivin təcrübəsindən yararlanmağa imkan versə və bir çox səhvin qarşısını alsa da, çox vaxt tələb edir və vaxt qıtlığı zamanı çox böyük gecikmələrlə nəticələnir. Digər komandirlər isə hər bir işin özü tərəfindən edilməsinə can atır. Bu üsul işləri sürətləndirir, lakin bununla yanaşı bəzi məsələlərdə səhvlərin ortaya çıxmasına imkan yaradır.

Qərargah rəisinin, müavinlərin, xidmət rəislərinin komandirin iş üslubunu mənimsəməsi çox vacibdir, belə ki, icraçı kimi yuxarı rəisin tələblərinin xüsusiyyətlərini nəzərə almaqla qurmaq gərəkdir. Eyni zamanda yeni təyin olunmuş komandir də ondan öncəki komandirin iş üslubunu diqqətdə saxlamalıdır. Belə ki, tabeçilikdəkilər onun iş üslubunu o saat mənimsəmiyə bilərlər və buna müəyyən bir müddətin keçməsi lazım gəlir. Bu səbəbdən daha məqsədəuyğundur ki, yeni təyin olunan komandir bütün idarəetmə prinsiplərinə uyğun müəyyən vəzifəli şəxslərə olan tələblərini

faydalanma elə də ziddiyyət təşkil etmir. Müharibələrin təcrübəsi onu göstərir ki, bir çox komandirlər, onları əhatə edən insanların təklif və məsləhətlərini nəzərə aldıqları təqdirdə, böyük müvəffəqiyyətlər əldə etmişlər. Yüksək vəzifə tutan hərbi rəhbərlər cox zaman kollektiv fikir və təkliflərə arxalanırdılar. Sovet İttifaqı marşalı K.Rokosovski deyirdi: ”Mənim xoşuma gəlirdi ki, mənim köməkçilərim, savadlı və hərb işinə aşiq adamlar olaraq öz fikirlərini əsaslandırırdılar və qənaətlərini müdafiə edirdilər. Mənsə bir az düşünüb və dərindən dərk edəndən sonra deyirdim – bəli, bunu mən nəzərdən qaçırmışam, gəlin siz deyən kimi edək”.

Müasir zamanda, qoşunların idarəedilməsi üzrə komandirlərin vəzifə borcları, cavabdehlik və iş həcmləri böyük dərəcədə artdığından, onun idarəetmə suallarının hamısının təkbaşına öhdəsindən gəlməsi çox çətin və bəzi hallarda isə imkansız olacaq. Bu şərait, komandir öz müavinlərinə və qərargaha arxalanmalıdır, tezisini aktual edir. Komandir məntiqli şəkildə vahidlilik və kollegiallıq prinsipləri ilə işini tənzimləməlidir, qərar qəbul olunduqda, tabeçilikdə olanların söylədiyi məqsədəuyğun fikir və təklifləri nəzərə almalıdır.

Fəaliyyət, xüsusilə də, döyüş qərarının qəbul edilməsi zamanı, kollegiallığın olması öz təsdiqini tapır. Tutaq ki, bir komandir qərar verir. Psixoloji nöqteyi-nəzərdən bu zaman əsas kimi real faktları deyil, öz düşüncələri daha cox burada ifadə olunacaqdır. Təkbaşına qərar qəbuletmədə faktların yanlış interpretasiya dərəcəsi, kollegial üsula nisbətən daha yüksəkdir, belə ki, qrup halında vəziyyətin qiymətləndirilməsinin ortaq məxrəcə gəlinmək xüsusiyyəti var. Buna görə də sualların, döyüş şəraitinin qiymətləndirilməsinin kollektiv müzakirəsi subyektivliyi aradan qaldırır.

Kollektiv müzakirənin başqa müsbət tərəfi də var. Qrup şəklində diskussiyanın sosial-psixoloji spesifikası ondan ibarətdir ki, o müzakirə iştirakçılarının və komandirin gizli imkanlarını səfərbər edir və düşünmə fəaliyyətini fəallaşdırır, faktlara və hadisələrə müxtəlif yanaşma onların hərtərəfli və dərindən qiymətləndirilməsinə imkan yaradır.

Kollegiallığın müsbət tərəflərinə öz-özlüyündə nail olunmur, buna müzakirələr zamanı müəyyən şərtlərə riayət edildikdə əldə olunur, xüsusilə də komandir tərəfindən.

Təlimlər zamanı komandirlərin və qərargahların işlərini müşahidə edərkən eləcə də zabit heyəti ilə söhbətləşmədə bəzi xüsusiyyətləri müəyyənləşdirməyə imkan olmuşdur.

Sualları müzakirə edən zaman işgüzar və mülayim atmosferin olmasının böyük əhəmiyyəti var. Bir çox hərbi rəhbərlər buna nail olmuşlar, bu zaman onların nüfuzu azalmırdı, əksinə daha da artırdı, kollektivin işinin effektivliyi daha çox yüksəlirdi. Misal üçün, cəbhə komandanı ordu generalı N.Vatutin haqqında yazırdılar: “O, dinləməyi bacarırdı, öz biliyi və nüfuzu hesabına basqı yaratmırdı. Biz özümüzü onun yanında rahat hiss edirdik, bu isə öz növbəsində təşəbbüskarlığı artırırdı”.

Tabeçilikdə olanlar öz fikirlərini söylədiyində və fikirlər komandirin rəyi ilə tam zidd alınarsa, bu zaman xüsusi nəzakətlik göstərmək lazımdır. Təbii ki, bu əmrin müzakirəsinə aid deyil, sadəcə hansısa idarəçilik aktının, o cümlədən, qərarın müzakirəsinə aiddir.

Sualın yaradıcılıqla müzakirəsi və təşəbbüsü inkişaf etdirmək məqsədilə, komandir müzakirənin əvvəlində öz rəyini söyləməməlidir, çünki belə olanda tabeçilikdəkilər üçün bir çərçivə cızılmış olur. Həmin halda daha rahat yol seçilərək fikirlər başdansovdu dəstəklənə bilər. Müzakirələr başlayanda müzakirənin məqsədi, hansı suallara cavab axtarılması və narahatçılıq yaradan məsələlər elan olunarsa, bu işin daha məqsədyönlü aparılmasına imkan yaradacaqdır.

Əgər vaxt varsa müzakirələr zamanı diskussiyalara şərait yaradılmalıdır, çünki bu vaxt sual hərtərəfli araşdırılır, yeni ideyalar ortaya çıxır, baxılan suala müxtəlif yanaşmalar müəyyənləşir. Döyüş qərarının hazırlanması və qoşunların gündəlik fəaliyyətinin idarə edilməsinin təşkili zamanı da bu nəzərə alınmalıdır. Buna görə də, müvafiq rəislərə daha qlobal məsələlərə dair öz fikirlərini söyləmələrinə imkan verilməlidir.

Hərbi qulluqçular arasında qeyri-normal münasibətlərin səbəbinin düzgün müəyyənləşdirilməsi, sadəcə mübahisəni sakitləşdirməklə yetinmir, eləcə də, gələcəkdə onun baş verməsini önləmə-

yə də yardımçı olur. Bu zaman komandirin həyata keçirdiyi intizam tədbirləri böyük rol oynayır, xüsusilə də, hərbi intizamı pozan hərbi qulluqçulara qarşı.

Müzakirələr prosesində bir zabitin başqa bir zabitin ünvanına kəskin mülahizə söyləməsi yolverilməzdir. Müzakirələrin sonunda məqsədyönlü təkliflər söyləyən zabitlər qeyd olunmalıdır, lazım olduqda fəallıq və təşəbbüskarlıq göstərməyənlər də qeyd oluna bilər.

Zabitin işinə obyektiv qiymət verilərsə, hər kəs qabiliyyətinə uyğun qiymət alarsa, bu müsbət psixoloji mühitin yaradılmasına təminatdır. Zabit tərəfindən öz-özünə doğru-düzgün qiymət verilməsi mühüm əhəmiyyət kəsb edir. Kollektivdə elə zabitlərə rast gəlmək olar ki, onlar özlərindən çox razı olurlar, bəziləri isə əksinə, özlərini lazımi dərəcədə qiymətləndirmirlər.

Komandir kollektivi öyrənəndə başqa məsələlərlə yanaşı zabitin öz gözündə özünə verdiyi qiyməti dəyərləndirməlidir, iddialarını nəzərə almalıdır. Zabit öz bacarıq və qabiliyyətini şişirdirsə, o zaman onda vəzifəpərəstlik, təkəbbürlük, lovğalıq yaranır, bu isə onun iş keyfiyyətini pisləşdirir, yoldaşlarıyla münasibətlərinin korlanmasına gətirib çıxarır. Onun xüsusi bacarığının gərəyindən az qiymətləndirməsi isə zabitdə özünə inamsızlıq yaradır, işdə onun fəallığını və təşəbbüskarlığını zəiflədir. Bu səbəbdən, o zabitlərdə hansılarda kı, təkəbbürlük və lovğalıq var, onlara çox böyük hövsələylə layiq olduğu həqiqi yeri göstərmək lazımdır. Narazılığının əsassızlığı isə izah edilməlidir. Özünü az qiymətləndirən və cəsarətsizlik göstərən zabitləri isə ürəkləndirmək, onlarda özünə inamı artırmaq vacibdir.

Zabitin öz işinə münasibətinin dəyişməsi, kollektivdə yerini müəyyənləşdirməsi, yoldaşlarını obyektiv qiymətləndirməsi çox hallarda komandir və müvafiq rəislərin, zabitlərin işlərindəki nöqsanları vaxtında görmələrindən, tənqidi iradların əsaslı və əhatəli olmasından, tənqidin düzgün və xeyirxahlılığından asılıdır. Simpatiya və antipatiya hisslərinə qapılmamaq lazımdır, birisinə güzəştlə, digərinə isə qərəzlə yanaşmaq olmaz. Belə yanaşma kollektivdə kinin, paxıllığın və bədxahlılığın yaranmasına gətirir, nəticədə isə münasibətlər korlanır və kollektivin müsbət psixoloji iqlimi yox olur. Zabitlərə böyük təsiri olan kollektiv rəydən onlarda obyektiv özünü qiymətləndirmə bacarıqlarının yaradılmasında istifadə etmək daha məqsədəuyğundur.

Zabit kollektivinin işinin keyfiyyətliyi və effektivliyi yarana biləcək münaqişələri zəiflədir. Daimi yaranan mübahisəli şəraitlə kollektivdə müsbət psixoloji iqlim tərs mütənasibdir. Bu səbəbdən də mübahisəni vaxtında önləmək, yarandıqda isə onu cəld aradan qaldırmaq çox vacibdir.

Mübahisənin yaranma səbəblərini bilmək mütləqdir. Sualın araşdırması onu ortaya çıxarır ki, kollektivdə zabitlər arasında mübahisələrin yaranma səbəbləri bunlardır: sosial-psixoloji uyğunsuzluq (bir fakta müxtəlif yanaşma; bəziləri çox qaba və coşqundur, digərləri isə həssas və tez inciyəndir); dardüşüncəlik (eqoizm, şöhrətpərəstlik, prinsipsizlik, karyer düşkünlüyü); tündməcazlıq və passivlik (kobudluq, höcətlik, xasiyyətcə müvazinətsizlik, tənbəllik); kollektivin icra etdiyi işdə öz rolunu düzgün dərk etməmək.

Komandirin şəxsiyyəti və iş üslubundan ortaya çıxan mübahisələrin səbəblərini belə xarakterizə etmək olar: dardüşüncəlik (eqoizm, şöhrətpərəstlik, tabeçilikdəkilərə qayğının olmaması, tamahkarlıq); mənəmmənəmlik (kobudluq, xasiyyətcə müvazinətsizlik, tabeçilikdəkilərlə münasibətlərdə aşır hökmranlığa can atmaq və coşqunluq); onun iş üslubunun keçmiş komandirin (kollektivin çox hissəsinin dəstəklədiyi) iş üslubundan kəskin şəkildə fərqlənməsi; zabitləri qeyri-obyektiv qiymətləndirməsi; komandirin rəhbərlik səviyyəsinin kollektivin kamilliyinə adekvat olmaması.

Mübahisə yarandıqda onu zamanında aşkarlayıb müvafiq tədbirlərin görülməsi çox vacibdir. Mübahisə zamanı həddindən artıq səbrini itirmiş və həyəcanlı zabiti vaxtında dayandırmaq lazımdır. Gərgin vəziyyəti bəzi hallarda yerinə düşən zarafatla, tabeçilikdəki zabitlə emosional bağlaşmanın yaradılması ilə və nəzakətliklə aradan qaldırmaq olar. Zabitlərdə verilən tapşırığın icrasına yanaşma müxtəlifdirsə, o zaman mübahisə zəmini yarana bilər. Bu zaman tapşırığın yerinə

yetirilməsinə mane olan hər hansı səbəbi aradan qaldırmaq barədə və düzgün münasibətlərin qurulması üzrə xahişlə müraciət olunarsa, o zaman bu xahişə reaksiya verilməlidir, mübahisənin yaranması əngəllənməlidir.

Hər şeyə rəğmən mübahisə yaranıbsa, o zaman onun aradan çevik qaldırılması üçün tədbirlər görülməlidir. Mübahisə iki yolla aradan qaldırıla bilər: birincisi, onun yaranmasına zəmin yaradan səbəblərin aradan qaldırılmasıyla; ikincisi, mübahisə edənin (tərəfin) kollektivdən uzaqlaşdırılmasıyla. Mübahisəyə zəmin yaradan səbəbin aradan qaldırılması yolu daha arzu olunandır, ona görə ki, bu səbəb aradan qaldırılmasa mübahisənin yenidən baş verməyəcəyinə əmin olmaq olmaz.

Mübahisəni həll edən zamanı nəzərə almaq lazımdır ki, tərəflər bu zaman çox həyəcanlı olurlar və bir-birinin müsbət tərəflərini görmürlər, hər vəziyyətdə özlərini düzgün sayırlar. Bu səbəbdən onlara izah olunmalıdır ki, mübahisə hər iki tərəfə ziyandır. Bununla yanaşı mübahisəni yoluna qoymaq üçün düzgün olmayan, lakin mübahisə zamanı daha höcətçil və fəal olana da güzəştə getmək olmaz.

Hərbi kollektivdə komandir və idarəedici heyət arasında münasibətlər həlledici olsa da, zabitlər arasındakı qarşılıqlı davranışların diqqətə alınması gərəksə də, əsgərlər arasındakı münasibətlər də yaddan çıxmamalıdır və bu nəzərdən kənarda qalmamalıdır. Təcrübə göstərir ki, onlar arasında olan münasibətlərə lazımi diqqət göstərilməsə və düzgün iş qurulmasa, bu hərbi intizamın aşağı enməsinə gətirib çıxaracaq və nizamnamələrin tələblərinin pozulmasıyla nəticələnəcək. Bunu da nəzərə almaq lazımdır ki, şəxslər arasında münasibətlərdən danışarkən fərdin sadəcə o andakı həyatı və şərtlər diqqətə alınmamalıdır, burada ailə tərbiyəsi və böyüyüb boya-başa çatdığı mühitin təsiri də nəzərə alınmalıdır. İnsanların davranışında mənfi xüsusiyyətlərin özünü büruzə verməsinin təzahürü cəmiyyətdə mənəvi bağların zəifləməsi, insani və mənəvi dəyərlərin ucuzlaşması, qanunçuluğun pozulması, insanların bir-birini yadırğamaları, dürüstlük, vicdanlıq, qarşılıqlı yardımlaşma, mərhəmətlilik kimi müsbət keyfiyyətlərin arxa plana keçməsi və hövsələsizlik, kibirlik ola bilər.

Hərbi qulluqçular arasında qeyri-normal münasibətlərin düzgün qiymətləndirilməsi sadəcə mübahisəni normallaşdırmağa yardım etmir, gələcəkdə onu önləməyə də kömək edir. Bu zaman komandirin vaxtaşırı hərbi intizamı pozan hərbi qulluqçuya qarşı apardığı bacarıqlı intizam tədbirləri çox böyük rol oynayır. Hər zaman hadisənin səbəbi dəqiq, əsaslı və obyektiv araşdırılmalıdır, hər bir insan da öz günahına uyğun dərəcədə cəzalandırılmalıdır. Təcili, qeyri-obyektiv dəyərləndirmələrdən və qərarlardan qaçınmalıdır.

Hərbi kollektivin mütəşəkkilliyinin artması və hərbi intizamın möhkəmlənməsində kadrların seçilməsi və yerləşdirilməsi böyük əhəmiyyət daşıyır. Bunun üçün tabeçilikdə olanları, necə deyərlər, öyrənmək lazımdır. Yaddan çıxarmamaq gərəkdir ki, ilkin təəssürat aldadıcı ola bilər. Bunun səbəbi odur ki, ilk görüşdə xarici görünüş, səs, mimika və insanın jestləri qəbul olunur. Nəzərə almaq lazımdır ki, böyük rəislə ilk görüşdə tabeçilikdə olan həddindən çox həyəcanlı ola bilər, psixoloji sıxıntı keçirər, bu isə insanın həqiqi keyfiyyətləri barədə yanlış təəssürat yarada bilər.

Zabitlərin öyrənilməsi üçün bu üsullardan istifadə oluna bilər: müşahidə aparmaqla; söhbətləşmə keçirməklə; anketləşmə tətbiq etməklə. Öyrənilmə üsullarını elə seçmək lazımdır ki, zabit özünü öyrənmə obyekti kimi hiss etməsin. Üsullar aktiv və passiv olaraq seçilir. Zabitin fəaliyyətini adi iş prosesində müşahidə passiv üsuldur. Aktiv müşahidə üsulunda nəzarət üçün xüsusi yaradılan şəraitdə təşkil olunur. Misal üçün, döyüş fəaliyyəti zamanı komandir bölmələrə getdikdə özü ilə sınamaq istədiyi zabiti götürür, hər hansı bir məqamda onunla ön xəttə çıxır, atışma bölgəsində əsgərlərlə söhbət aparır və öz növbəsində də zabitin bəzi iradə və keyfiyyətləri haqqında qənaət yaranmasına imkan yaradır.

Psixoloji araşdırmalar onu göstərir ki, insanların xüsusiyyətləri onların üz ifadələri vasitəsilə aşkar olunur. İnsanın emosional üz ifadələri ifadə etdiyi fikirlə uyğun gəlmirsə, o zaman emosiyalarla ötürülən məlumatlar üstünlük qazanır. Bu səbəbdən zabitlərin fəaliyyətinin müşahidə edərkən onun hərəkətlərinə, emosiyalarına, üz ifadələrinə xüsusi diqqət yetirilməlidir.

Tabeçilikdə olanların öyrənilməsinin çox yaxşı effektiv üsulu söhbətləşmə keçirməkdir. Zabitlərlə əsasən fərdi söhbətləşmələr keçirilir. Bu söhbətləşməyə əvvəlcədən hazırlaşmaq daha məqsədəuyğundur. Zabitin şəxsi işi diqqətlə öyrənilir, söhbətləşmənin məqsədi, söhbətin xarakteri və əsas suallar diqqətlə müəyyənləşdirilir. Söhbət zamanı zabitdə sizə qarşı müsbət hisslərin yaradılması çox vacibdir. Buna görə də söhbət zamanı bölmənin icra etdiyi tapşırıqlardan, komandir kimi sizi narahat edən məsələlərdən, onun hansı çətinliklərlə rastlaşa biləcəyi barədə məsələlərdən söhbət açmaq daha uyğundur.

Zabitin keyfiyyətlərini, əhval-ruhiyyəsini, tələblərini, davranış və hərəkətlərinin özəl cəhətlərini müəyyən etmək üçün birbaşa sualların verilməsi məqsədəuyğun deyil, çünki bu vaxt zabit yaranmış vəziyyətə uyğunlaşdırılmış cavab verməyə can atacaq. Daha  səmərəli variant dolayı sualların verilməsidir. Misal üçün soruşulsa ki, bir yerdə xidmət etmələrinin hansı cəhətləri onun xoşuna gəlir, verilən cavabdan zabitin özünün keyfiyyətləri barədə nəticə çıxarmaq olar.

Zabitin irəli çəkilməsi – böyük həvəsləndirmədir, onun bacarığının, biliyinin qiymətləndirilməsidir, ona inamdır. Bu hərəkət bütün zabit heyətinə öz təsirini göstərir. Ona görə də yerlibazlığa, qohumbazlığa, dostbazlığa, prinsipsizlik və subyektivizmə yol verilməməlidir, bunların özü komandir (rəhbər) üçün çox pis nəticələnə bilər.

Ləyaqətlik, prinsipiallıq və müstəqil fikirlilik hazırlıqlı, iradəli və bilikli zabitlərə xas olur və əksinə, mənəvi və iradə xüsusiyyətləri zəif olan, hazırlıqsız şəxslər əksər hallarda prinsipsiz olurlar, onlar şəxsi maraqlarını cəmiyyətin maraqlarından üstün tuturlar. Bəzi komandirlər (rəislər) üçün belələri ilə işləmək daha asan olur, xüsusilə də, başqalarının düşüncələrinə hörmət bəsləməyən, öz şəxsi ambisiyalarını hamıdan üstün tutan komandir (rəhbər) heyətinə belə işçilər daha xoş gəlir.

Yuxarıda qeyd olunanı nəzərə alaraq deyə bilərik ki, kadr və təyinat məsələlərində aşkarlıq böyük rol oynayır. Namizədlərin müzakirələrinin açıq iclaslarda keçirilməsi, çox müsbət nəticələr ortaya çıxarır. Təltif edilənlər, irəli çəkilənlər, təhsil müəssisələrinə oxumağa göndərilənlər və başqa məsələlər bu iclaslarda müzakirə olunmalıdır, attestasiya komissiyalarının bütün üzvləri iştirak etməli və çıxışlar edərək öz fikirlərini söyləməlidir. Komandir (vahid rəhbər olaraq) bu söylənənlərə diqqət verməlidir, hansı biri ilə razı deyilsə, həmin iclasda çıxış edərək öz rəyini açıqca bildirməlidir.

Zabitin xidmət keçməsi müəyyənləşdirilən zaman belə bir sosial-psixoloji amil nəzərə alınmalıdır. Hər hansısa vəzifənin uzunmüddətli icrası, zabitdə iz buraxır, müəyyən keyfiyyətlərin formalaşmasına və bəzi keyfiyyətlərin dəyişməsinə yol açır. Müsbət keyfiyyətlərin itməməsi və hərtərəfli təcrübəyə yiyələnmək üçün komandirin bir müddət qərargah rəisi vəzifəsində xidmət etməsi daha məntiqli olardı.

Nəticə olaraq bildirmək lazımdır ki, zabitin gələcək işinin xarakterini yuxarı rəislər həll edirlər, çünki hər bir yuxarı vəzifə daha çox cavabdehlik tələb edir, zabit hər vaxtı öz imkanlarını düzgün qiymətləndirə bilməz və subyektivizmə yol verə bilər. Bu səbəbdən də yuxarı rəhbərlik hər hansı bir təyinat edərkən subyektivlikdən kənar durmalı və möhkəm kollektivin yaradılması, möhkəm və işgüzar mühitin təmin edilməsi yolunda layiqli kadrları qiymətləndirməlidir. Nəzərə almaq lazımdır ki, dövlətin təhlükəsizliyini təmin edən güclü silahlı qüvvələrin əsasını düzgün kadr siyasəti təşkil edir.

# TƏHLİL VƏ YEKUNA DAİR METODİK ƏLAVƏ

**BÖLÜK (BATAREYA) KOMANDİRİNİN (KOMANDİRİN ŞƏXSİ HEYƏTLƏ İŞ ÜZRƏ MÜAVİNİNİN) HƏRBİ İNTİZAMIN VƏZİYYƏTİNƏ DAİR KEÇİRİLƏN YEKUNDA MƏRUZƏSİ**

1. Bölükdə (batareyada) hərbi intizamın möhkəmləndirilməsi və daxili qayda-qanunun saxlanılması, cinayət və hadisələrin, kobud intizam pozuntularının qarşısının alınması, xəsarətalma (yaralanma, travma, kontuziya) hallarının profilaktikası, şəxsi heyətin həyat və sağlamlığının qorunması işi Azərbaycan Respublikası Müdafiə nazirinin, birlik, birləşmə və hərbi hissə komandirlərinin müvafiq əmr və sərəncamlarının tələblərinə uyğun təşkil edilmişdir.

**Keçən həftə ərzində baş verib:**

a) hadisələr –
b) cinayətlər –
c) kobud intizam pozuntusu halları, cəmi – onlardan (aşağıda yalnız yol verilmiş kobud intizam pozuntusu qeyd edilir):
– hərbi hissənin və ya xidmət yerini özbaşına tərketmə;
– tabelik münasibətlərində olmayan hərbi qulluqçulqr arasında qarşılıqlı nizamnamə qaydalarının pozulnması;
– əmri icra etməməyə və ya onu başqa şəkildə yerinə yetirməkdə imtina olunmasına cəhd göstərmə;
– qarovul, daxili xidmət və döyüş nöbəsi qaydalarının pozulması;
– spirtli içki qəbuletmə;
– narkotik və toksiki maddələr qəbuletmə;
– xidməti vəzifəyə səhlənkar yanaşma;
– yerli əhaliyə qarşı nalayiq hərəkətlər;
– silah və texnikanın istisimarında və saxlanılmasında səhlənkarlıq;
– hərbi əmlakı israfetmə, itirmə;
– tabeliyində olanları fiziki və mənəvi təhqiretmə;
d) digər intizam pozuntuları, cəmi – onlardan:
–
–
e) xəsarətalma (yaralanma, travma, kontuziya) (qayda-qanunu pozanların sayı və soyadları göstərilir)

**201__ilin___ayının___həftəsi ərzində taqımda baş verib:**

a) hadisələr –
b) cinayətlər –
c) kobud intizam pozuntusu halları, cəmi – onlardan:
–
–
d) digər intizam pozuntuları, cəmi – onlardan:
e) xəsarətalma (yaralanma, travma, kontuziya) -

2. Bölmənin əksər hərbi qulluqçulaqrı qanunların və nizamnamələrin tələblərini düzgün dərk edərək gündəlik fəaliyyətlərində onlara riayət edirlər.

Həftənin yekununa görə:
– hərbi xidmətdə müsbət nailiyyətlər əldə etmiş hərbi qulluqçular –
– intizam qaydasında cəzalandırılan hərbi qulluqçular –

201__ilin___ayının___həftəsi ərzində taqımların və manqaların döyüş hazırlığı üzrə qiymətləndirilməsi.

4. Hərbi intizamın vəziyyətinə görə taqımlar və manqalar arasında yerlərin müəyyən edilməsi:

taqımlar arasında:
1-ci yer –
2-ci yer –
3-cü yer –
Manqalar arasında:
1-ci yer –
2-ci yer –
3-cü yer-

5.Növbəti həftəyə hər taqıma hərbi intizamın və qayda-qanunun möhkəmləndirilməsinə dair tapşırıqların verilməsi:

1-ci taqıma. 1. Qarovul xidmətinin pozulması hallarına yol verilməməsi.

2. Öz vəzifə borclarının yerinə yetirilməsinə məsuliyyətlə yanaşması üçün hərbi qulluqçular arasında müvafiq izahedici işin aparılması.

2-ci taqım. 1. Gənc əsgərlərin hərbi kollektivin mənəvi-psixoloji mühütünə uyğunlaşmasına diqqət yetirilməsi.

2. İcra intizamın və döyüş növbətçiliyi zamanı intizamın artırılması.

3-cü taqıma. 1. Şəxsi heyətin həyat və sağlamlığının qorunmasının və hərbi xidmətin təhlükəsizliyinin təmin olunması ən vacib vəzifədən biri hesab edilsin.

2. Şəxsi heyətin ehtiyata buraxılması ilə əlaqədar taqımda ümumi iclasın keçirilməsi və döyüş fəallarının seçilməsi.

Hərbi intizamın möhkəmləndirilməsi və daxili qayda-qanunun saxlanılması məqsədilə zəruridir:

– ümumqoşun nizamnamələrinin, silah və texnikanın saxlanılması və təhlükəsizlik qaydalarının tələblərinin dərindən öyrənilməsi;

– hərbi qulluqçuların məhkum olunması barədə məlumatların şəxsi heyətə çatdırılması;

– taqım və manqa komandirlərinə fərdi tərbiyə işinin təşkilinə və aparılmasına diqqətin artırılması.

**Bölük (batareya) komandiri**
**(komandirin şəxsi heyətlə iş üzrə müavini)**

**kapitan Murad Həsənov**

**TAQIM KOMANDİRİNİN HƏRBİ İNTİZAMIN VƏZİYYƏTİNƏ DAİR KEÇİRİLƏN YEKUNDA ÇIXIŞI**

1. 201__ilin____ayında ötən həftə ilə müqayisədə taqımda hərbi intizam və daxili qayda-qanunun vəziyyəti yaxşılaşmışdır. Lakin buna baxmayaraq, bəzi hərbi qulluqçular tərəfindən döyüş hazırlığı proqramının mənimsənilməsinə və ümumqoşun nizamnamələri tələblərinin yerinə yetirilməsinə laqeyd yanaşılmışdır.

Taqımda hərbi intizamın möhkəmləndirilməsi və daxili qayda-qanunun saxlanılması, cinayət və hadisələrin, kobud intizam pozuntularının qarşısının alınması, xəsarətalma (yaralanma ) hallarının profilaktikası, şəxci heyətin həyat və sağlamlığının qorunması işi Azərbaycan Respublikası Müdafiə nazirinin, birlik, birləşmə və hərbi hissə komandirlərinin müvafiq əmr və sərəncamlarının tələblərinə uyğun təşkil edilmişdir.

**Keçən həftə ərzində baş verib:**

a) hadisələr –
b) cinayətlər –
c) kobud intizam pozuntusu halları, cəmi - onlardan (aşağıda yalnız yol verilmiş kobud intizam pozuntusu qeyd edilir):

– hərbi hissənin və ya xidmət yerini özbaşına tərketmə –
– hərbi qulluqçular arasında qarşılıqlı nizamnamə qydalarının pozulması –
– komandir və rəislərə qarşı kobudluq, sözqaytarma, əmri icra etməməyə cəhd göstərmə –
– qarovul, daxili xidmət və döyüş nöbəsi qaydalarının pozulması –
– spirtli içki qəbuletmə –
– narkotik və toksiki maddələr qəbuletmə –
– xidməti vəzifəyə səhlənkar yanaşma –
– yerli əhaliyə qarşı nalayiq hərəkətlər –
– silah və texnikanın istismarında və saxlanılmasında səhlənkarlıq –
– hərbi əmlakı israfetmə, itirmə –
– tabeliyində olanları fiziki və mənəvi təhqiretmə –

d) digər intizam pozuntuları, cəmi –
onlardan:
–
–
e) xəsarətalma (yaralanma, travma, kontuziya) (qayda-qanunu pozanların sayı və soyadları göstərilir)

**201__ilin___ayının___həftəsi ərzində taqımda baş verib:**

a) hadisələr –
b) cinayətlər –
c) kobud intizam pozuntusu halları, cəmi –
onlardan:
–
–
d) digər intizam pozuntuları, cəmi –
onlardan:
e) xəsarətalma (yaralanma, travma, kontuziya-)

2. Taqımın əksər hərbi qulluqçuları qanunların və nizamnamələrinin tələblərinin düzgün dərk edərək gündəlik fəaliyyətlərində onlara riayət edirlər.

Həftənin yekununa görə:
– hərbi xidmətdə müsbət nailiyyətlər əldə etmiş hərbi qulluqçular –
– intizam qaydasında cəzalandırılan hərbi qulluqçular –

Hərbi intizam pozuntusu hallarının profilaktikası və hərbi kollektivdə sağlam mənəvi-psixoloji mühitin saxlanılması sahəsində manqa komandiri______________və təşviqatçı əsgər______________ işini qeyd etmək istəyirəm.

3. Hərbi intizamın vəziyyətinə görə manqalar arasında yerlərin müəyyən edilməsi:
1-ci yer –
2-ci yer –
3-cü yer-

4. Növbəti həftəyə hər manqaya hərbi intizamın və qayda-qanunun möhkəmləndirilməsinə dair tapşırıqların verilməsi:

1-ci manqaya. 1. Hüquq və kütləvi tərbiyə iş saatlarında hərbi qulluqçulqrın hərbi cinayətlərə görə cinayət məsuliyyətinə dair çıxışın hazırlanması.

2-ci manqaya. 1. Gənc əsgərlərin hərbi kollektivin mənəvi-psixoloji mühitinə uyğunlaşmasına köməklik edilməsinə.

3-cü manqaya. 1. Bölüyün döyüş fəallarının iştirakı ilə keçirilməsi nəzərdə tutulan tədbirdə çıxışların hazırlanması.

Bundan başqa hərbi intizamın möhkəmləndirilməsi məqsədilə ümumqoşun nizamnamələrinin, silah və texnikanın saxlanılması və təhlükəsizlik qaydalarının tələblərinin öyrənilməsi.

5. 201__ilin___ayının___həftəsinin yekunlarına görə hərbi intizamın tələblərinin yerinə yetirilməsi ilə əlaqədar hərbi qulluqçuların qiymətləndirilməsi:
–
(hərbi qulluqçuların soyadı və qiyməti göstərilir).

6. Hərbi xidmətdə müsbət nəaliyyətlər əldə etmiş hərbi qulluqçuların həvəsləndirilməsi:
–
(hərbi qulluqçuların soyadı və qiyməti göstərilir).

Hərbi intizamı pozmuş və hərbi xidmətdə nöqsanlara yol vermiş hərbi qulluqçuların cəzalandırılması:
–
(hərbi qulluqçuların soyadı və qiyməti göstərilir).

**___bölüyünün_______taqım komandiri**

**baş leytenant Emin Əliyev**

# HƏRBİ HİSSƏDƏ MƏDƏNİ-KÜTLƏVİ İŞ VƏ İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏRİN TƏŞKİLİ

Polkovnik-leytenant Elmar ZEYNALABDİNOV

Hər bir qurum kimi, ordu da ictimai dəstəyə ehtiyac duyur. Buna görə də ordunun ictimayətlə sıx əlaqəsi olmalıdır. İctimaiyyətlə əlaqə ikinci dərəcəli iş hesab edilməməlidir. Əksinə, bu əlaqənin sağlam dayaqlar üzərində durması günün tələbidir. Ayrı-ayrı ordularda müxtəlif adlarla, təqdim edilib, müxtəlif üsullarla həyata keçirilsə də, onun həyata keçirən hərbi hissələrin struktur fərqi olsa da bu işin ümumi məzmunu eynidir. Hərbi hissələrin yerləşdikləri ərazidə mülki qurumlar, ictimai təşkilatlar və sadə vətəndaş qrupları qarşılıqlı münasibət qurulması ənənələri formalaşır ki, bu da ünsiyyətin istiqamətlərindən biridir. Gənclərlə və ya veteranlarla görüş, məktəb tədbirlərinə qatılmaq və s. kimi hallar bəhs etdiyimiz işin tərkib hissəsidir. Hamıya məlumdur ki, ordu da ictimai, mədəni fəaliyyət göstərməlidir. Yerli camaatla sıx əlaqələr yaratmaq, vaxtaşırı dostluq görüşləri təşkil etmək, müəyyən olunmuş vaxtlarda açıq qapı günləri planlaşdırmaq, hərbi-mülki əməkdaşlığın maraq doğuran cəhətləridir. Səyyar guşələrin təşkili, rayon ərazisində olan veteranlar şurasının üzvləri və veteranlarla görüşlər, rayon icra nümayəndəlikləri ilə əlaqə onlarla birlikdə qarşılıqlı tədbirlərin hərbi hissədə təşkil olunub keçirilməsi şəxsi heyətin hərbi tərbiyəsinə, asudə vaxtlarını maraqlı keçməsinə təkan verir.

Bildiyimiz kimi, İkinci Dünya müharibəsindən sonra alman xalqının onu bəlalara düçar etmiş ordusunu görməyə gözü yoxdu. Bu ölkədə qismən silahlı qüvvələr yaradılmağa icazə veriləndən sonra ilk zamanlarda ictimaiyyət arasında ordunun nüfuzu çox aşağı idi. Məhz ictimaiyyətlə əlaqə siyasətinin düzgün qurulması nəticəsində ordu dövlət qurumları içərisində reytinq dərəcəsinə görə 4-cü yeri tuta bildi, hətta hazırda prezident institutundan öndədir.

Bildiyimiz kimi, birinci qarabağ döyüşləri zamanı ordumuz uğursuzluqlara düçar oldu. Torpaqlarımız düşmən tərəfindən işğal olundu, bir milyondan artıq soydaşımız qaçqın və köçgün düşdü, yüzlərlə şəhid verdik. Əslində həqiqətin gözünə baxdıqda görürük ki, Azərbaycan xalqı, Azərbaycan ordusu tək Ermənistan ordusuyla yox onlara dəstək olan himayəlik edən böyük hegemon dövlətlərlə mübarizə apararaq öz torpaqlarını, müstəqilliyini düşmənlərdən qoruyurdu. Hal-hazırda Azərbaycan Silahlı Qüvvələri inkişaf etmiş dövlətlərin ordularından geri qalmır. Bu gün qüdrətli Azərbaycan dövləti və onun güclü silahlı qüvvələri var. Azərbaycan Prezidenti Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin və Müdafiə nazirinin müntəzəm olaraq təmas xəttində olması və hərbi qulluqçularla görüşü, xidmətdə fərqlənən hərbi qulluqçuların mükafatlandırılması zabit və əsgərlərimizdə böyük fəxr və qürur hissi oyadır, artıq ölkəmizdə xalqla ordu arasında böyük birlik var. Bu da, ordu və xalq arasında vəhdətin olması deməkdir.

Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bundan sonra da ordumuza diqqət və qayğını əsirgəməyəcəyini xüsusilə vurğulayır: Biz bundan sonra da öz dö



yüş potensialımızı artıracağıq. "Bu gün Azərbaycan Silahlı Qüvvələrinin bazasında hava hücumuna qarşı ən müasir qurğular, ən güclü artilleriya qurğuları, çox böyük dağıdıcı qüvvəyə malik olan raket sistemləri, döyüş və nəqliyyat helikopterləri, döyüş təyyarələri, zirehli texnika, tanklar Azərbaycan ordusunun potensialını təşkil edən amillərdir. Azərbaycan ordusunun peşəkarlığı, döyüş qabiliyyəti artır, Azərbaycan əsgəri, gizir və zabitləri Vətənə ləyaqətlə xidmət edirlər."

Bu gün bizim hərbi hissəmizin şəxsi heyətində yüksək ruh yüksəkliyi var, əsgərlərimiz vətənpərvərdir, vətənpərlik hissləri çox yüksək və möhkəmdir. Hərbi hissəmizin şəxsi heyətinin vətənpərvərlik ruhunda tərbiyə olunması üçün hərbi hissəmizdə mütəmadi olaraq ictimaiyyətlə əlaqəli tədbirlər planlaşdırılıb həyata keçirilir. Buna nümunə olaraq bir neçə tədbiri göstərmək olar.

Belə ki, rayon icra hakimiyyəti nümayəndələrinin, Böyük Vətən müharibəsi, Əfqanıstan və Qarabağ müharibəsi veteranları ilə birlikdə hərbi hissəmizdə xidmət müddəti başa çatmış hərbi qulluqçuların yolasalma mərasimində iştirak etmələri, bundan başqa Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət komitəsinin əməkdaşlarının hərbi hissəmizdə olmaları, şəxsi heyət qarşısında çıxışları şəxsi heyət tərəfindən yüksək qiymətləndirildi. Hörmətli millət vəkilimiz Qənirə Paşayeva da cəbhə bölgəsində yerləşən bir hərbi hissə kimi, bizim hərbi hissəmizdə oldu. Zabit, gizir və əsgərlərlə görüşdü, onlar qarşısında çıxış etdi, bu da ictimaiyyətlə əlaqənin yüksək səviyyədə olmasından xəbər verir. Aydın olur ki, ordumuz tam olaraq dövlətimiz, xalqımız tərəfindən daim diqqət mərkəzindədir. Bu cür tədbirlərin hərbi hissəmizdə həyata keçirilməsi şəxsi heyət tərəfindən müsbət qarşılanır və yüksək qiymətləndirilir. Mən inanıram ki, bundan sonra da hərbi hissəmizdə mütəmadi olaraq bu cür tədbirlər keçiriləcək və bu tədbirlər əsgərlərimizdə xalqına, millətinə məhəbbət düşməninə isə nifrət hissi oyadacaqdır.

# ŞƏXSİ HEYƏTİN ÖYRƏNİLMƏSİ MƏQSƏDİLƏ PSİXOLOJİ TESTLƏRİN TƏŞKİLİ

Polkovnik-leytenant Qabil TALIBOV

***Şəxsi heyətin təlim-tərbiyəsi, döyüş hazırlığının təşkili, hərbi intizamın və mənəvi-psixoloji vəziyyətin yüksək səviyyədə saxlanılması üçün hər bir hərbi qulluqçunun fərdi keyfiyyətlərinin və psixoloji durumunun öyrənilməsi vacibdir. Bu məqsədlə hərbi qulluqçular xidmətə gəldiyi ilk gündən komandirlər, şəxsi heyətlə iş üzrə zabitlər və psixoloqlar tərəfindən bir şəxsiyyət kimi öyrənilməlidir.***

Hərbi qulluqçuların fərdi keyfiyyətlərini, psixoloji durumunun öyrənilməsi üçün aşağıdakı əsas metodlardan istifadə etmək olar:

– sənədlərin təhlili (anket məlumatları ilə tanış olmaq);
– sorğular və fərdi söhbətlər;
– müşahidə;
– anket sorğusu;
– psixoloji testlər.

Qeyd edilən metodların hər biri hərbi qulluqçunun bir fərd olaraq öyrənilməsinə imkan verir. Bu gün biz sizinlə şəxsi heyətin öyrənilməsində psixoloji testlər və onun keçirilməsi qaydalarından danışacağıq.

**Psixoloji test –** psixoloji termin olub fərdi-psixoloji fərqliliklərin müəyyən edilməsi, psixoloji durumun qiymətləndirilməsi üçün nəzərdə tutulmuşdur. Psixologiyada buna **"psixodiaqnostika"** deyilir. Psixoloji test üsulu fərdin tədqiq edilməsinə və onun daha dərindən öyrənilməsinə kömək edir. Bu metodun hərbi psixoloqların işində böyük əhəmiyyəti vardır. Psixoloji testlərin keçirilməsi üçün mühüm tələblər vardır ki, bunlar keçirilən testlərdən daha dəqiq və səmərəli nəticələr əldə edilməsinə imkan verir.

Psixoloji testlər ayrıca otaqda keçirilməlidir. Testin keçiriləcəyi yer rahat olmalı və onların diqqətini heç nə yayındırmamalıdır. Testin keçirilməsinə mane olacaq, onu yarıda qoya biləcək halların qarşısının alınması məqsədilə tədbirlər öncədən görülməlidir.

Test psixoloq və ya psixoloji biliklərə malik vəzifəli şəxslər tərəfindən keçirilir. Test keçirilməzdən əvvəl sual və cavab blankları, qələmlər iş yerlərinə, masaların üstünə düzülür. Ehtiyac olduqda otağa elektron video-audio avadanlıqlar, proyeksiya, səsyazıcı və digər aparatlar yerləşdirilə bilər.

Testin keçirilməsinə başlamazdan əvvəl psixoloq hərbi qulluqçuların səhhətilə maraqlanır, onların əhvallarını öyrənir, özünü pis hiss edən və sağlamlığı ilə bağlı şikayət edən şəxslər psixoloji testlərə cəlb edilmir. Onlarla psixoloji testlərin keçirilməsi başqa vaxta keçirilir. Daha sonra psixoloq hərbi qulluqçuları görüləcək işin məqsədi və yerinə yetirilmə ardıcıllığı ilə tanış edir.

Bu məqsədlə psixoloq qrupa müayinə nəticəsində alınacaq məlumatların əhəmiyyətini qısa və aydın izah edir. Bilavasitə müayinədən əvvəl ilkin təlimat verilir.

**İLKİN TƏLİMAT**

Yoldaşlar, bu gün sizə, bir neçə müddəaya münasibət bildirmək təklif olunur. Keçirilən sorğu sizin psixoloji xüsusiyyətlərinizin öyrənilməsinə yönəlmişdir. Onun nəticələri gizlidir və heç bir halda sizin əleyhinizə istifadə oluna bilməz.

**Tapşırıqların uğurla yerinə yetirilməsi üçün vacib olan şərtlər:**

1. Verilən təlimatı diqqətlə dinləyin. Əgər sizdə sual yaranırsa, əlinizi qaldıraraq soruşun. Tapşırığa keçməzdən əvvəl siz dəqiq təsəvvürünüzə gətirməlisiniz ki, sizdən nə tələb olunur.
2. Fəaliyyətin (işlərin) başlanması və bitməsi barədə məşğələ rəhbərinin komandalarını dəqiq yerinə yetirin.
3. Tam sərbəst (müstəqil) işləyin. Suallara cavab axtarmaq məqsədilə heç kimdən, heç nə soruşmayın. Yoldaşlarınızı işindən ayırmayın, danışaraq diqqətlərini yayındırmayın. İş əsnasında sual yaranarsa, əlinizi qaldırın, sizə yaxınlaşacaqlar.
4. İşinizi bitirdikdə komanda gözləmədən, sakitcə qalxıb, kağızlarınızı təhvil verdikdən sonra otağı tərk edin.

**Kimin sualı var?**

Verilən sualları cavablandırdıqdan sonra, psixoloq təklif edir ki, hərbi qulluqçular cavab vərəqlərində bölmə, taqım, soyadı, adı və atasının adı bəndlərini doldursunlar. Bütün deyilən şərtlər və tələblər əməl olunduqdan sonra hərbi qulluqçular metodikanı yerinə yetirirlər.

Hər bir metodikanı tətbiq etməzdən əvvəl psixoloq onun mahiyyətini təfsilatı ilə, imkan daxilində əyani vəsaitlərin – video görüntülərin, plakatların köməyilə izah edir. Hər metodikanın təlimatını sözbəsöz, eyniliklə oxumaq lazımdır. Belə ki, hər hansı bir sözün və yaxud ifadənin dəyişdirilməsi metodikanın məzmununu yanlış anlada və müayinənin nəticələrinə öz mənfi təsirini göstərə bilər.

Testin keçirilməsi prosesində psixoloq otaqdakı intizamı tam nəzarətdə saxlayır. İntizamın pozulması, otaqda qeyri-səmərəli mühitin yaranması müayinənin obyektivliyinə və gerçəkliyinə əhəmiyyətli təsir göstərir.

Yorucu olmasın deyə, metodikanın qısa müddətli – 20-30 dəqiqə arası tətbiq edilməsi, eyni məzmunlu sualların, müddəaların ardıcıl deyil, qarışıq yerləşdirilməsi məqsədəuyğundur. Nisbətən asan sualları və tapşırıqları metodikanın, müayinənin əvvəlində və sonunda, çətin sual və tapşırıqları isə müayinənin əsas hissəsində (ortasında) təklif etmək tövsiyə olunur.

Nümunə olaraq bu gün silahlı qüvvələrdə gənc əsgərlərin hərbi xidmətə və kollektivə uyğunlaşma dövründə yarana biləcək psixoloji və emosional gərginliyin, əsəbiliyin və mövcud şəraitdə hər bir hərbi qulluqçunun şəxsi həyəcanlılıq dərəcəsinin müəyyən edilməsi məqsədilə keçirilən psixoloji testə diqqət yetirək. Bu testlərin vaxtında keçirilməsi və təhlili nəticəsində hərbi qulluqçuların əsəbi, gərginlik vəziyyətində törədə biləcək hər hansı bir hadisənin profilaktik tədbirlər həyata keçirməklə qarşısını almağa imkan verir.

Bu test vasitəsilə şəxsiyyətin həyəcanlığını həm şəxsi keyfiyyət kimi, həm də şəraitə uyğun yaranmış psixoloji durum kimi müəyyən etmək olar.

**TESTİN KEÇİRİLMƏ QAYDASI**

Hərbi qulluqçulara iki hissədən (cədvəldən) ibarət hazırlanmış sorğu blankı təqdim edilir. Burada birinci cədvələ 1-dən 20-dək suallar (burada həyəcanlıq psixoloji durum kimi müəyyən edilir), ikinci cədvələ isə 21-dən 40-dək suallar (burada həyəcanlıq şəxsiyyətin keyfiyyəti kimi müəyyən edilir) daxildir. Bölmələrin konkret məsələ ilə əlaqədar öyrənilməsi zamanı yalnız birinci cədvəldən istifadə olunmalıdır.

Soyad ________________ Tarix ________

**ÖZ DURUMUNUZU QİYMƏTLƏNDİRİN**

Aşağıda qeyd olunan hər bir cümləni diqqətlə oxuyun və hal-hazırda özünüzü necə hiss etdiyinizdən asılı olaraq aşağıdakı rəqəmləri pozun. Suallar üzərində çox düşünməyin çünki düzgün və ya səhv cavab yoxdur.

| №<br>s/s | Suallar | Xeyir, bu belə deyil | Ola bilər | Düzdür | Tamamilə düzdür |
|---|---|---|---|---|---|
| 1 | Mən sakitəm | | | | |
| 2 | Məni heç nə qorxutmur | | | | |
| 3 | Mən gərgin vəziyyətdəyəm | | | | |
| 4 | Mən təəssüf hissi keçirirəm | | | | |
| 5 | Mən özümü sərbəst hiss edirəm | | | | |
| 6 | Kefim pozulub, qanım qaradır | | | | |
| 7 | Ehtimal olunan uğursuzluqlar məni narahat edir | | | | |
| 8 | Mən özümü dincəlmiş hiss edirəm | | | | |
| 9 | Mən həyəcanlıyam | | | | |
| 10 | Mən daxilən rahatam | | | | |
| 11 | Özümə arxayınam | | | | |
| 12 | Mən əsəbiləşirəm | | | | |
| 13 | Mən özümə yer tapa bilmirəm | | | | |
| 14 | Mən əsəbiyəm | | | | |
| 15 | Mən sıxıntı və gərginlik hiss etmirəm | | | | |
| 16 | Razıyam | | | | |
| 17 | Mən fikirliyəm | | | | |
| 18 | Mən həyəcanlıyam və özümdə deyiləm | | | | |
| 19 | Mənə xoşdur | | | | |
| 20 | Heç nə vecimə deyil | | | | |

*CƏDVƏL 1*

| №<br>s/s | Suallar | Xeyr, bu belə deyil | Ola bilər | Düzdür | Tamamilə düzdür |
|---|---|---|---|---|---|
| 21 | Mən həzz alıram | | | | |
| 22 | Mən adətən tez yoruluram | | | | |
| 23 | Mən asan ağlaya bilərəm | | | | |
| 24 | Mən digərləri kimi xoşbəxt olmaq istərdim | | | | |
| 25 | Bir çox hallarda tez qərar qəbul edə bilmədiyim üçün uduzuram | | | | |
| 26 | Adətən özümü gümrah hiss edirəm | | | | |
| 27 | Mən sakitəm, soyuqqanlıyam | | | | |
| 28 | Gözlənilən çətinliklər adətən məni çox narahat edir | | | | |
| 29 | Boş şeylərə mən çox həyəcan keçirirəm | | | | |
| 30 | Mən xoşbəxtəm | | | | |
| 31 | Mən hər şeyi ürəyimə salıram | | | | |
| 32 | Məndə özünəinam hissi çatmır | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 33 | Adətən özümü təhlükədən kənar hiss edirəm | | | | |
| 34 | Mən kritik vəziyyətdən və çətinliklərdən qaçmağa çalışıram | | | | |
| 35 | Mən sıxıntı keçirirəm, darıxıram | | | | |
| 36 | Mən razıyam | | | | |
| 37 | Hər bir xırda və boş şeylər məni yayındırır, həyəcanlandırır. | | | | |
| 38 | Mən öz uğursuzluqlarıma görə o qədər çox fikir edirəm ki, sonradan onları uzun müddət yaddan çıxara bilmirəm | | | | |
| 39 | Mən təmkinli insanam | | | | |
| 40 | Öz işlərim barədə düşünəndə məni həyəcan bürüyür. | | | | |

*CƏDVƏL 2*

Keçirilmiş testlərin nəticələri ümumiləşdirilərək təhlil edilməli, diqqət cəlb edən hərbi qulluqçularla fərdi söhbətlər aparılmalı və onların davranışları və xidməti müşahidə olunmalıdır.

**Fərdi söhbət** – şəxsi heyətin öyrənilməsində əsas psixoloji formadır. Fərdi söhbət düzgün qurularsa, bacarıqla aparılarsa hərbçinin tələbini, planlarını, maraq dairəsini, xasiyyətinin əsas cəhətlərini, bilik fəaliyyətini, hər bir dərdini, problemini, hərbi qulluqçuya mane olan məsələləri, onun qulluğunu çətinləşdirən məqamları, onun hərbi hissədəki vəziyyətini, bölmədəki dostlarını və digər əhəmiyyət kəsb edən məlumatları almaq olar. Fərdi söhbət nəticəsində əsgərlər ilə fərdi iş aparmağa imkan yaranır.

Aparılan hər bir fərdi söhbət ciddi olmalı, mənasız söhbətlərə çevrilməməli və məqsədli olmalıdır. Bu metodu aparanlardan tələb olunur ki, qaydalar çərçivəsində aparılsın və aşağıdakı şərtlərə cavab versin:

– məqsəd aydınlığı, sualların sırası;
– sualların sadə və aydın olması;
– sual-cavab vaxtı heç bir söz yazılı şəkildə qeydə alınmamalıdır;
– pozitiv (optimist) konstruktiv sonluqla bitməsi.

Hərbi qulluqçu ilə aparılan söhbətlərdən sonra müşahidə metodundan istifadə edərək hərbi qulluqçunun xidmətə münasibətini, davranışını, bacarığını, xasiyyətini və başqa cəhətlərini qeydə almaq, araşdırıb hərbçi ilə lazımi iş aparmaq və onun qulluğuna düzgün istiqamət vermək lazımdır. Müşahidə metodundan istifadə edərkən fərdin özü və ayrıca bir insan kimi nəzərə alınır. Bu dövrdə hərbi qulluqçunun qulluğa münasibəti aşkar olunur, psixoloji və başqa cəhətləri özünü aydın büruzə verir və hərbi qulluğu müvəffəq başa vurmağa imkan yaradır. Kütləvi müşahidə formasında fərdin ətrafında olanlarla (komandir, rəis, həmkarlar, dost və s.) ünsiyyəti bilinir.

Müşahidə metodunun üstünlüyü ondadır ki, fərdin hər biri cəhətinin öyrənilməsinə kömək edir, onun şəxsiyyətini müəyyənləşdirir, hərəkətlərini düzgün istiqamətləndirir. Müşahidənin davam etdirilməsi əsgərin xasiyyətini, reallığını, məskunlaşmasını aşkar edir. Bütün müşahidələrin nəticələri qeyd olunmalı, yazılmalı, cəmləşdirilməli, onların üzərində iş aparılmalı və digər metodlardan alınan informasiyalar nəzərə alınmalıdır.

### TESTİN NƏTİCƏLƏRİNİN ÜMUMİLƏŞDİRİLMƏSİNİN AÇARI

"Birbaşa suallar": – 3, 4, 6, 7, 9, 12, 14, 17, 18, 22, 23, 24, 25, 28, 29, 31, 32, 34,35,37,38,40
"Əks suallar" – 1, 2, 5, 8, 10, 11, 13, 15, 16, 19, 20, 21, 26, 27, 30, 33, 36, 39.

Nəticələrin ümumiləşdirilməsi:

Birinci cədvəl (1-20 suallar) əsgərin həyəcanlıq

dərəcəsini, şəraitin yaratdığı psixi durum kimi ölçür. "Birbaşa" suallara görə balların sayını toplayırıq. Alınmış cəmdən "əks" suallara görə alınan balların sayını çıxırıq və 50 rəqəmini üstünə gəlirik

**H = B - Ə + 50**

Burada:

**H** – həyacanlıq durum kimi (şəraitə uyğun);

**B** – "Birbaşa" suallara görə balların cəmi;

**Ə** – "Əks" suallara görə balların cəmi;

Cəm 41 və ya aşağı olduqda həyəcanlığın aşağı dərəcəsini göstərir.

Cəm 41-45 olduqda həyəcanlığın orta dərəcəsini;

Cəm 46 və yuxarı olduğu halda şəxsiyyətin şəraitə uyğun həyəcanlığın yüksək dərəcəsini göstərir.

Bundan sonra həyəcanlığı (X) şəxsiyyətin keyfiyyəti kimi müəyyən edilməsinə başlayırıq.

Hesablama metodikası əvvəlki kimidir:

2-ci cədvələ görə (20-40-cı suallar) balları hesablayırıq.

Nəticə aşağıdakı qaydada alınır:

**X = B - Ə + 35**

**35-dən aşağı** olan cəm yüksək emosional dayanıqlığını və həyəcanlığın aşağı dərəcəsini göstərir.

**35-44 arasında** olan cəm həyəcanlığın orta dərəcəsinin göstəricisidir.

**Cəm 45-dən yuxarı** olduqda biz şəxsiyyətin həyəcanlığının yüksək dərəcəli olduğunu qeyd edə bilərik.

**BİRBAŞA SUALLARIN AÇARLARI**

| № s/s | Suallar | Xeyr, bu belə deyil | Ola bilər | Düzdür | Tamamilə düzdür |
|---|---|---|---|---|---|
| 1 | Mən sakitəm | 1 | 2 | 3 | 4 |
| 2 | Məni heç nə qorxutmur | 1 | 2 | 3 | 4 |
| 3 | Mən gərgin vəziyyətdəyəm | 1 | 2 | 3 | 4 |
| 4 | Mən təəssüf hissi keçirirəm | 1 | 2 | 3 | 4 |
| 5 | Mən özümü sərbəst hiss edirəm | 1 | 2 | 3 | 4 |
| 6 | Kefim pozulub, qanım qaradır | 1 | 2 | 3 | 4 |
| 7 | Ehtimal olunan uğursuzluqlar məni narahat edir | 1 | 2 | 3 | 4 |
| 8 | Mən özümü dincəlmiş hiss edirəm | 1 | 2 | 3 | 4 |
| 9 | Mən həyəcanlıyam | 1 | 2 | 3 | 4 |
| 10 | Mən daxilən rahatam | 1 | 2 | 3 | 4 |
| 11 | Özümə arxayınam | 1 | 2 | 3 | 4 |
| 12 | Mən əsəbiləşirəm | 1 | 2 | 3 | 4 |
| 13 | Mən özümə yer tapa bilmirəm | 1 | 2 | 3 | 4 |
| 14 | Mən əsəbiyəm | 1 | 2 | 3 | 4 |
| 15 | Mən sıxıntı və gərginlik hiss etmirəm | 1 | 2 | 3 | 4 |
| 16 | Razıyam | 1 | 2 | 3 | 4 |
| 17 | Mən fikirliyəm | 1 | 2 | 3 | 4 |
| 18 | Mən həyəcanlıyam və özümdə deyiləm | 1 | 2 | 3 | 4 |
| 19 | Mənə xoşdur | 1 | 2 | 3 | 4 |
| 20 | Heç nə vecimə deyil | 1 | 2 | 3 | 4 |

*CƏDVƏL 1*

| № s/s | Suallar | Xeyr, bu belə deyil | Ola bilər | Düzdür | Tamamilə düzdür |
|---|---|---|---|---|---|
| 21 | Mən həzz alıram | 1 | 2 | 3 | 4 |
| 22 | Mən adətən tez yoruluram | 1 | 2 | 3 | 4 |
| 23 | Mən asan ağlaya bilərəm | 1 | 2 | 3 | 4 |
| 24 | Mən digərləri kimi xoşbəxt olmaq istərdim | 1 | 2 | 3 | 4 |
| 25 | Bir çox hallarda tez qərar qəbul edə bilmədiyim üçün uduzuram | 1 | 2 | 3 | 4 |
| 26 | Adətən özümü gümrah hiss edirəm | 1 | 2 | 3 | 4 |
| 27 | Mən sakitəm, soyuqqanlıyam | 1 | 2 | 3 | 4 |
| 28 | Gözlənilən çətinliklər adətən məni çox narahat edir | 1 | 2 | 3 | 4 |
| 29 | Boş şeylərə mən çox həyəcan keçirirəm | 1 | 2 | 3 | 4 |
| 30 | Mən xoşbəxtəm | 1 | 2 | 3 | 4 |
| 31 | Mən hər şeyi ürəyimə salıram | 1 | 2 | 3 | 4 |
| 32 | Məndə özünəinam hissi çatmır | 1 | 2 | 3 | 4 |
| 33 | Adətən özümü təhlükədən kənar hiss edirəm | 1 | 2 | 3 | 4 |
| 34 | Mən kritik vəziyyətdən və çətinliklərdən qaçmağa çalışıram | 1 | 2 | 3 | 4 |
| 35 | Mən sıxıntı keçirirəm, darıxıram | 1 | 2 | 3 | 4 |
| 36 | Mən razıyam | 1 | 2 | 3 | 4 |
| 37 | Hər bir xırda və boş şeylər məni yayındırır, həyəcanlandırır. | 1 | 2 | 3 | 4 |
| 38 | Mən öz uğursuzluqlarıma görə o qədər çox fikir edirəm ki, sonradan onları uzun müddət yaddan çıxara bilmirəm | 1 | 2 | 3 | 4 |
| 39 | Mən təmkinli insanam | 1 | 2 | 3 | 4 |
| 40 | Öz işlərim barədə düşünəndə məni həyəcan bürüyür | 1 | 2 | 3 | 4 |

*CƏDVƏL 2*

**ƏKS SUALLARIN AÇARLARI**

| № s/s | Suallar | Xeyr, bu belə deyil | Ola bilər | Düzdür | Tamamilə düzdür |
|---|---|---|---|---|---|
| 1 | Mən sakitəm | 1 | 2 | 3 | 4 |
| 2 | Məni heç nə qorxutmur | 1 | 2 | 3 | 4 |
| 3 | Mən gərgin vəziyyətdəyəm | 1 | 2 | 3 | 4 |
| 4 | Mən təəssüf hissi keçirirəm | 1 | 2 | 3 | 4 |
| 5 | Mən özümü sərbəst hiss edirəm | 1 | 2 | 3 | 4 |
| 6 | Kefim pozulub, qanım qaradır | 1 | 2 | 3 | 4 |
| 7 | Ehtimal olunan uğursuzluqlar məni narahat edir | 1 | 2 | 3 | 4 |
| 8 | Mən özümü dincəlmiş hiss edirəm | 1 | 2 | 3 | 4 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 9 | Mən həyəcanlıyam | 1 | 2 | 3 | 4 |
| 10 | Mən daxilən rahatam | 1 | 2 | 3 | 4 |
| 11 | Özümə arxayınam | 1 | 2 | 3 | 4 |
| 12 | Mən əsəbiləşirəm | 1 | 2 | 3 | 4 |
| 13 | Mən özümə yer tapa bilmirəm | 1 | 2 | 3 | 4 |
| 14 | Mən əsəbiyəm | 1 | 2 | 3 | 4 |
| 15 | Mən sıxıntı və gərginlik hiss etmirəm | 1 | 2 | 3 | 4 |
| 16 | Razıyam | 1 | 2 | 3 | 4 |
| 17 | Mən fikirliyəm | 1 | 2 | 3 | 4 |
| 18 | Mən həyəcanlıyam və özümdə deyiləm | 1 | 2 | 3 | 4 |
| 19 | Mənə xoşdur | 1 | 2 | 3 | 4 |
| 20 | Heç nə vecimə deyil | 1 | 2 | 3 | 4 |

*CƏDVƏL 1*

| № s/s | Suallar | Xeyr, bu belə deyil | Ola bilər | Düzdür | Tamamilə düzdür |
|---|---|---|---|---|---|
| 21 | Mən həzz alıram | 1 | 2 | 3 | 4 |
| 22 | Mən adətən tez yoruluram | 1 | 2 | 3 | 4 |
| 23 | Mən asan ağlaya bilərəm | 1 | 2 | 3 | 4 |
| 24 | Mən digərləri kimi xoşbəxt olmaq istərdim | 1 | 2 | 3 | 4 |
| 25 | Bir çox hallarda tez qərar qəbul edə bilmədiyim üçün uduzuram | 1 | 2 | 3 | 4 |
| 26 | Adətən özümü gümrah hiss edirəm | 1 | 2 | 3 | 4 |
| 27 | Mən sakitəm, soyuqqanlıyam | 1 | 2 | 3 | 4 |
| 28 | Gözlənilən çətinliklər adətən məni çox narahat edir | 1 | 2 | 3 | 4 |
| 29 | Boş şeylərə mən çox həyəcan keçirirəm | 1 | 2 | 3 | 4 |
| 30 | Mən xoşbəxtəm | 1 | 2 | 3 | 4 |
| 31 | Mən hər şeyi ürəyimə salıram | 1 | 2 | 3 | 4 |
| 32 | Məndə özünəinam hissi çatmır | 1 | 2 | 3 | 4 |
| 33 | Adətən özümü təhlükədən kənar hiss edirəm | 1 | 2 | 3 | 4 |
| 34 | Mən kritik vəziyyətdən və çətinliklərdən qaçmağa çalışıram | 1 | 2 | 3 | 4 |
| 35 | Mən sıxıntı keçirirəm, darıxıram | 1 | 2 | 3 | 4 |
| 36 | Mən razıyam | 1 | 2 | 3 | 4 |
| 37 | Hər bir xırda və boş şeylər məni yayındırır, həyəcanlandırır. | 1 | 2 | 3 | 4 |
| 38 | Mən öz uğursuzluqlarıma görə o qədər çox fikir edirəm ki, sonradan onları uzun müddət yaddan çıxara bilmirəm | 1 | 2 | 3 | 4 |
| 39 | Mən təmkinli insanam | 1 | 2 | 3 | 4 |
| 40 | Öz işlərim barədə düşünəndə məni həyəcan bürüyür | 1 | 2 | 3 | 4 |

*CƏDVƏL 2*

# ŞƏXSİ HEYƏTİN DÖVLƏT RƏMZLƏRİNƏ SƏDAQƏT RUHUNDA TƏRBİYƏ EDİLMƏSİ İŞİNİN MƏZMUNU

Polkovnik-leytenant Zaur RÜSTƏMOV

***Hörmətli konfrans iştirakçıları mən çıxışıma başlamazdan əvvəl ümummilli liderimiz ulu öndər Heydər Əliyevin bir fikrini nəzərinizə çatdırmaq istəyirəm.Ulu öndər Heydər Əliyev demişdir: "Hamımızın ümumi vəzifəsi xalqımızda vətənpərvərlik,vətən torpağına, dövlət rəmzlərinə və millətə sədaqət, vətən uğrunda şəhidliyə hazır olmaq hissləri formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir".***

Bu qiymətli kəlamı eşidən, oxuyan hər bir şəxs onun üzərinə necə bir məsuliyyətli vəzifələrin düşdüyünü dərindən dərk etməlidir. Ümumiyyətlə bir millətin mövcudluğu üçün sağlam gənclərin olması vacib şərtdir. Ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən asılıdır. Azərbaycan xalqı ta qədimdən, gələcəyimiz olan gənc nəslin vətənə məhəbbət, soykökünə, öz ata-babalarının ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına həmişə böyük məsuliyyətlə yanaşmışdır. Bu bir həqiqətdir ki, vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissi yaradır apardığı mübarizədə onda inam hissini gücləndirir.Gənclərə dövlət rəmzlərinə eləcə də dövlətə, millətə, xalqa və dövlətçiliyə sədaqət, həmçinin hərbi vətənpərvərlik tərbiyəsini o zaman daha yaxşı aşılamaq mümkündür ki, orta məktəbin X-XI siniflərində oxuyan şagirdlərə və ali məktəbdə təhsil alan tələbə gənclərə ayrı-ayrı fənləri və ixtisas kurslarını tədris edərək hərbi məzmunlu biliklər də verilmiş olsun. Bildiyimiz kimi hər bir dövlətdə olduğu kimi bizim dövlətimizin də rəmzləri vardır.

**Azərbaycan Respublikasının dövlət rəmzləri:**

– Azərbaycan Respublikasının dövlət bayrağı;
– Azərbaycan Respublikasının dövlət gerbi;
– Azərbaycan Respublikasının dövlət himni.

Azərbaycan Respublikasının dövlət bayrağı və Azərbaycan Respublikasının dövlət gerbinin təsviri, Azərbaycan Respublikasının dövlət himninin musiqisi və mətni Dövlət Konstitusiyası ilə müəyyən edilir.

### AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT BAYRAĞI

Azərbaycan Respublikasının Dövlət bayrağı bərabərendə üç üfüqi zolaqdan ibarətdir.Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir və qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir.

1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Soveti Azərbaycan SSRİ-nin adının və dövlət bayrağının dəyişdirilməsi haqqında qərar qəbul etdi. Həmin tarixdə Azərbaycan Respublikasının dövlət bayrağı haqqında qanun qüvvəyə mindi, dövlət bayrağının təsviri və dövlət bayrağı haqqında Əsasnamə təsdiq olundu.

### AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT GERBİ

Azərbaycan Respublikasının dövlət gerbi Azərbaycan dövlətinin müstəqilliyinin rəmzidir. Azərbaycan Respublikasının dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən Şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üzərində Azərbaycan Respublikası dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində alov təsviri vardır.

1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Soveti Azərbaycan Respublikasının dövlət

gerbinin ən yaxşı təsviri üçün müsabiqə elan etdi. Milli Məclis 1993-cü il yanvarın 19-da, 1919-1920-ci illərdə hazırlanmış gerb layihəsinə müəyyən düzəliş və təkmilləşdirilmələrdən sonra Azərbaycan Respublikasının "Dövlət Gerbi haqqında" qanunu təsdiq etdi. 1993-cü il fevral ayının 23-də isə Dövlət Gerbi haqqında Əsasnamə təsdiq edildi.

**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ**

Azərbaycan Respublikasının Dövlət himni 1992-ci il mayın 27-də "Azərbaycan Respublikasının Dövlət himni haqqında Azərbaycan Respublikasının qanunu ilə təsdiq edilmişdir.

Konstitusiyanın 75-ci maddəsində hər bir vətəndaşdan Azərbaycan Respublikasının dövlət rəmzlərinə hörmət etməyi tələb edilir.

Azərbaycan gəncliyi dövlət rəmzlərinə sadiq qalaraq bütün dövrlərdə ölkəmizin taleyüklü məsələlərinə münasibətdə, həlledici məqamlarda öz sözünü deyib və bu gündə bu belədir. Hazırkı dövrdə gənclərimizin dövlət rəmzlərinə sədaqət ruhunda tərbiyə edilməsi daha mühüm əhəmiyyət kəsb edir. Çünki neçə illərdir ki, hiyləgər və məkrli düşmənlərimiz olan ermənilər xalqımıza qarşı qəsbkarlıq müharibəsi aparırlar. Belə bir düşmənə qarşı ləyaqətlə mübarizə aparan gənclərdə inamın, hərbi vətənpərvərlik hisslərinin tərbiyə edilməsi, güclü, fiziki cəhətdən sağlam olması ən zəruri məsələ kimi hamımızın qarşısında duran ən böyük məsələlərdən biridir.Yaşadığımız dövr gənc nəslin kiçik yaşlarından hərbi ruhda və dövlət rəmzlərinə sədaqət ruhunda böyütməyi tələb edir. Onları psixoloji və mənəvi baxımdan hərbi həyata hazırlamaq vacibdir,vətəni qorumaq üçün həmişə hərbə hazır olmaq lazımdır. Gənc nəslə dövlət səviyyəsində göstərilən diqqət və qayğı onların vətənpərvər ruhda böyümələrinə və formalaşmasına böyük şərait yaradır. Xalqımız gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında böyük xidmətləri olan ümummilli liderimiz Heydər Əliyevin vətənpərvərliyə dair əməli və nəzəri görüşlərini yüksək qiymətləndirir və onu minnətdarlıqla yad edir.

Hörmətli konfrans iştirakçıları, bildiyimiz kimi hərbi kollektivdə şəxsi heyətin dövlət rəmzlərinə və ümumilikdə dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunmasında bizlərin üzərinə olduqca çox böyük məsuliyyət düşür. Bunun üçün biz hərbi tərbiyə və ideoloji işin nə demək olduğunu, onun formalarını, metod və üsullarını dərindən öyrənməli və dərk etməliyik. Bu bütün kateqoriyadan olan zabit və komandirlərin ən ümdə vəzifəsidir.

Gəlin hərbi tərbiyə və ideoloji işin hərbi hissələrdə necə qurulmasına və onun nə demək olduğuna nəzər salaq.

**Hərbi tərbiyə işi** – sülh və müharibə dövründə, döyüş şəraitində şəxsi heyətdə hərbi xidmət borcunu yerinə yetirməklə hərbi xidmətin xarakteri ilə əlaqədar mənəvi keyfiyyətlərin və şüurlu münasibətlərin formalaşmasında aparılan məqsədyönlü bir işdir.

Silahlı qüvvələrdə tərbiyə işi komandirlərin və ŞHİÜZ-in bölmələrin qarşısında duran vəzifələrin layiqincə yerinə yetirilməsi naminə şəxsi heyətdən bu vəzifələri yerinə yetirilməsinə səfərbər edilməsidir.

**İdeoloji iş** – şəxsi heyətin şüurunda dövlətin, xalqın mənafeyini müdafiə etmək, milli adət və ənənələrə sadiqlik hisslərinin aşılanmasına, onların daha da təkmilləşdirilməsinə yönəldilən özünəməxsus forma və üsullara malik olan sistemli iş prosesidir. Bu prinsiplərin yerinə yetirilməsi üçün güclü təbliğat, tərbiyə və ideoloji iş aparmaq lazımdır. Şəxsi heyətin milli və hərbi vətənpərvərlik ruhunda eləcə də dövlət rəmzlərinə (millətə, xalqa, dövlətə, dövlətçiliyə) sədaqət ruhunda tərbiyə olunması üçün hərbi tərbiyə işinin və ideoloji işin bütün forma və metodlarından, üsullarından və tərkib hissələrindən geniş istifadə olunmalıdır.

Hörmətli konfrans iştirakçıları, sonda onu da qeyd etmək istəyirəm ki, hər bir dövlətin, millətin gələcəyi onun gənclərinin hansı ruhda necə tərbiyə olunmasından asılıdır. Düzgün qurulmuş milli-mənəvi dəyərlərə bağlılıq ruhunda tərbiyə edilən gənclik keçmişini unutmur, xalqının milli kimliyi üzərində öz gələcəyini qurur. Bu baxımdan da bizim üzərimizə çox ağır və olduqca şərəfli bir vəzifə düşür.

# ŞƏXSİ HEYƏTLƏ İŞ ÜZRƏ ZABİTLƏRİN PEŞƏ HAZIRLIĞI VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ İŞİNİN VƏZİYYƏTİ

Polkovnik Nazim ƏHMƏDOV



Bildiyimiz kimi cənab nazirin orduda apardığı ştat islahatları nəticəsində, hal-hazırda qoşunlarda bölük səviyyəsindən başlayaraq şəxsi heyətlə iş üzrə komandir müavinləri fəaliyyət göstərir. Eyni zamanda şəxsi heyətlə iş üzrə strukturlar qarşısında şəxsi heyətin mənəvi-psixoloji durumunun yüksək səviyyədə saxlanılması onlarda vətənpərvərlik hisslərinin aşılanması və tərbiyə edilməsi şanlı hərb tarixi nümunələrinin təbliğ edilməsi, dövlətə, xalqa, Ali Baş Komandana sadiq olması, işğal edilmiş torpaqların azad edilməsi kimi vəzifələr müəyyənləşdirilmişdir. Bu vəzifələrin icrasının təmin edilməsi, peşəkar və yüksək səviyyədə şəxsi heyətlə iş üzrə zabitlərin hazırlanması məqsədilə Müdafiə nazirinin şəxsi heyət üzrə müavini – Şəxsi Heyət Baş İdarəsi rəisinin göstərişi ilə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində ümumi fənlər kafedrasının tərkibində humanitar və sosial fənlər silsiləsi yaradılmışdır. Silsilə fəaliyyət göstərdiyi ilk gündən Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin nəzarəti altında peşəkar və yüksək hazırlıq səviyyəli, şəxsi heyətlə iş üzrə zabitlərin hazırlanmasına başlanmışdır.

Xüsusi qeyd etmək istəyirəm ki, 21.07.2014-cü il tarixindən 01.09.2014-cü il tarixinədək Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində 69 nəfər zabit şəxsi heyətlə iş üzrə bölük komandirlərinin müavinləri vəzifəsinə dair təkmilləşdirmə kursunu uğurla bitirmiş və qoşunlarda fəaliyyətə başlamışlar.

Hal-hazırda Müdafiə nazirinin şəxsi heyət üzrə müavini – Şəxsi Heyət Baş İdarəsi rəisinin göstərişi ilə ehtiyat zabit hazırlığı kursları təşkil edilib və tədris prosesinə başlanılmışdır. Sevindirici haldır ki, həmin kurslarda 176 nəfər kursant (2014-cü ilin iyul çağırışı ali təhsilli əsgərləri) şəxsi heyətlə iş üzrə bölük komandirlərinin müavinləri kimi hazırlıq kursları keçirlər.

Qeyd etdiyim kimi tədris prosesinin gedişatı, keyfiyyəti Şəxsi Heyət Baş İdarəsinin və Mənəvi Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisləri tərəfindən xüsusi nəzarətdə saxlanılır və hərtərəfli qayğı göstərilir.

Həmin kursantların hazırlığı prosesinə əsas ixtisas hərbi psixologiya və pedaqogika, silahlı qüvvələrdə tərbiyə işinin təşkili, sosiologiya, beynəlxalq münasibətlər və hüquq kimi fənlərə xüsusi yer ayrılmışdır. Tədris prosesində qrup məşqləri, müxtəlif ekskursiya və vətənpərvər xarakterli tədbirlərdə, konfranslarda kursantların iştirak etməsi nəzərdə tutulmuşdur.



Bu fənnin öyrənilməsi nəticəsində təhsil alanlar aşağıdakı bacarıqlara yiyələnəcəklər:

– silahlı qüvvələrdə tərbiyə işinin təşkilinin məqsəd və vəzifələrini;

– şəxsi heyətin idarə olunmasında tərbiyə işinin vacibliyini;

– əsgər və zabitlərlə keçirilən hərbi təlimin xüsusiyyətlərini;

– orduda tərbiyə prosesinin prinsiplərini, üsullarını və təşkili formalarını;

– şəxsi heyətin tərbiyəolunma prosesinə düzgün rəhbərlik etməyin nəzəri əsaslarını,

– bölük səviyyəsində sülh və müharibə dövründə idarəçiliyin təşkilini;

– dövlət və hərbi sirlərin qorunub saxlanılmasını təmin etmək məqsədilə qanunvericilik aktlarının və normativ sənədlərin tələblərini yerinə yetirməyi;

– şəxsi heyətlə döyüş və ictimai-siyasi hazırlıq məşğələlərini keçirməyi;

– bölmədəki çavuşlarla təlim-metodiki məşğələləri keçirməyi;

– tabeliyində olan şəxsi heyətin fərdi xüsusiyyətlərini öyrənməyi;

– kütləvi-təşviqat işini təşkil etməyi;

– təlim-tərbiyə prosesinin əsas istiqamətlərini bilməyi.

Eyni zamanda hərbi hissə və bölmələrdə əldə edilmiş qabaqcıl təcrübələrlə,
tərbiyə, təhsil, pedaqoji mədəniyyət, psixoloji işin, üsul, funksiya, kateqoriyaları ilə tanış olacaqlar.

Silahı Qüvvələrin Təlim və Tədris Mərkəzinin rəhbərliyi, professor və müəllim heyəti cənab nazirin, ordu rəhbərliyinin Azərbaycan ordusunun zabit korpusuna yüksək hazırlıqlı zabit hazırlanması vəzifəsini tam məsuliyyəti üzrə dərk edərək, vəzifələrinin icrası məqsədilə müasir standartlara uyğun tədris prosesi təşkil etmişdir.

İnanırıq ki, görülən bütün işlər Azərbaycan ordusunun peşəkar zabit korpusuna nail olmasına, işğal edilmiş torpaqların azad edilməsinə və müqəddəs Azərbaycan bayrağının daim yüksəklərdə dalğalanmasına xidmət edəcəkdir.

Ehtiyatda olan zabit müzakirələrə qoşulur

# JURNALİST PEŞƏKARLIĞI HAQQINDA

## (Müşahidə və təcrübə qeydləri əsasında)

Hərbi jurnalist, ehtiyatda olan mayor Rahib QƏRİB



Jurnalist öz fəaliyyəti ilə təbliğat işi apararaq cəmiyyəti mövcud ictimai-siyasi həyatda fəal iştirak etməyə sövq edir, düzgün istiqamətə yönləndirir. Jurnalistikanın əsas uğuru da elə insanların cəmiyyətdə gedən proseslərdə sosial-iqtisadi həyatda fəal iştirakını, məqsədyönlü fəaliyyətini təmin etməkdir. Jurnalist əməyinin yaradıcı xarakteri onun yenilikçiliyi, proqressivliyi, tarixi novatorluq missiyası ilə ölçülür. Bu yaradıcı əmək cəmiyyətdə mövcud sosial problemlərin həllinə yönəlməklə jurnalisti yeniliyin təbliğatçısına, cəmiyyətin inkişafının istiqamətvericisinə, təşviqatçısına, təşkilatçısına çevirir. Jurnalistikanın inkişafı, canlanması cəmiyyətin mənəvi tələbatının yüksəlməsi ilə müşayiət olunur. Oxucuya, tamaşaçıya, dinləyiciyə təsir etməklə jurnalist sosial idarəetmə prosesinin iştirakçısına çevrilərək onların şüuruna, davranışına təsir göstərir. Amma bu, sözün birbaşa mənasında idarəetmə funksiyasından köklü surətdə fərqlənir. Belə ki, oxucunun, tamaşaçının, dinləyicinin jurnalistika məhsullarına qarşı münasibətdə seçim hüququ, azadlığı var. Onu bu və ya digər məqaləni, oçerki, reportajı oxumağa, müəllifin düşüncələri ilə razılaşmağa məcbur etmək olmaz. Buna görə də jurnalist oxucunun maraq dairəsini, eləcə də sərbəstliyini nəzərə almaqla, onun istəyindən asılı olmayaraq müəyyən istiqamətə yönləndirə bilər. Sosial-iqtisadi şərait, cəmiyyətin siyasi görüşləri, mövcud ictimai-siyasi vəziyyət jurnalistin yaradıcılıq fəaliyyətini müəyyənləşdirən faktorlar və amillərdir. Öz fəaliyyətini düzgün təşkil etmək üçün jurnalistdən yüksək erudisiya, bədii təxəyyül və zövq, obyektivlik, doğru-düzgün, qərəzsiz informasiya toplamaq, nəticələr çıxarmaq bacarığı, prinsipiallıq, operativlik, dəqiqlik, cəsarət və araşdırıcılıq qabiliyyəti tələb olunur. Amma jurnalistə lazım olan keyfiyyətlər bununla bitmir. Jurnalist, belə demək mümkünsə, cəmiyyətdən gələn hər cür "sosial sifarişə" operativ cavab verməyə hazır olmalıdır.

Yaradıcılıq fəaliyyətində mühüm rolu olan amillərdən biri də jurnalist etikasıdır. Bu, jurnalistin ideoloji baxışlarının, yaradıcılıq potensialının onun davranış prinsipləri ilə vəhdətidir. Jurnalist



həm də vətəndaş mövqeyindən çıxış edərək insanların şərəf və ləyaqətinə hörmətlə yanaşmalı, vicdanlı və qərəzsiz olmalıdır. Peşəkarlığından, yaradıcılıq potensialından asılı olmayaraq jurnalist üçün mövcud etik normalar həmişə dəyişməz qalır.

Jurnalistin formalaşması və inkişafı onun bilik və bacarığını, daim yenilənən informasiya ehtiyatını artırması sayəsində mümkündür. Jurnalistin peşəkarlığı əsasən onun geniş dünyagörüşü, faktları analiz etmək, ümumiləşdirmək bacarığı ilə ölçülür. Yalnız yüksək intellektə malik olan, sosial həyatın aktual hadisə və faktlarını dərindən dərk edib təhlil edən jurnalist peşəkar hesab oluna bilər. Təkrarolunmaz olmaq üçünsə jurnalistin öz dəst-xətti olmalıdır. Qələmindən çıxan hər sətirdən tanınan, fikrini qeyri-adi formada ifadə tərzi ilə seçilən müəllif əsil jurnalistdir.

Jurnalist peşəkarlığının formalaşması intellektual səviyyənin yüksəlməsi, güclü müşahidə qabiliyyətinin, yaradıcı təxəyyülün, obrazlı və emosional yaddaşın, dilin təsir vasitələrindən, yaradıcı imkanlarından səmərəli istifadə etmək bacarığının formalaşması nəticəsində mümkündür. Ümumilikdə cəmiyyətə ideoloji təsir göstərən jurnalist bu keyfiyyətlərə, yüksək sosial dünyagörüşünə malik olmaqla yanaşı ayrı-ayrı faktlara, insan talelərinə, konkret ictimai hadisələrə qeyri-adi, fərdi baxışı ilə seçilir. O, aktual problemləri işıqlandırmaqla, faktları dərindən təhlil etməklə oxucunun, tamaşaçının etimadını qazanır.

Peşəsinin ustası kimi formalaşaraq auditoriyanın etimad və inamını doğruldaraq oxucularla mütəmadi ünsiyyət "hüququ" qazanan jurnalistin peşəkarlığı, xüsusilə onun həyat həqiqətlərini dərk edərək yaradıcı üsul və vasitələrdən bacarıqla istifadə etməsindən də çox asılıdır. Auditoriyaya effektli təsir qüvvəsi jurnalistikanın sosial təyinatı ilə müəyyənləşir. Bu isə insan şüuruna ideoloji və daha çox elmi biliklər aşılamaqla təsir etməkdən ibarətdir. Jurnalistin fəaliyyəti, hər şeydən əvvəl cəmiyyətin mənəvi tərbiyəsinə, mənəvi dəyərlərin qorunub inkişaf etdirilməsinə yönəlib. Jurnalist öz bilik və bacarığına, malik olduğu sosial informasiyaya söykənərək yenilikçi, proqressiv sosial qüvvələrin mövqeyindən çıxış edib həyat həqiqətlərini qələmə almalıdır. Bu mənada jurnalistin peşəkarlığı daha çox onun müşahidə qabiliyyəti və bu yolla əldə olunan informasiya və faktları saf-çürük etmək, incələmək bacarığı ilə ölçülür. Müşahidə prosesinin uğuru isə təkcə görmə və eşitmə qabiliyyəti ilə deyil, eyni zamanda baş verənlərin incəliklərinə, varmaq və analitik metodlarla həqiqəti üzə çıxarmaqla müşayiət olunur. Müxtəlif yaradıcı məqamlarda hadisənin gözlənilməz çalarlarını, qəhrəmanın xarakterindən qeyri-adi xüsusiyyətləri müşahidə etmək bacarığı müəllifə daha müfəssəl, oxunaqlı, dürüst material ortaya çıxarmağa imkan verir. Qeyri-adi müşahidə qabiliyyəti jurnalistə məlumat və faktları ustalıqla incələyərək hər kəsin görə bilmədiyi, ehtimal belə etmədiyi xarakterik cəhətləri, həyat həqiqətlərini üzə çıxarmağa şərait yaradır. Çox zaman jurnalist nələri müşahidə edəcəyini, hadisələrin ardıcıllığını, gedişatını əvvəlcədən təxmin edir. Dəqiq ünvanın, faktın və hədəfin olması jurnalistin operativ fəaliyyətini təmin edir. Amma bu cür müşahidə yalnız kiçik həcmli xəbər və materialların hazırlanmasına imkan verir. Belə ani müşahidə məqalə, oçerk və felyetonun hazırlanması üçün kifayət deyil. Bu cür materialların ərsəyə gətiril-

məsi üçün uzunmüddətli, geniş müşahidə aparaq, obyekti, insanları hərtərəfli öyrənmək, hadisələrin dinamik inkişafını izləyib araşdırmaq gərəkdir. Bu cür müşahidə jurnalistikanın xarakterinə daha çox uyğun gələndir. Müşahidələr jurnalist tərəfindən açıq və eləcə də gizli şəkildə aparıla bilər. Lakin ikincini həyata keçirərkən mənəvi və etik normalar, gözlənilməlidir. Həm də "gizli" deyərkən, bu sözün birbaşa mənasından çox jurnalistin müşahidə apararkən öz qeyd dəftərçəsi ilə yeri gəldi-gəlmədi ortada dolaşaraq yersiz və aramsız suallar verməsi demək deyil. Bundan əlavə elə hallar var ki, bu zaman açıq müşahidə aparmaq arzuolunmazdır. Deyək ki, jurnalist xəstəxananın aparıcı cərrahları haqda reportaj hazırlamalıdır. Bu zaman onun cərrahiyyə otağında açıq-aşkar iştirak etməsi prosesin gedişinə mane ola bilər. Ona görə də belə olan halda jurnalist gizli müşahidə aparmalı və ya ağ xalat geyərək həkim briqadasına mane olmamaq, qəhrəmanlarının fəaliyyətini daha yaxından izləmək üçün onların sırasına qaynayıb qarışmalıdır. Digər bir halda cəbhə bölgəsindən, qaynar nöqtələrdən reportaj hazırlayan jurnalist yaxşı olar ki, belə hallarda maskalanmaq üçün istifadə olunan səhra geyimindən, zirehli gödəkçə və dəbilqədən istifadə etsin. Bu, onun özünü qəhrəmanları ilə bir sırada hiss etməsi, hər şeydən əvvəlsə, öz təhlükəsizliyi üçün vacibdir. Jurnalistikada müşahidəni inkar edən situasiyalar da mövcuddur. Məsələn, jurnalist məhkəmənin qərarı olmadan istintaq işinin gedişatına müdaxilə edə bilməz.

Sosial informasiya mənbələrinin çoxluğu, rəngarəngliyi jurnalist yaradıcılığının keyfiyyətini, səviyyəsini yüksəldən amillərdəndir. Müşahidə ilə yanaşı həqiqi faktları özündə əks etdirən sənəd və sübutların olması da jurnalistin işinin keyfiyyətində mühüm rol oynayır. Müxtəlif sənədlər – dövlət orqanlarının qərar və sərəncamları, statistik məlumatlar, maliyyə hesabları, ərizə, şikayət və sair jurnalistin peşəkar fəaliyyətini təmin edən, onun faktları analiz edərək düzgün nəticəyə gəlməsinə kömək edən mühüm faktorlardandır. Sənədlərlə işləmək bacarığı jurnalsit peşəkarlığının mühüm elementidir. Jurnalistin öz kartotekası, təəssürat və söhbətlərin qeydi aparılan dəftərçəsi, müxtəlif fakt və dəlillərlə zəngin arxivi olmalıdır. Sənəd və faktlarla işləyərkən jurnalist əsil həqiqəti üzə çıxarmaq üçün analitik təhlil aparmaq imkanı əldə edir.

Mövzu üzərində işləyərkən həqiqəti üzə çıxarmaq üçün analiz prosesindən çox şey asılıdır. Analiz zamanı jurnalist "Nəyi, nə dərəcədə fərqləndirməli? Hansı ardıcıllıqla?" suallarına cavab tapır. Hadisə və faktların analiz olunması nəticəsində jurnalist ümumiləşdirmə edərək mövqeyini ortaya çıxarır. Ümumiləşdirmə apararkən jurnalistin ictimai və vətəndaş mövqeyi, eləcə də düşüncə tərzi və yaradıcılıq yetkinliyi üzə çıxır. Ümumiləşdirmə isə çox vaxt müqayisələrin köməyi ilə aparılır. Bu zaman yalnız faktlar, məlumat və rəqəmlər deyil, onların siyasi, ideoloji mənası, mahiyyəti, əhəmiyyəti də üzləşdirilir, saf-çürük olunur. Eləcə də jurnalist çox vaxt obyektləri fərdi əlamət və xüsusiyyətlərinə görə müqayisə edir. Müqayisə əldə olunan məlumatların analitik təhlilini aparmaq üçün jurnalistikada istifadə olunan əlverişli metodlardandır. Ümumiləşdirmə, analiz, müqayisə bir-biri ilə sıx bağlı olmaqla mükəmməl yaradıcı məhsulun ortaya çıxarılmasında mühüm rolu olan amillərdəndir. Bu üsul və metodları, qazanılan bilikləri təcrübədə reallaşdırmaq bacarığı jurnalistin yaradıcı potensialının, peşəkarlığının göstəricisinə çevrilir.

**Jurnalistika** sosial təbiəti, ictimai-siyasi təyinatı, yaradıcı özünəməxsusluğu etibarilə ünsiyyət sənətidir. Jurnalist daim ünsiyyətlə müşayiət olunan hadisə və proseslərin mərkəzində olmaqla, digər peşə sahibləri ilə daha çox ünsiyyət saxlamalı olur. Fəal, səmimi ünsiyyət qurmaq bacarığı jurnalistin peşə bacarığının yüksəlməsini təmin edir, onun yaradıcı qabiliyyətini artırır. Ünsiyyətin məzmun və istiqaməti müxtəlif olur. Belə ki, hər bir insanın öz ünsiyyət manerası, özünəməxsus xüsusiyyətləri var. Məsələn, işgüzar görüşlərdə qəhrəman çox vaxt sosial şəraitə uyğun olaraq özünü ciddi, bir qədər də qapalı, müəyyən fəaliyyət sahəsinin rəsmi nümayəndəsi kimi aparmaq məcburiyyətindədir. İşgüzar ünsiyyət zamanı fərdin sosial idarəetmədə yeri, xidməti və ictimai mövqeyi əks olunur. Bu cür ünsiyyət əsasən müəyyən ictimai-siyasi proses və hadisələrə aydınlıq gətirmək üçün əvvəlcədən planlaşdırılır və rəsmi xarakter daşıyır. Bu zaman

şəxsi keyfiyyət-lər, portret cizgilər ikinci plana keçir. Ümumiyyətlə, ünsiyyət prosesi lazımi informasiyanı əldə etmək üçün mühüm bir vasitədir. Qəhrəmanı ilə üzbəüz söhbət etmək və ya telefonla əlaqə saxlamaq, qısa, ani sorğu, ya da geniş söhbətlər, fərdi, eləcə də qrup şəklində olan müsahibələr, öncədən hazırlanmış suallar əsasında müsahibələr aparmaq jurnalistə haqqında yazmağa qalxdığı mövzunu, obyekti daha dərindən öyrənib incələməyə, düzgün nəticələr çıxararaq tutarlı, oxunaqlı material ortaya çıxarmağa imkan verir. Mətbuat aləmi o qədər zəngin və rəngarəngdir ki, sualların qoyuluşu və söhbətin aparılması üçün xüsusi qaydalar müəyyənləşdirmək çox çətindir. Amma buna baxmayaraq müəyyən qaydalar var ki, jurnalist onlara əməl etsə, söhbətlər və araya-ərsəyə gətirilən materiallar da mükəmməl, maraqlı və keyfiyyətli olar. İlk növbədə sual çox sadə, ənənəvi, basmaqəlib, ümumiləşdirilmiş olmamalıdır. Məsələn, bir müəssisənin fəaliyyəti haqqında material hazırlayarkən onun rəhbərindən və ya fəhlələrindən "İşlər necə gedir?, deyə soruşmaq adekvat olaraq çox bəsit də cavablandırırlar: – "Yaxşıdır" və ya "Normaldır."Amma bu zaman tutaq ki, "Siz bazar iqtisadiyyatının yüksək templə inkişafı, inflyasiya getdiyi bir şəraitdə müəssisənin iş ritmini necə qoruyub saxlaya bilirsiniz?"– deyə soruşularsa, sualın bu cür qoyuluşu həmsöhbətdə öz işindən geniş və səmimi danışmağa maraq oyadar. Jurnalist haqqında yazdığı sahənin insanına onu söhbətə isnişdirən suallar verməlidir.

Jurnalist, həmsöhbətinə təkcə onun ictimai mövqeyi, rəsmi statusu ilə bağlı suallar verməklə kifayətlənməməli, onu fərdi xüsusiyyətlərini, insani keyfiyyətlərini əks etdirən suallarla da həvəsləndirməlidir. Məsələn, məşhur bir aktyoru səmimi söhbətə çəkmək üçün onun keçmişindən maraqlı fraqment, əhvalat ortaya atmaq olar. Ola bilsin ki, o, futbol azarkeşidir və nə vaxtsa idmana böyük maraq göstərib, həm də məşğul olub. Onda söhbətə belə başlamaq daha məqsədəuyğundur. "İdmana olan hədsiz marağınız belə Sizi teatrdan uzaq sala bilməyib. Səbəb nədir, bilmək olar?" Bu zaman həmsöhbətiniz keçmiş xatirələrini vərəqləyərəq sizinlə daha səmimi olar və onun şəxsi keyfiyyətlərini, xarakterik xüsusiyyətlərini, maraqlı portret cizgilərini daha dəqiq üzə çıxara bilərsiniz. Digər tərəfdən jurnalist həmsöhbətinin xarakterini, əhval-ruhiyyəsini nəzərə alaraq onun üçün lazımi atmosferi təmin etməli, səmimi şərait yaratmalıdır. Jurnalist yorğun və narahat olsa belə bunu həmsöhbətinə, ünsiyyətdə olduğu auditoriyaya hiss etdirməməlidir. Suallar isə həmsöhbəti düşündürməli, onun xatirələrini oyatmalı, istiqamətləndirməlidir. Söhbət mübahisəli anlarla müşayiət olunaraq diskussiya xarakterli olmalıdır. Söhbət zamanı ünsiyyətin qarşılıqlı, dialoq şəklində olması çox vacibdir. Jurnalist təkcə sualı sual xatirinə verməməli, səbr və diqqətlə dinləməyi bacarmalı, bununla yanaşı söhbəti idarə etməyi də unutmamalıdır. Dinləmək bacarığı susaraq qulaq asmaqdan, zahiri diqqət imitasiya etməkdən ibarət deyil. Jurnalist diqqətlə qulaq asarkən həmsöhbətini heyrət, həyəcan bildirən qısa müdaxilələrlə həvəsləndirməlidir.("Aha!.." "Maraqlıdır!.." "Belə də olur?.." və sair) Dinləmək bacarığı, hər şeydən əvvəl, düzgün başa düşmək, deyilənləri doğru, dürüst qiymətləndirmək, söhbətin ana fikrini tutaraq onu lazım olan səmtə yönləndirməkdən ibarətdir. Söhbət zamanı müxtəlif tipli suallardan – açıq və ya gizli, birbaşa və dolayı, şəxsi və rəsmi, əsas və sınaq üçün verilən suallardan ustalıqla istifadə etməkdən çox şey asılıdır. Qeyri-adi məzmunlu, düşündürücü, bir sözlə, samballı suallar jurnalistin həmsöhbəti ilə ünsiyyətini səmərəli və məzmunlu edir. Bəzən gözlənilməz suala verilən səhf cavab belə quru, basmaqəlib suala verilən cavablardan çox məna yükü daşıyır.

Bütün qeyd olunan qaydalar və normalar jurnalistin fəaliyyətini tənzimləyən amillərdir. Bu qaydalara əməl etmək şərti ilə, öz işinə yaradıcı yanaşmaqla illərin təcrübəsi sayəsində əsil peşəkarlığa nail olmaq mümkündür.

# XALQIMIZIN MİLLİ MENTALİTETİ VƏ ORDUDA GƏNCLƏRİN HƏRBİ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİ

**Polkovnik-leytenant Şahin XANKİŞİYEV**

***Hər bir xalqın özünəməxsus adət-ənənəsi, milli mentaliteti və tarix boyu həmin xalqın azadlığı uğrunda mübarizə aparan qəhrəmanları olmuşdur.***

Azərbaycan xalqının çoxəsrlik tarixi və qəhrəmanlıq nümunəsi ilə dolu olan yazılı və şifahi ədəbiyyatı vardır.

Müasir dövrümüzdə texnikanın sürətlə inkişafı ailədə, cəmiyyətdə yeniyetmənin tərbiyəsində onun müsbət cəhətləri ilə yanaşı, mənfi təsirlərini də nəzərə alsaq gənclərin tərbiyəsini milli ruhda, milli mentalitetimizə uyğun istiqamətləndirilməsi və bu işin ardıcıl olaraq ailədə, bağçada, məktəbdə, institutda, cəmiyyətdə və orduda fasiləsiz olaraq aparılmasına nail olunmalıdır.

Orduda bu iş tək şəxsi heyətlə iş üzrə zabitlər tərəfindən deyil, bütün komandir-rəis heyəti tərəfindən mütəmadi olaraq aparılmalı və özləri şəxsi heyətə bir nümunə olmalıdırlar.

Azərbaycan xalqı ağır tale yaşayan xalqdır. Onun düşmənləri, üzləşdiyi bəlalar çox olub. Ölkəni qorumaq zərurəti erməni vəhşiliyi səbəbindən qarşımızda həmişə aktual məsələ kimi dayanıb. Bu yükün ağırlığı isə həmişə milli-azadlıq hərəkatlarında və ermənilərlə Qarabağ savaşlarında da belə olub. Azərbaycan gəncliyi həmişə mübariz olub, proseslərin önündə gedib, Vətənin müdafiəsində ön sıralarda vuruşub.

Gənclərin milli və hərbi vətənpərvərlik tərbiyəsi ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilməsi üçün hazırlanmış konsepsiya layihəsində respublikamızın suverenliyinin qurulması, ərazi bütövlüyünün təmin olunması, dövlətin siyasətinə inam, prezidentə sədaqət, Vətənə və torpağa məhəbbət, düşmənə nifrət hissinin gücləndirməsi hərbi və tarixi ənənələrə sadiqlik, onların öyrənilməsinə güclü maraq və s. bu kimi prinsiplər böyük əhəmiyyət kəsb edir. Ümummilli liderimiz gənclərimizə tariximizi, dilimizi, milli dəyərlərimizi, dinimizi, adət və ənənələrimizi yaxşı bilməyi onları mənəvi əsasa çevirməyi tövsiyə edərək demişdir: “Vətənpərvərlik böyük bir məfhumdur. Bu sadəcə orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq–budur vətənpərvərlik”.

Hərbi vətənpərvərlik konsepsiyasının əsasını ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan gənclərinin milli hərbi vətənpərvərlik tərbiyəsi ilə qarşıya qoyduğu və müəyyən etdiyi vəzifələr təşkil edir. Bu konsepsiya 3 əsas mərhələdən ibarətdir: Gənclərin ordu sıralarına hazırlanması; ordu sıralarında xidmət; ordudan tərxis olunma.

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi, suverenliyi uğrunda gedən döyüşlərdə qəhrəmanlıqlar göstərərək şəhid olanların xatirəsini ehtiramla yad edərək demişdir: “Onların qəhrəmanlıq nümunələri bizim qəlbimizdə əbədi yaşayacaqdır və ordumuzun bugünkü əsgərləri, gələcək döyüşçülər üçün nümunə, örnək olacaqdır. Onlar öz qəhrəmanlıqları ilə özlərini əbədiləşdiriblər. Ordumuz məhz həmin qəhrəmanlıq nümunələri əsasında formalaşır, qurulur, böyüyür, artıq bu gün Azərbaycanın dövlət müstəqilliyini, ölkəmizin hüdudlarını, ərazisini qoruya bilən qüdrətli bir orduya çevrilibdir”.

İndi ölkə gəncliyi Prezident İlham Əliyevin timsalında öz liderini görür və ondan nümunə götürür. Dövlət başçısı İlham Əliyevin uğurları Azər-



baycanda gəncliyə dövlət qayğısının real bəhrəsidir.

Bu gün Azərbaycan ordusunun hər bir əsgər və zabiti möhtərəm prezidentimiz – Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi anda və nizamnamələrə sadiq qalaraq respublikamızın ərazi bütövlüyünün bərpasına, torpaqlarımızı işğalçılardan azad etməyə hər an hazırdır.

### ŞƏXSİ HEYƏTİN TƏRBİYƏSİNDƏ ƏCDADLARIN ATA-BABALARIN QƏHRƏMANLIQ ƏNƏNƏLƏRİNİN ROLU

Bu gün biz şəxsi heyətin ata-babalarımızın qəhrəmanlıq ənənələri ruhunda tərbiyə olunması dedikdə ilk növbədə yadımıza şifahi xalq ədəbiyyatımız olan "Kitabi-Dədə Qorqud" dastanının qəhrəmanları, Koroğlu, Babək, Cavanşir, Şah İsmayıl Xətai kimi xalq qəhrəmanları, bundan başqa Birinci Qarabağ müharibəsinin qəhrəmanları, müasir dövrümüzün qəhrəmanları yada düşür. Bundan əlavə xalqımızın kişilərlə yanaşı, əlinə qılınc götürərək vuruşan və öz ağlının hikməti ilə gücün qabağına çıxan Sara xatun, Nüşabə və Salatın Əsgərova kimi qadınları və digərlərini yaddan çıxartmaq olmaz.

Şəxsi heyətin ata-babaların, əjdadların qəhrəmanlıq ruhunda tərbiyə olunmasında ən mənalı və geniş yeri "Kitabi-Dədə Qorqud" dastanında göstərilən qəhrəmanlıq nümunələri tutur. Belə ki, həmin dastanda adları çəkilən qəhrəmanlar Bamsı Beyrək, Dəli Domrul, Qazan xan və digərləri həmişə xalqın ağır günündə düşmənə qarşı mərdliklə vuruşaraq öz elini, obasını düşməndən qorumuşlar. Bütün bunları şəxsi heyətin tərbiyyəsində müasir günümüzlə əlaqələndirməli və gənclərimizi düşmənə qarşı onlar kimi amansız və xalqın qeydinə qalan bir gənc kimi yetişdirməliyik.

"Kitabi-Dədə Qorqud" dastanında vətənpərvərlik, yurda bağlılıq aparıcı xətt təşkil edir. Dədə Qorqud qopuz çalıb söz söyləyəndə igidlərə qəhrəmanlıq arzulamaqla, Vətəni sevməyi, onun keşiyində dayanmağı məsləhət görərdi. Bamsı Beyrək 16 il əsirlikdə qalsa da, doğma elini yaddan çıxartmamışdı, Vətəni, ata-anası, nişanlısı üçün darıxmışdı. Düşmən namərdcəsinə basqın edib elini-obasını yağmalayanda Salur Qazan Vətənin müdafiəsinə qalxdı. Oğuz ərənləri özlərini döyüşlərdə onun köməyinə yetirər – çal qılıncını Salur Qazan, yetdim– deyərdilər.

"Kitabi-Dədə Qorqud" dastanının maraqlı cəhətlərindən biri də ondan ibarətdir ki, qəhrəman sinfi mənsubiyyətinə görə deyil, göstərdiyi igidliyinə görə qiymətləndirilir.

Qalın Oğuz elində düşmənə qarşı mübarizədə zəiflik göstərmək, döyüşdən qaçmaq pis qiymətləndirilirdi. Uruzun döyüş meydanından qaçdığını güman edən Qazan xan olduqca qəzəblənir, "Elə isə Tanrı mənə kor oğul vermişdir! Gedək anasının yanından alaq, qılıncla parçalayıb altı bölük edək, altı yolun ayrıcına ataq! Qoy bir daha kimsə bundan sonra dar yerdə yoldaş qoyub qaçmasın!" söyləmişdir. Ancaq oğlunun döyüşdən qaçmadığını, "doxsan tümən gənc oğuz ardımca gəlsin, oğlan dustaqdır, bilin"- deyə Uru-

zun köməyinə tələsmişdi (burda Babəkin də oğluna qarşı eyni mövqedə olduğunu xatırlayırıq).

Oğuz igidləri öz dövrünün qəhrəmanları idilər, yağıya qarşı çıxanda mərd-mərdanə çıxar, cəngavər kimi vuruşardılar. Uşun qoca oğlu Səgrək qardaşı Əgrəkin düşmən qalasında əsir olduğunu eşidib, "qardaşsız Oğuzda bir gün də dayanmaram" deyərək, Qara Təkurun üstünə təkcə gedir, qardaşını əsirlikdən qurtarır.

Digər bir xalq qəhrəmanı Koroğlunun xalqın mərd oğullarını öz ətrafına yığaraq düşmənə qarşı amansızlıqla mübarizə aparmasını şəxsi heyətə daim tərbiyə işində çatdırmalı və geniş təbliğ olunmalıdır.

Digər bir xalq qəhrəmanımız Babək ərəb xilafətinə qarşı igidliklə vuruşaraq xəlifənin 5 nizami ordusunu darmadağın etmişdir. Burda şəxsi heyətin tərbiyəsində əsas diqqətini ona yönəldirik ki, o, xilafət ordusunun qarşısına kiçik bir qüvvə ilə çıxmasına baxmayaraq ona döyüşlərdə gücü doğma torpaq, xalqın birliyi və apardığı ədalətli mübarizə verirdi.

Şah İsmayıl hələ kiçik yaşlarından hakimiyyətə gələrək böyük bir dövlət qurmuş öz xalqının qeydinə qalmışdır. Onun qəhrəmanlığından şəxsi heyətin tərbiyəsində istifadə edərkən ən əsas diqqəti Çaldıran döyüşündə Şah İsmayıl Xətainin döyüşdə amansız olmasını və bir qılınc zərbəsi ilə dəmir topun lüləsini kəsməsi düşmən ordusunda vahimə yaratmasını qeyd etmək lazımdır.

1991-1993- cü illərin ortalarına qədər Azərbaycanın ordu quruculuğunda buraxılan səhvlərə baxmayaraq silahlı qüvvələrimizin şəxsi heyətinin böyük əksəriyyəti 1992-1994-cü illərdə Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə igidliklə vuruşmuşlar. Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş mayor Rasim İbrahimov, mayor Əliyar Əliyev, baş leytenant Elşad Əhədov, çavuş Etibar İsmayılov, əsgər Fərhad Hümbətov, "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmuş baş leytenant Elxan Yusifov, əsgər Şamil Cəbrayılov və yüzlərlə digər Azərbaycan vətəndaşı döyüş meydanlarında əsl qəhrəmanlıqlar göstərmişlər.

Mayor Rasim İbrahimov Füzuli istiqamətində döyüşən taborlardan birinin komandiri idi. O, 1992-ci ildə döyüş zamanı bir neçə əsgər ilə düşmən mühasirəsinə düşdü. Kiçik bir qrupu əsir alacaqlarına arxayın olan ermənilər onlarla təslim olmağı təklif etdilər. Döyüşçülərimiz sayca özlərindən dəfələrlə çox olan düşmənə qarşı son patronlarına qədər vuruşaraq onlara ermənini məhv etdilər. Ancaq bu qeyri-bərabər döyüşdə əsgərlərimiz də şəhid oldular. Ermənilər Rasimin tək qaldığını görərək, ona təslim olmağı təklif etmişlər. Rasim isə "Azərbaycan zabiti əsir düşmür" sözləri ilə sonuncu qumbarasını partladaraq həm özü həlak olmuş, həm də bir neçə düşmən əsgərini məhv etmişdir.

Çavuş Etibar İsmayılov 1994-cü il yanvarın 4-də Xocavənd rayonunun "Nərgiztəpə" yüksəkliyi uğrunda gedən döyüşdə şəxsi igidlik göstərərək düşmən səngərinə birinci daxil olmuş və əsgərlərimizin irəliləməsi üçün şərait yaratmışdı. Geri çəkilən düşmən yeni qüvvə toplayaraq tankların köməyi ilə əks-hücuma keçmiş və döyüşçülərimizin mühasirəyə düşmək təhlükəsi yaranmışdı. Düşmən tankının səngərə yaxınlaşdığını görən Etibar axırıncı qumbara ilə düşmən tankının altına atılaraq özünü və tankı məhv etməklə öz yoldaşlarını mühasirədən qurtarmışdır.

İmişli rayonunda anadan olmuş Şamil Cəbrayılov 1993-cü ilin dekabr ayında hərbi xidmətə çağrılmışdır. Qısa bir müddətdə öz silahdan bacarıqla istifadə etməyi öyrənən Şamil dekabrın 13-də zirehli texnikanın dəstəyi ilə hücuma keçən düşmənlə döyüşdə soyuqqanlılıqla ermənilərin 2 tankını məhv etmişdir.

Azərbaycan xalqının müharibələr tarixində istər ağıl, istər qələm, istərsə də silahla davranmağı bacaran, qeyrətli, xalqını sevən, onun müdafiəsinə qalxan qəhrəman qadınları olmuşdur. Azərbaycan sərkərdəsi Uzun Həsənin anası Azərbaycanın ilk diplomat xanımı Sara xatun öz ağıl və uzaq görən siyasəti ilə düşməni bu torpaqlardan uzaqlaşdırmışdır. Bərdə hakimi Nüşabənin ağlı və qəhrəmanlığı qarşısında dahi sərkərdə Makedoniyalı İsgəndər baş əymişdir. Azərbaycan Respublikasının Milli Qəhrəmanı Salatın Əsgərova öz vəzifə borcunu yerinə yetirərkən heç nədən qorxmayaraq döyüşün ən qızğın yerində olması hər bir insana örnək olmalıdır.

# İNTİHAR VƏ ÖZÜNƏQƏSD HADİSƏLƏRİNİ TÖRƏDƏN SƏBƏBLƏR VƏ ONLARIN PROFİLAKTİKASI

**Polkovnik-leytenant Kamran NƏSİBOV**

***İntihar hallarının sayının artması hazırda bir çox ölkələrdə psixoloq və sosioloqların diqqət mərkəzindədir. Hətta inkişaf etmiş ölkələrin əksəriyyətində onların əhəmiyyətli dərəcədə çoxalması müşahidə olunur. İntihar nəticəsində müxtəlif yaşlı, ixtisaslı, müxtəlif təhsil və mədəniyyət səviyyəsinə malik insanlar həyatla vidalaşırlar. Onların əksəriyyəti cəmiyyətə xeyir verməyə qadir insanlardır.***

Tədqiqatlar göstərir ki, intihar daha çox 16-29 və 40-50 yaş aralarındakı dövrlərdə baş verir. Problemin kəskinliyi hərbi qulluqçular arasında da intihar hallarının qarşısını almaq üçün tədbirlər işlənib hazırlanmasını tələb edir, çünki bu bəladan əsasən xidmət etməyə qadir olan sağlam, gənc insanlar əziyyət çəkirlər.

Silahlı qüvvələr üçün bu problemin aktuallığı onunla şərtlənir ki, intihar halları şəxsi heyətə mənəvi cəhətdən dağıdıcı təsir göstərir, hərbi kollektivlərdə mənəvi iqlimi korlayır və onların döyüş hazırlığını aşağı salır. Digər tərəfdən, hərbi qulluqçuların intihar etməsi onların valideynlərində və bütün cəmiyyətdə orduya qarşı neqativ münasibətlərin yaranmasına səbəb olur, silahlı qüvvələrin nüfuzuna xələl gətirir.

Çox təəssüf ki, bəzi hərbi hissələrdə bu kəskin problemə səthi yanaşılır, adi hal kimi baxılır və onu yalnız psixi cəhətdən xəstə adamlarla bağlayırlar. Lakin tədqiqatçılar sübut etmişlər ki, bəzi hallarda öz həyatına qəsd edənlər psixi cəhətdən sağlam insanlardır və onlara vaxtında kömək göstərilsə həyatlarını xilas etmək heç bir problem doğurmaz.

Elmi ədəbiyyatlarda intihar əvəzinə çox vaxt suisidal davranış termini işlədilir və mənası – "özümə məqsədli şəkildə qəsd edirəm" deməkdir.



Hərbi qulluqçuların suisidal davranışı – müxtəlif növ sosial, psixoloji, psixo-fiziki və sosial-mədəni amillərin mürəkkəb qarşılıqlı əlaqəsinin nəticəsidir. Hərbi xidmətə başlayan gənclər hərbi xidmətin özünəməxsus xüsusiyyətlərindən irəli gələn məhdudiyyətlərlə, hərbi intizamın ciddi çərçivələri ilə qarşılaşırlar. Ordu həyatında

yaranan çətinliklərin adekvat həllinin tapılması isə bəzi hərbi qulluqçuların bu addımı atması ilə nəticələnir.

### SUİSİDAL HADİSƏLƏRİN SƏBƏBLƏRİ

Hər hansı bir mənfi xarakterli sosial hadisəni doğuran səbəbləri bilmədən onun qarşısını almaq qeyri-mümkündür. Lakin bu səbəbləri aşkara çıxarmaq o qədər də asan deyil. Çox vaxt bölmələrdə intiharın «biabırçı» fakt olması barədə ictimai rəy yaradılır ki, bu da intihar hadisələrinin əsl səbəblərini gizlətmək, hətta özünəqəsd faktını bədbəxt hadisə kimi qələmə vermək cəhdi ilə müşayiət olunur.

İntihar hallarının qarşısını almaq üçün hər hansı intihar hadisəsinin baş verdiyi hərbi kollektivdəki mənəvi ab-hava ciddi təhlil olunmalıdır. İntihar edənin statusunun, psixi xüsusiyyətlərinin, temperamentinin, xarakterinin öyrənilməsi də mühüm əhəmiyyət kəsb edir.

İntihar faktları üzrə təhqiqat materiallarının, intihar edənin xəstəlik tarixinin öyrənilməsi, onların özləri və xidmət yoldaşları ilə söhbətlərin aparılması intiharın motiv və səbəblərini qruplara bölməyə imkan verir:

**I. Xidmət fəaliyyət sahəsi ilə bağlı konfliktlər, o cümlədən:**

– hərbi xidmətin çətinlikləri ilə bağlı konfliktlər;
– xidmətin müxtəlif mərhələlərində olan hərbi qulluqçular arasında konfliktlər;
– rəislər və tabelikdə olanlar arasında konfliktlər.

**II. Şəxsi-ailə konfliktləri, o cümlədən:**

– əbədi «məhəbbət» simptomu, sevdiyi qızın (həyat yoldaşının) xəyanəti;
– boşanma;
– yaxın adamların xəstəliyi, ölümü;
– cinsi zəiflik.

**III. Antisosial davranışlarla bağlı konfliktlər, o cümlədən:**

– cinayət məsuliyyətindən qorxmaq;
– öz neqativ hərəkətlərinə görə biabır olmaq qorxusu.

**IV. Sağlamlıq vəziyyəti, o cümlədən:**

– psixi xəstəliklər;
– somatik (bədən) xəstəlikləri;
– fiziki çatışmazlıqlar.

**V. Maddi-məişət xarakterli motivlər və digər motivlər.**

İntiharların, intihara cəhdlərin səbəblərinin təhlili göstərir ki, əksər hallarda onlar xidməti və şəxsi-ailə konfliktləri zəminində baş verir. Hərbi qulluqçular arasında bu cür konfliktlərin yaranması yaşadıqları sosial mühitin şəraitindən və onların şəxsiyyətini xarakterizə edən keyfiyyətlərindən asılıdır.

Bütün bunlar şəxsi heyətə daim diqqət yetirməyi, onu dərindən öyrənməyi, valideynlərlə, hərbi hissənin həkimləri ilə daim əlaqə saxlamağı, hərbi qulluqçuların nizamnamələrin tələblərinə uyğun həyat və fəaliyyətlərini təmin etməyi zərurətə çevirir. Hər bir hərbi qulluqçunun fərdi xüsusiyyətlərini bilmək lazımdır.

İnsanları tanımaq bir-biri ilə qarşılıqlı bağlılığı olan 2 yolla əldə edilir:

1. Şəxsi heyətin xüsusi öyrənilməsi, xidmət və hərbi qulluqçuların davranışı barədə müxtəlif məlumatların məqsədyönlü şəkildə yığılması və təhlilidir. Bu, adətən bölmənin yeni təyin edilmiş komandir tərəfindən qəbulu, hərbi hissəyə gənc əsgərlərin daxil olması, habelə komandir öz qarşısına şəxsi heyət barədə müəyyən qənaətlərə gəlmək məqsədi qoyduğu digər hallarla bağlıdır.
2. Komandirin, onun şəxsi heyətlə iş üzrə müavininin tabelikdə olanlarla gündəlik münasibətləri, onların fəaliyyətinin bütün sahələrinə diqqət yetirmələri ilə əldə edilir. Hərbi qulluqçunun gündəlik həyatın dinamikasını öyrənməsi xarakteri ona mənəvi və işgüzar keyfiyyətləri, mənəvi dünyası, bu və ya digər konfliktli situasiyaya reaksiyası barədə müəyyən qənaətlərə gəlməyə imkan verir.

Lakin unutmaq olmaz ki, intiharın qarşısının alınması vəzifəsi yalnız buna cəhd edənlərin aşkara çıxarılması ilə məhdudlaşmır. Hərbi qulluqçular arasında intihar hallarının qarşısının alınması bu halları doğuran səbəblərin aradan qaldırılmasına yönəldilmiş tədbirlər sisteminin həyata keçirilməsi ilə təmin olunmalıdır. Bu məna-

da gündəlik fəaliyyətin, təlim və xidmətin, asudə vaxtda mədəni-maarif və kütləvi idman tədbirlərinin təşkil edilməsi mühüm əhəmiyyətə malikdir.

Suisidal hərəkətlərin profilaktikası üçün hərbi qulluqçularla məşğələlər arasındakı fasilələrdə, məşğələdən sonra kazarmada, idman və mədəni-kütləvi tədbirlər keçirilən vaxtlarda daimi ünsiyyətdə olmaq mühüm əhəmiyyət kəsb edir.

Bu tip ünsiyyətin çərçivəsini genişləndirmək, rəsmi, işgüzar danışıq tonundan imtina etmək, hərbçilərdə öz qüvvə və bacarıqlarına inam, gələcəyə nikbinlik hissləri aşılamaq məqsədəuyğundur. Böhran vəziyyətində olan əsgər ilə adi bir ürək söhbəti intihar hərəkətinin qarşısının alınması baxımından əhəmiyyətli rol oynaya bilər.

Etiraf edək ki, komandirlərin, tərbiyəvi iş üzrə zabitlərin mənəvi laqeydliyi, qeyri-həssaslığı bir çox hallarda hərbi qulluqçuların intihar etməsinin əsas səbəbidir.

İntihar hadisələrinin qarşısının alınmasına ilk növbədə tərbiyə işinin gücləndirilməsi ilə nail olmaq lazımdır. Tərbiyəvi işi təşkil edərkən insanların milli, vəzifə, çağırış xüsusiyyətlərindən, çatışmazlıqlarından asılı olmayaraq, onların hamısına hörmətlə yanaşmaq zəruridir. Komandirlərin, onların şəxsi heyətlə iş üzrə müavinlərinin ən mühüm vəzifələrindən biri, hərbi qulluqçularda öz sosial müdafəsinə, həyatın çətinliklərini dəf etmək imkanlarına inam yaratmaqdır. Hərbi qulluqçuların mənəvi tərbiyəsi, hərbi kollektivlərdə mənəvi iqlimin saflaşdırılması, kollektivdaxili münasibətlərdə gərginlik mənbələrinin zabitlər tərəfindən vaxtında aşkar edilərək zərərsizləşdirilməsi intihar hadisələrinin baş verməsi yolunda ən etibarlı maneədir. Hərbi qulluqçuların hüquq tərbiyəsi, onlara “kazarma xuliqanlarından” müdafiə üzrə hüquq və imkanların izah edilməsi, ailə problemlərinin həllində məsləhətlər verilməsi özünəqəsd hallarının qarşısının alınmasında az rol oynamır.

Bu işin ən təsirli formalarından hüquqşünasların, prokurorluq və digər hüquq mühafizə orqanları zabitlərinin fərdi və qrup halında söhbətlərini, hüquq saatlarını, əsgərləri fiziki və mənəvi cəhətdən təhqir etmiş hərbi qulluqçular üzərində açıq məhkəmə proseslərini misal göstərmək olar.

### İNTIHAR HALLARININ QARŞISININ ALINMASININ YOLLARI

Özünəqəsd hallarının qarşısının alınmasında hərbi nizam-intizamın düzgün təhlili, qarovul xidmətinin təşkilinə, silahın mühafizəsinə, günün nizam qaydalarına riayət edilməsinə nəzarət mühüm əhəmiyyət kəsb edir.

Hərbi nizam-intizamı təhlil edərkən komandirlər, şəxsi heyətlə iş üzrə zabitlər hərbi intizamın daha çox pozulduğu fəsilləri, ayları, həftənin günlərini, hətta sutkanın vaxtlarını müəyyən etməlidirlər. Təhqiqatlar göstərir ki, intihar halları gecə, axşam və sübh tezdən – insanlar öz fikirləri, hərəkətləri ilə təkbətək qaldıqları vaxtlarda baş verir. Deməli, bu vaxtlarda şəxsi heyət üzərində nəzarət maksimum gücləndirilməlidir.

Əsassız olaraq tez-tez təkrarlanan sıra düzülüşləri, naryadın düzgün bölüşdürülməməsi, hərbi qulluqçunun naryadla həddən artıq yüklənməsi, şənbə və bazar günləri asudə vaxtın məhdudlaşdırılması, qida qəbulunun pis təşkil olunması, sərbəst buraxılışlara çıxmaq hüququnun pozulması və s. süni yaradılan çətinliklər özünəqəsdin mənbəyidir.

İntiharların əsas hissəsi döyüş növbəsində silah tətbiq etməklə yerinə yetirilir. Ona görə də, qarovul və döyüş növbəsinin aparılması üçün hərbi qulluqçuların seçilməsi, onların hər biri ilə fərdi işin aparılması, qarovul heyətinin ruhi-psixoloji durumuna həssas münasibət arzuolunmaz halların qarşısının alınmasının rəhnidir. Silahların mühafizəsi və verilməsi qaydalarına komandirlərin laqeyd münasibəti intihar hallarını doğuran səbəblərdən biridir. Nəzərə almaq lazımdır ki, hərbi qulluqçuların döyüş silahı alması faktının özü psixoloji cəhətdən mühüm məqamdır. Bu hərbi qulluqçunun özünün daha güclü hiss etməsinə, öz iradəsini başqası üzərində diktə etməsinə səbəb olur. Stress, güclü affekt vəziyyətlərində bəzən hərbi qulluqçu öz gücünü və haqlı olduğunu sübut etmək üçün silah tətbiq edir. Odur ki, qarovula ilk dəfə daxil olan hərbi qulluqçuya xüsusi göz qoymaq, onun əhval-ruhiyyəsi ilə maraqlanmaq, silahı özünə və digərlərinə qarşı tət-

biq eləmək imkanları barədə ən xırda eyhamlara diqqət yetirmək zəruridir.

Həyat göstərir ki, insanların intihar barədə qərar qəbul etməsi intiharın tarixən dəyişən sosial mahiyyətindən, yəni konkret kollektivlərdə ona hansı mənanın verilməsindən asılıdır. Bəzi hallarda həqiqi əzabların, xarakter möhkəmliyinin, borc və şərəf anlayışlarının rəmzi kimi təqdim olunur. Ona görə də tabelikdə olanların hansı televiziya proqramlarına, kino seanslarına maraq göstərmələrinin də fərqinə varmaq lazımdır.

Azərbaycan xalqının mentalitetində intihar, özünəqəsd həmişə insanın mənəvi zəifliyi, çətinliklərə təslim olması, ailəsi, qohumları, doğmaları qarşısında böyük günahlara batması kimi dəyərləndirilmişdir. İstər folklor nümunələrində, qəhrəmanlıq dastanlarında, istərsə də yazılı ədəbi mənbələrdə Vətən, torpaq, namus naminə fədakarlıq səbəbləri həmişə aparıcı xarakter daşımış, bu keyfiyyətlər yüksək əxlaqi dəyərlərin kriteriyası kimi tərənnüm edilmişdir. Azərbaycanlılar ən çətin və böhranlı məqamlarda insani ləyaqətlərini itirməmiş, zərurət olduqda öz həyatlarını yalnız milli qeyrətin təntənəsi naminə qurban verərək ölümsüzlüyə qovuşmuşlar.

Həqiqi hərbi xidmət hərbi qulluqçuları arasında nümayişkaranə suisidal davranış geniş yayılmışdır. Bu, ölümə həqiqətən cəhd eləmək niyyəti olmadan intihar cəhdi təsvir etməklə «məni vaxtında xilas edəcəklər» hesabı ilə teatr səhnəsi oynamaqdır.

Bütün bunlar özünə olan itirilmiş diqqəti bərpa etmək, özünə mərhəmət və şəfqət hissi oyatmaq, onu incidənlərdən intiqam almaq məqsədilə təşkil olunur. Əsasən vena damarının kəsilməsi, qeyri-zəhərli vasitələrlə zəhərlənmələr, nadir hallarda isə özünüasma cəhdləri təsvir etməklə həyata keçirilir. Nəzərə almaq lazımdır ki, şantaj xarakterli bu hərəkətlər ehtiyatsızlıq üzündən oyunun həqiqətə çevrilməsi və bədbəxt hadisə ilə nəticələnə bilər. Hərəkətin nümayiş kimi qiymətləndirilməsi bütün şəraitlərdə zabitlərin diqqətindən kənarda qalmamalıdır. Çünki əksər intihara cəhd hərəkətlərinin əsasında şüurlu, yaxud şüursuz şəkildə bu paradoksal üsulla ətrafdakılardan kömək almaq istəyi dayanır.

Çox yaxşı haldır ki, son vaxtlar hərbi qulluqçuların mənəvi-psixoloji və hüquq tərbiyəsi sisteminin təkmilləşdirilməsi onlarla aparılan söhbətlərin daha aktual problemlərə yönəldilməsi, intiharın mənəvi prinsiplər baxımından insanın şəxsiyyət bütövlüyünə qarşı çevrilməsi ideyasının qabardılması ilə müşayiət olunur. Gələcəkdə bu istiqamətdə birgə fəaliyyətin forma və metodları heç şübhəsiz ki, daha da təkmilləşdiriləcək və intihar hallarına qarşı mübarizədə daha diqqətəlayiq nəticələr əldə ediləcəkdir.

# QƏLBLƏRƏ YOL TAPAN HƏRBİ ŞÖHRƏT BAYRAMI

**(«Azərbaycan Ordusu» qəzeti səhifələrindən)**

## QUSARDA AZƏRBAYCANIN MİLLİ QƏHRƏMANI FƏXRƏDDİN MUSAYEVİN XATİRƏSİ EHTIRAMLA YAD EDİLİB

Azərbaycan Respublikası Müdafiə Nazirliyi Qusar rayon İcra Hakimiyyəti ilə birlikdə Azərbaycanın Milli Qəhrəmanı şəhid Fəxrəddin Musayevin xatirəsinə həsr olunmuş hərbi şöhrət bayramı tədbiri keçirilmişdir. Həmin gün rayonun küçə və meydanları bayraqlarla bəzədilmişdi və əsl bayram təntənəsi hiss edilirdi. Mərasim iştirakçıları əvvəlcə rayonun mərkəzində ucaldılmış ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri qoymuşlar. Daha sonra tədbirin keçiriləcəyi Şövkət Orduxanov adına Qusar şəhər stadionuna gəlmişlər.

"N" hərbi hissəsinin əsgərləri və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən mərasimdə Milli Məclisin sədr müavini Bahar Muradova, Müdafiə Nazirliyinin idarə rəisləri general-mayor Rasim Əliyev, polkovnik Rüfət Əmirov, ehtiyatda olan general-leytenant Yaşar Aydəmirov, Qusar rayon İcra Hakimiyyətinin başçısı Şair Alxasov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Respublika Veteranlar Təşkilatının, Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin, Azərbaycan Əfqanıstan Müharibəsi Veteranları İctimai Birliyinin nümayəndələri iştirak edirdilər.

Mərasimi açıq elan edən Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəis müavini polkovnik Abdulla Qurbani bildirmişdi ki, Azərbaycanın Milli Qəhrəmanı şəhid Fəxrəddin Musayev xalqımızın qəlbinə əbədi yol tapan tək-tək hərbçilərdəndir. O döyüş helikopterini idarə edib. Dəfələrlə Qarabağda gedən hərbi əməliyyatlarda səmadan düşmən mövqelərinə sərrast raket zərbələri endirib və quldurların xeyli canlı qüvvəsini, zirehli texnikasını məhv edib.

Bildirilmişdir ki, baş leytenant Fəxrəddin Musayev 1992-ci il aprelin 11-də Füzuli rayonunda gedən ağır döyüşdə qəhrəmancasına həlak olub. İgid döyüşçü Bakı şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 7 iyun tarixli





Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin Silahlı Qüvvələrimizin döyüş qabiliyyətinin yüksəldilməsini və müasir silahlarla təchiz edilməsi prosesini daim diqqətdə saxladığını qeyd etmişdir. Azərbaycanın çox güclü ordusu olduğunu deyən Bahar xanım əlavə etmişdir ki, ordumuz erməni işğalı altındakı torpaqlarımızı Ali Baş Komandanın əmri ilə azad etməyə hər an hazırdır.

Milli Məclisin sədr müavini özünün də Füzuli rayonunda doğulub boya-başa çatdığını və Milli Qəhrəman Fəxrəddin Musayevin misilsiz igidlik göstərərək məhz Füzulidə şəhidlik zirvəsinə ucaldığından qürur duyduğunu bildirmişdir. Bahar xanım qəhrəmanın xatirəsinə həsr edilmiş hərbi şöhrət bayramının ideya müəllifi polkovnik Abdulla Qurbaniyə təşəkkür etmişdir.

fərmanı ilə Fəxrəddin Musa oğlu Musayev ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Qusar rayonundakı mərkəzi küçələrdən biri Milli

Qəhrəmanın adını daşıyır. Onun vaxtilə yaşadığı binanın önünə barelyefi vurulub.

Azərbaycanın Milli Qəhrəmanı Fəxrəddin Musayev 1957-ci il iyulun 30-da Türkmənistanda hərbçi ailəsində dünyaya göz açıb. Keçmiş sovet ordusu sıralarında Çexoslovakiya respublikasında, daha sonra Rusiyanın Orenburq vilayətində qulluq edib. Onun valideynləri Qusar rayonunun Qican kəndindən olub.

Qusar rayon İcra Hakimiyyətinin başçısı Şair Alxasov mərasimdə çıxış etmişdir, birinci Qarabağ savaşında yüzlərlə qusarlının könüllü döyüşlərdə iştirak etdiyini və 50-dən artıq şəhid verdiklərini bildirmişdir. Bu gün də rayon gənclərinin böyük həvəslə hərbi xidmətə yola düşdüyünü və əksəriyyətinin düşmənlə təmas xəttində xidmət keçdiyini söyləmişdir. Daha sonra rayon rəhbəri demişdir ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında qusarlılar da hamılıqla silaha sarılıb düşməni torpaqlarımızdan qovmağa hazırdırlar.

Milli məclisin sədr müavini Bahar Muradova çıxış edərək dövlətimizin gənclərin hərbi vətənpərvərlik tərbiyəsinə göstərdiyi diqqət və qayğıdan, ümummilli lider Heydər Əliyevin hərbi sahənin inkişafı istiqamətində gördüyü işlərdən danışmışdır. Ümummilli liderin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının

Bədii qiraət ustası Məleykə Alıqızının söylədiyi vətənpərvərlik şeirləri mərasimdə böyük coşquya səbəb olmuşdur. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Mahnı və Rəqs Ansamblının solistləri Ağabala Abdullayev, Sevinc Sarımova, Elçin Məmmədov, Leyla Vahidqızı, Qoşqar Qasımov və müğənni Nigar Rəhimovanın ifaları hər kəsi heyran qoydu. Rəqqaslardan Emil Paşayev, Şəhriyar Cəfərov, Səbinə Qasımova, Roza Rzayeva, Yelena Qrekova və Elnur Nəbiyevin təqdim etdiyi milli rəqslər qusarlıların qəlbinə yol tapmışdır.

Bakı Bələdiyyə Teatrının aktyoru Elxan Rzayevin ifasında Milli Qəhrəman Fəxrəddin Musayevin obrazı canlandırıldı və bu, tamaşaçıların sürəkli alqışlarına səbəb olmuşdur. Qusarlı daha bir şəhid – mayor Telman Haqverdiyevin Murovdağda göstərdiyi qəhrəmanlığın bədii kompozisiyası polkovnik-leytenant Zöhrab İmamquliyevin təqdimatında oldu və tədbir iştirakçıları tərəfindən maraqla qarşılanmışdır.

Mərasimin sonunda qusarlı Qarabağ qazilərinə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından mükafatlar verilmişdir. Həmçinin qusarlı əsgər valideynlərinin cəbhə bölgəsində xidmət edən övladları ilə görüşü yaddaqalan olmuşdur.

**«Konfransın qiyabi mülahizəçisi» silsiləsindən**

**"Hərbi bilik" jurnalı Erməni Araşdırmalar Mərkəzi ilə birgə**

# ERMƏNİ MİLLƏTÇİLİYİNİN YARANMASI

**Siyasi elmlər üzrə fəlsəfə doktoru**
**Qafar MEHDİYEV**




***Erməni millətçi, cərəyan və qruplarının, dünyagörüşünün irqçiliyə çevrilməsi prosesi, əlbəttə, bir günün içində olmamışdır. Belə hesab etmək olar ki, erməni millətçiliyinin əsasını İsrael Ori qoymuşdur. Onun bir "Erməni planı"da olmuşdur. Ori "Erməni azadlıq planı"nın rus tərəfkeşi xəttini yürüdən ilk lider olmuşdur. Moskvaya gəldikdən sonra I Pyotr ilə görüşmüş və ona Syunik erməni məliklərinin məktubunu təqdim etmişdir. Məktubda məliklər ..."başqa ümidimiz yox, Allah və yurdunuzdan başqa"... – deyə yazmışdılar. I Pyotr bu kömək tələbinə müsbət cavab vermiş və Rusiyanın İsveçlə müharibəsinin bitməsindən sonra erməni xalqına kömək edəcəyinə söz vermişdi (amma bu müharibə yalnız 1722-ci ildə, Orinin ölümündən (1711) sonra bitəcəkdi).***

I Pyotrun Qafqazda başqa planları var idi.

Hələ 1701-ci ildə Ermənistana missiya göndərilmişdi, Osmanlı və Səfəvi imperiyalarına səfər-yürüş edilməsi ilə əlaqədar oradakı katoliklərə məktublar yollayaraq onları gizli planlarından xəbərdar etmiş və müharibə olarsa onlardan dəstək verib-verməyəcəklərini soruşmuşdu, amma bundan bir nəticə çıxmamışdı. Yalnız erməni kilsəsi dərhal ona cavab yazaraq bu işi sürətləndirməsini istəmişdi. Ori bu yolla ermənilərə müstəqillik alacaqlarına əmin idi və bu işi görmək üçün ermənilərin toplu halda yaşadıqları yerlərdə təbliğat işi aparmağa üstünlük verirdi.

Ori Rusiya sarayına konkret bir plan təklif edirdi: Erməni və Gürcü xalqlarının azadlığa qovuşması üçün Qafqaz üzərindən 25.000 nəfərlik bir rus ordusu, 15.000 nəfərlik kazak atlısı və 10.000 piyada lazım olacaqdı. Atlı birliklərin Cənubi Qafqaza çatması üçün Daryal keçidindən keçməsi lazım olacaqdı, piyadaların isə Xəzər dənizindən – Həştərxandan gəlməsi ehtimal edilirdi.. Rus qoşunları erməni və gürcü hərbi birlikləri ilə bir nöqtədə birləşəcəkdilər.

Bu plana görə Cənubi Qafqaza gediş üçün lazımlı olan hazırlıqların görülməsinə icazə lazım idi. Vəziyyətin araşdırılması, yerli xalqın dəstəyinin əldə edilməsi, yollar və qalalar haqqında məlumat əldə etmək üçün Orinin başında olacağı xüsusi bir birliyin İrana yollanmasına qərar verdilər. Şübhə çəkməmək üçün Ori Şah Hüseynin səlahiyyətlilərinə Romadakı Papa tərəfindən göndərildiyini, İrandakı xristianların vəziyyəti haqqında məlumat əldə etməyə gəldiyini söyləyəcəkdi. Bu vaxt Fransız elçisi və missionerlər, Rusiyanın Ermənistana siyasi müstəqillik almaq

məqsədi qoyduğunu və Orinin Ermənistan padşahı olmağa niyyətli olduğunu şaha xəbər verirlər. Ancaq şah bu qədər əhəmiyyətli bir elçini geri çevirməyə cəsarət etməyərək, onu qarşılayır. 1709-cu ildə Ori İsfahana çatır və oranın yerli siyasi şəxsləri ilə müzakirələr aparır. Ancaq I Pyotrun İranı zəbt edib Gürcüstan və Ermənistanı işğal edəcəyi ilə bağlı söz-söhbətlərə şahın, xəyanət etməməsi üçün Gürcüstan valisini güvəndiyi bir başqasıyla dəyişdirir. İsrael Ori, 1711-ci ildə İrandan Rusiyaya geri dönərkən yolda öləndən sonra bu işin arxasınca gedən olmamışdır. İndi ermənilər yana-yana deyirlər ki, Ori rusların vasitəsilə baxımsız erməni dövləti yaratmağa yaxın idi. Amma yenə onun Həştərxanda ani ölümünü təsadüfə bağlamırlar. Oridən sonra erməni milliyyətçiliyi üçün xidmət göstərən sivaslı Mhitar və onun davamçıları olmuşlar.

Mxitaristlərin Venediktdə təməlini qoyduqları Erməni milliyyətçiləri isə elə əvvəldən xəstə xəyallarla yaşayırdılar. Onların irqlə əlaqədar nəzəriyyələrinə görə, ermənilər daha üstün bir irqdən gəlirdi. Nasistlər və onların irqçiliyi II Dünya müharibəsi əsnasında, bənzəri görülməmiş bir miqyasda qırğınlara yol açmışdısa, erməni irqçiliyi daha əvvəllərdən bu yola düşmüşdü. Adını erməni xalqının milli azadlıq mübarizəsi qoyaraq digər xalqları yoxetmə siyasətini aktiv şəkildə yürütməyə girişərkən fərqində olmadılar ki, gələcəkdə bu bəladan xilas olmaq çox çətin ola bilər. İsrael Ori ilə başlayan və xarici güclərə bel bağlayaraq nəyəsə nail olmağı özünə hədəf seçən erməni milliyyətçiliyi və bu sahədə yürüdülən siyasət şübhəsiz ki, erməni milliyyətçiliyinin inkişafına öz təsirini göstərmişdir. Erməni milliyyətçiliyinin tarixi imperializmlə işbirliyi, onların siyasətinin həyatakeçirmə və əməkdaşlıq tarixidir. Mxitaristlərin dil və tarixlə ilgili çalışmalarının nəticəsi olaraq ermənilərdə bir hürriyyət sevdası oyanmışdır.

Osmanlı erməniləri arasında qərbliləşmə və islahat hərakatlarının başlanğıcı XVIII əsrin ilk illərinə aiddir. 1701-ci ildə Sivaslı Mhitar Vartabed liderliyində İstanbulda başlayan islahat hərəkatı, qız və oğlanlar üçün müasir məktəblər açılması, qədim kilsə ermənicəsi yerinə İstanbul xalq dilinə əsaslanan yeni yazı dilinin inkişaf etdirilməsi, qərb dillərindən kitablar çevrilməsi və islahatlara müqavimət göstərən kilsə rəhbərliyinə qarşı qeyri-siyasi təşkilatlanmaların qurulması erməni milli ideologiyasının da formalaşmasına təsir edirdi. Zaman-zaman sərt mübarizələrə səhnə olan islahat hərəkatı, 1860-cı il padşah Abdülməcid tərəfindən erməni milləti nizamnaməsi ilə reallaşdı. Bu nizamnamə ilə qurulan Erməni Millət Məclisi Osmanlı dövlətindəki ilk təmsili parlament orqan xüsusiyyətində olub, 1876-cı ildə qanuni əsasla qurulan Osmanlı Mebusan Məclisinə də nümunə təşkil etmişdir.

Erməni cəmiyyəti Osmanlı dövləti içində "ərköyün uşaq" statusunda idi. Ermənilər Osmanlı inzibati sistemində digər qeyri-millətlər kimi, bir çox məsələdə mərkəzi dövlətin yarı muxtar bir quruluşu haqlarına sahib idi. Erməni və Rum patrikləri iki xalqın “millət başı’” ünvanına sahib idilər. Tənzimat dövrünə qədər patriklərin vəzifəyə gətirilməsində xalqın irəli gələnləri söz sahibi idi, ancaq erməni konstitusiyasının hazırlanma prosesində nəzərdə tutulan dəyişikliklər, patrikin seçki ilə iş başına gəlməsini təmin edəcəkdi.

Patriklərin dini səlahiyyətləri ilə birlikdə, millətlərinin rəhbərliyində də əhəmiyyətli dərəcədə vətəndaş səlahiyyətləri var idi. Bir çox erməni təşkilatının rəhbərliyi birbaşa patrikin məsuliyyəti altına alınmışdı, yəni onların fəaliyyətindən patrik şəxsən məsul idi. Patriarxiat eyni zamanda XIX əsrin sonuna qədər qatı bir senzura təşkilatı funksiyasını boynuna götürmüşdü.

Sultan, erməni millətinin vergilərinin bir hissəsini patriklik vasitəsilə toplayırdı. Patriarx və müəyyən sayda adamlar vergidən azad idilər. Patriklik Osmanlının müxtəlif bölgələrinə dini vəzifəlilərin təyin olunmasından da məsul idi. Bu yetkilərin verilməsi patrik xanasına erməni ideoloji işini formalaşdırmaq imkanları yaradırdı.

Patriarxiat zaman içində nüfuzlu və maliyyə cəhətdən qazanclı bir mövqe halına da gəlmişdi. Əvvəl "Çələbi", "müəllim", XVIII əsrdən etibarən isə "Amira" olaraq adlandırılan erməni irəli gələnləri patriarxiat ilə əlaqələrini sıxlaşdırmışdılar. Dövlət adına vergi yığan, dövlətə borc verərək sərraflıq edən, orduya iaşələri təmin edən, saray memarlığında, dövlətin xarici işlərində əhəmiyyətli vəzifələri boynuna götürən amiralar,

patriarxiatların qərar mexanizmlərində iştirak etməyə başlayır və zaman içində millətin idarəsində suveren hüquqlar da almışdılar. Bu, Osmanlı dövlətində ermənilərin heç bir hüququ yoxdu deyənlərə ən yaxşı cavabdır. Erməni patriarxiatlığına mütəşəkkil olaraq qatılan, vəzifə alan ikinci vətəndaş qrupu isə "esnaflar"dı. İstanbul, Ərzurum, Van, Doğubayazıt kimi bir çox mərkəzlərdə erməni iş adamları və tacirlər ordusu yetişmişdi. Onlar dövlətə və patriarxiat idarəsinə külli miqdarda vergi ödəyirdilər. Esnaflar da müddətdə rəhbərlikdə də iştirak etmək hüququ qazanırdılar.

Erməni patriarxının idarəçiliyində iştirak edən üçüncü vətəndaş qrupu isə Avropada təhsil almış gənc ziyalılar idi. İlk qrupu 1843-cü ildə Romaya, 1840-1848-ci illərdə isə Parisə gedən varlı ailələrin uşaqları Avropa siyasi sistemləri və qabaqcıl düşüncələri ilə tanış olaraq, 1850-ci ildə təhsillərini tamamlayaraq İstanbula geri dönərkən artıq azadlıq müdafiəçisi kimi çıxış edirdilər. Erməni mərkəz idarəsi, məktəbləri və erməni dilinin müasirləşdirilməsi bu gənclərin daim gündəmə gətirdikləri əsas mövzulardan idi. Onlar həm də amiraların patriarxiat üzərindəki özbaşına rəhbərliyinə üsyan edər, erməni cəmiyyətinin geriyə aparıldığını iddia edər, bu müzakirələr nəticəsində isə patrikliyin dövlətlə, Erməni təşkilatları ilə münasibətləri mübahisə mövzularına çevrildi. Nəticədə erməni milləti 1844-cü ildə amira və esnaflardan ibarət qarışıq məclis yaratmışdı, 1847- ci ildə isə bu, vətəndaş və ruhani məclisi adlanmağa başladı.

Həştərxanda 1856-cı ildə Osmanlı islahat fərmanı hər millətin inzibati quruluşunda yeni tənzimləmələr edilməsini nəzərdə tuturdu. Hər millət bir komissiya quracaq, öz daxili işlərini təşkil etmək üçün bir nizamnamə hazırlayacaqdı. Həmin il Erməni ümumi məclisi tərəfindən bir Konstitusiya Komitəsi yaradılır. Bir il boyunca çalışılan mətn 1857-ci ildə məclis tərəfindən qəbul edilir, ancaq bu mətn "dövlət içində dövlət olmaz" prinsipi ilə təsdiq edilmir. Hazırlanan ikinci qaralama mətndə erməni millətinin təzyiqi ilə 1860-cı ildə qəbul edilir. Mövcud bütün təşkilatlar ləğv edilərək yeni Anayasaya uyğun yeni təşkilatlar yaradılır və bu sənəd "Nizamnamə-i Millət-i Ermeniyan" adıyla təsdiq edilir. 1860-cı ildə Erməni Konstitusiyası beş bölüm, doxsan doqquz maddədən ibarət idi. Erməni patriki, siyasi məclisi və dini məclisi seçəcək bir milli məclis nəzərdə tuturdu. Milli məclis, İstanbul və Osmanlı əyalətlərindən seçilən yüz qırx nümayəndədən meydana gəlirdi. İstanbul nümayəndələri vergi ödəmiş ( fiziki şəxs) seçicilərin ümumi sayına, əyalətlərdə isə əhali nisbətinə görə təyin olu--nurdu.

29 mart 1863-cü ildə ermənilərin Osmanlı İmperatorluğundakı vəziyyətini daha da gücləndirən, onlara bəzi əlavə imtiyazlar tanıyan və özlərini idarə etmək mənasında muxtariyyət verən "Nizamnamə-i Millət-i Ermenian" qüvvəyə mindi. Ermənilər üçün daha əvvəl mövcud olan hüquqlara əlavə olaraq bir çox yeni haqqları ehtiva edən bu nizamnamə, islahat fərmanı müddəalarına uyğun olaraq, əsrlərdən bəri dövlətin "ən sadiq təbəəsi" olaraq qəbul edilən ermənilərə verilən bir mükafat idi və bundan bütün ermənilər məmnun qalmışdılar. Ermənilərə "dövlət içində dövlət", "rəhbərlik içində rəhbərlik" deyilə biləcək qədər imtiyazlar tanınırdı. Bu dövrdə, Qreqoryan ermənilər İstanbuldakı patriklərinin idarəsində 26 yepiskopluq dairəsində yaşayırdılar, əksəriyyəti şəhərlərdə olan katolik ermənilər isə, bir patriarx rəhbərliyində 13 yepiskopluq dairəsi təşkil edirdilər. Bütün tanınan haqq və imtiyazlardan istifadə edən ermənilər, bu nizamnamə ilə bir növ konstitusiya hüququna sahib olmuşdular, bundan istifadə edərək ermənilər daha da təşkilatlanaraq; məktəblər açdılar, qəzet və jurnal çıxardılar. Ermənilərin siyasi və ictimai varlıqları üzərində yeni bir dövr açan "Erməni milləti nizamnaməsi" ndən istifadə edən patriarxiat, adıçəkilən nizamnamənin verdiyi sərbəstlikdən istifadə edərək erməni milli ideolojisinin formalaşmasına yardımlarını etməyə başladı. Ermənilər bundan daha da şirniklənərək hətta basqılarla muxtar bir qurum da yaratmağın o qədər də çətin olmayacağını düşündülər. Bunun üçün erməni ziyalıları milləti bu mübarizələrə hazırlamaq fikri ilə milli təşkilatların, mətbuatın və erməni ideoloji mərkəzlərinin yaradılmasına üstünlük verdilər. Həmişə olduğu kimi bu işə rəhbərliyi erməni kilsəsi öz üzərinə götürmüşdü.

"Erməni Milləti Məclisi Umumiyesi" milliyyət-

çilik toxumları səpirdi. Eyni ildə İstanbulda fəaliyyətə keçən və ilk Ermәni quruluşu olan "Köməksevər cəmiyyəti" yardımdan daha çox, gizli üsyanların planını cızmaqla məşğuldu. Milliyyətçilik ən çox Osmanlının xristian vətəndaşları arasında diqqətə çarpan hala gəlmişdi və "bunlar Qərbin mədəni və iqtisadi inkişaflarıdır" təsiri bağışlayırdı. Beləcə nə islamçı görüşlər, nə də dövrün ənənəvi düşüncəsi olan panislamist meyillər bunları arxa plana keçirə bilmirdi, onlar fəal siyasət aparmaqla ətraflarına demək olar ki, bütün qeyri-müsəlmanları cəlb edə bilirdilər, ən azından onların da simpatiyasını qazanmışdılar. Ermənilər əsrlərdir yan-yana yaşadıqları cəmiyyət qarşısında, öz mənfəətlərini dini anlayışlarla deyil, milli anlayışlarla ifadə edirdilər. Artıq Erməni cəmiyyətləri qəzetlər nəşr etmək və bu yolla milləti bir araya gətirmək istəyirdilər. Türkiyədə mətbuat və mətbəəçilik sahəsində monopoliya quran xaricilər ermənicə çıxan qəzetləri az qala pulsuz çap edirdilər. Mətbəəçilik və mətbuat işinə ermənilər böyük əhəmiyyət verirdilər. 1857-ci ildə "Van qartalı" adlı qəzet nəşrə başlarkən bu bölgədə yaşayanların çoxu oxuma-yazma belə bilmirdi. Bu qəzetdə və "Vaspurakan" adlı digər məcmuədə erməni şəxsiyyəti və erməni gələcəyi haqqında yazılar verilirdi. Bu qəzetlərdə "Müstəqil, türklərin yaşamadığı Ermənistan", "Dənizdən dənizə böyük Ermənistan ", "Ermənilərin bu torpaqlara sahiblik haqqı" və s. mövzularda yazılar verilirdi. Ən çox yer alan yazılar içərisində "üstün Erməni şəxsiyyəti" barədə çıxan yazılar idi. Yaratdıqları siyasi təşkilatlar bu irqçi təməl üzərində qurulurdu. Armenakan, Hnçak və Daşnak partiyalarının nümunəsində bu irqçiliyin işarələrini görməmək qeyri-mümkün idi. O illərdə Osmanlıda nəşr olunan 26 qəzetdən 9-u ermənicə idi. Onlardan biri, həddindən artıq milliyyətçi xətti ilə bilinən "Armeniya" qəzeti açıq şəkildə erməniləri qiyama, türkləri və kürdləri öldürməyə səsləyirdi. "Erməni məsələsi və beynəlxalq diplomatiya" kitabının müəllifi Ağası Yesayan yazırdı ki, bu partiyanın (daşnaksütyun) proqramında düşmən (yəni Türk) ordusunda xidmət etmiş erməni əsgərlərdən faydalanmaq, Türk ordusunu arxadan vurmaq, müxtəlif yollarla əldə edilmiş silahları xalqa paylamaq və xalqı qiyama qaldırmaq, silahlı üsyan və inqilab çağrıları vardı. Komitənin (Daşnak Komitəsi) proqramı üsyan yolu ilə «Türkiyə Ermənistanı » na siyasi və iqtisadi azadlıq qazandırmaq idi. Komitənin 1892-ci ildə baş məclisində qəbul edilən proqramın 8-ci maddəsi hökumət dairələrini dağıtmağı, insanları öldürməyi, sərvətlərini yağmalamağı ön görürdü". Bu bir erməni araşdırmaçının yazdıqlarıdır. Bu artıq monomilliyyətçilik meyilləri idi və ermənilər bu hərəkata hələ XIX əsrin 60-70-ci illərindən başlamışdılar. Monomilliyyətçilik tək millətli cəmiyyətin hədəflənməsidir, azlıq və etnik ünsürlərə şəxsiyyətlərini qorumaq haqqı verilməməsidir, etnik təmizliyə gedərək öz içindən digər ünsürləri çıxararaq onları deportasiyaya məruz qoymaqdır. Bu düşüncə və siyasət indiki Ermənistan respublikasında həyata keçirilmişdir. O burada yaşayan Azərbaycan türklərini, kürdləri, yəhudiləri, rusları, ukraynalıları və b. çıxararaq monoetnik dövlətə çevrilmişdir.

# NİZAMNAMƏDƏNKƏNAR MÜNASİBƏTLƏR VƏ ONLARIN QARŞISININ ALINMASI SİSTEMİ




Azərbaycan Respublikası Silahlı Qüvvələrində xidmət edən hərbi qulluqçular arasında münasibətlər Ümumqoşun nizamnamələrinin tələbləri əsasında qurulur. Lakin təcrübə göstərir ki, bəzi hərbi hissələrdə hərbi kollektivin birliyini pozan, gənc əsgərləri mənəvi cəhətdən sarsıdan, hətta bəzi hallarda onların taleyində ömürlük qara ləkəyə çevrilən nizamnamədənkənar münasibətlərə hələ də təsadüf edilir. Hərbi qulluqçular arasında intihar, hərbi xidmətdən boyun qaçırma hallarının əksəriyyəti məhz bu zəmində baş verir. Bu isə ictimaiyyət arasında ordunun nüfuzdan düşməsinə səbəb olur.

Nizamnamədənkənar münasibətlər bütövlükdə ordunu, silahlı qüvvələri nüfuzdan salan bir bəladır və bütün dövrlərdə ona qarşı ciddi tədbirlər görülüb. Çünki bu problem yalnız son illərin "məhsulu" deyil. Hələ XVIII-XIX əsrlərdə bir çox sərkərdələr öz memuarlarında bu bəladan danışmış, onun acı nəticələrindən şikayətlənmişlər. Bu xəstəlik xərçəng kimi uzun müddət keçmiş sovet ordusunun da bətnində kök atmışdı. 1953, 1955, 1957-ci illərdə cinayət cəzası alan şəxslərin orduya kütləvi çağırışı vəziyyəti daha da mürəkkəbləşdirmiş, məhz bu dövrlərdə nizamnamədənkənar münasibətlər az qala cinayət dünyasının mənəvi prinsiplərinə xas olan keyfiyyətlər qazanmışdır. 60-cı illərdə ordunun gəncləşməsi, şəxsi heyətin kəskin ixtisarı, demoqrafik problemlər mənfi halların ordu həyatına daha asan nüfuz etməsini sürətləndirmişdi. Nəticədə nizamnamədənkənar qarşılıqlı münasibətlər çağırışdan-çağırışa "irsən ötürülən" neqativ ənənə və mərasimlərin bütöv bir sisteminə çevrilmişdir.

Azərbaycan silahlı qüvvələrinin hərbi hissə komandirləri, onların şəxsi heyətlə iş üzrə müavinləri nizamnamədənkənar münasibətlərin aradan qaldırılması məsələsinin həllinin zəruriliyini bir an belə yaddan çıxarmamalı, yerlərdə şəxsiyyət üzərində ən kiçik zorakılıq faktının alınması, hərbi kollektivin möhkəmləndirilməsi, hərbi qulluqçular arasında sağlam əhval-ruhiyyənin yaradılması istiqamətində gündəlik, fasiləsiz iş aparmalıdırlar.

**Hərbi kollektivlərdə nizamnamədənkənar münasibətlər dedikdə, ayrı-ayrı, yaxud bir qrup hərbi qulluqçuların özü üçün müəyyən imtiyazlar, "kazarma komfortu" əldə etmək naminə yaş, yerliçilik, milli-etnik zəmində digər hərbi qulluqçular üzərində mənəvi və fiziki təsiri başa düşülür.**

Qarşılıqlı münasibətlərin nizamnamə tələblərinin pozulması döyüş hazırlığını və hərbi intizamı sarsıdan problem kimi şəxsı heyətin mənəvi-psixoloji vəziyyətinə mənfi təsir göstərir, hərbi qulluqçuların mənəvi və fiziki sağlamlığına ciddi ziyan vurur. Bunlar hərbi qulluqçular arasında hərbi nizamnamələrdə nəzərdə tutulmuş qarşılıq-




**BU NİZAMNAMƏ AZƏRBAYCAN RESPUBLİKASI HƏRBİ QULLUQÇULARININ ÜMUMİ VƏZİFƏLƏRİNİ, ONLARIN ARASINDAKI QARŞILIQLI MÜNASİBƏTLƏRİ MÜƏYYƏNLƏŞDİRİR**

lı münasibətlərin, qayda və qanunların pozulması nəticəsində mənəvi və fiziki təhqir formalarında özünü büruzə verir. Daimi psixi və fiziki təcavüzün obyektləri isə əksər hallarda ağır fiziki işlə yüklənməsi nəticəsində onların əmək vərdişləri kifayət qədər inkişaf etmiş olur. Onlara bir qayda olaraq, "alçaldılmış, təhqir olunmuşların" rolu həvalə edilir.

Bir çox hallarda nizamnamədənkənar qarşılıqlı münasibətlər hərbi qulluqçular arasında elə əlaqələrin məcmusunu təşkil edir ki, onun əsasında qeyri-sağlam asılılıq dayanır. Bu əlaqələr isə kollektivin kortəbii şəkildə müxtəlif mikroqruplara bölünməsi şəraitində formalaşır. Belə qruplarda aparıcı rol təşkilatı və icraçı funksiyasını yerinə yetirən və neqativ rollar bölgüsünə riayət edilib-edilməsini yoxlayan liderə məxsus olur. Bu şəxs adətən, öz kobudluğu və intizamsızlığı ilə fərqlənir. Bir qayda olaraq, belə "başçı" başqa şəxsləri özünə tabe etmək xüsusiyyətinə malik olur. Öz məqsədlərinə çatmaq üçün o, çox vaxt fiziki təsirdən istifadə edir, yaxud onu tətbiq etməklə qorxudur. Belə şəxslər öz həqiqi simasını "intizam uğrunda mübarizə", "bacarıqlı oğlan", "idmançı" maskaları altında gizlədirlər.

Hərbi hissələrdə bəzi hərbi qulluqçuların üzərinə neqativ ənənələrin mühafizəsi üzrə "sanksiyaların" bilavasitə icraçısı və gizli qanunlara itaət ideyasının "bələdçisi" funksiyaları qoyulur. Onlar yeni gələn əsgərlərə müxtəlif vəziyyətlərdə necə hərəkət etmələri barədə "məsləhətlər" verir, bu "məsləhət"lərə əməl etməməyə və "satqınlığa" görə cəzalandırma tədbirlərini həyata keçirirlər. Bu rolların yerinə yetirilməsinin keyfiyyəti neqativ mikroqrupun lideri tərəfindən daim qiymətləndirilir və bu zəmində bölmədə nizamnamədənkənar qarşılıqlı münasibətlərin qrupdaxili mexanizmi formalaşır.

Nizamnamədənkənar qarşılıqlı münasibətlərin qarşısının alınması vəzifəli şəxslərin fəaliyyətinin ən mühüm sahələrindən biridir. Silahlı qüvvələrimizdə aparılan yeniləşmə prosesləri hərbi hissələrdə, gəmilərdə intizamın və qayda-qanunun daha da möhkəmləndirilməsini tələb edir. Bu isə bütün kateqoriyadan olan vəzifəli şəxslərin sistemli, məqsədyönlü fəaliyyəti olmadan mümkün deyil.

Problemin həlli xeyli dərəcədə hərbi qulluqçular arasında nizamnamədənkənar qarşılıqlı münasibətlərin qarşısının alınmasının təşkilindən asılıdır.

**Nizamnamədənkənar qarşılıqlı münasibətlərin qarşısının alınması üzrə sistem cinayət və hadisələrin qarşısının alınması üçün hərbi idarəetmə orqanlarının və vəzifəli şəxslərin vaxt, qüvvə və vasitələr, forma və metodlar üzrə əlaqələndirilmiş fəaliyyətidir.**

**Konkret hərbi hissədə (gəmidə) onun işlənib həyata keçirilməsi üçün zəruridir:**

– analizlər və proqnozlar əsasında fəaliyyətin prioritet istiqamətlərini müəyyən etmək və neqativ meyillərin qarşısının alınması üzrə tapşırıqlar qoymaq;

– təşkilat-ştat strukturundan çıxış edərək həll olunan tapşırıqların özünəməxsus xüsusiyyətlərini, real vəziyyəti, nizamnamədənkənar qarşılıqlı münasibətlərin qarşısının alınması üçün vəzifəli şəxslər arasında vaxt üzrə bölünmüş tədbirlər kompleksini müəyyən etmək;

– tabeliyində şəxsi heyət olan bütün vəzifəli şəxslər üçün nizamnamələrin, əmrlərin, göstəriş-

lərin və digər rəhbəredici sənədlərin konkret tələblərini nəzərə alaraq nizamnamədənkənar qarşılıqlı münasibətlərin qarşısının alınması üzrə funksional vəzifələr hazırlamaq, müəyyən olunmuş qaydada onların reallaşmasının daha təsirli forma və metodlarını müəyyən etmək;

– hərbi hissə komandirinin şəxsi heyətlə iş üzrə müavinindən tutmuş manqa komandirinədək bütün vəzifəli şəxslərin hərbi nizamnamədənkənar qarşılıqlı münasibətlərin qarşısının alınması istiqamətində səyləri koordinasiya etmək, onların işinə ardıcıllıq xarakteri vermək;

– vəzifəli şəxslər tərəfindən öz funksional vəzifələrinin yerinə yetirilməsinə, habelə uçota almanın dövriliyinə və formasına, görülən işlərin nəticələri barədə hesabatların hazırlanmasına ciddi nəzarət etmək.

Bu tədbirlərin icrası qoşun və xidmət növləri rəisləri, hərbi hissənin (gəminin) digər zabitləri tərəfindən nəzarətdə olmalıdır.

Əsas məsələ odur ki, nizamnamədənkənar qarşılıqlı münasibətlərin qarşısının alınması sistemi kimin hansı istiqamətdə fəaliyyət göstərdiyini, hansı tədbirlərin hansı ardıcıllıqla həyata keçirilməsini, bu tədbirlərin necə həyata keçirilməsini, hansı forma və metodlardan istifadə olunmasını dəqiq müəyyən etməyə imkan versin.

Nizamnamədənkənar qarşılıqlı münasibətlərin qarşısının alınması üzrə sistemin sənədli formada tərtib olunmasının mühüm əhəmiyyəti var. Onun tərkib hissələri aşağıdakılardır: Ötən ilin yekunlarına görə hərbi intizamın və qoşun xidmətinin vəziyyətinin təhlilinə dair hərbi hissə (gəmi) komandirinin əmr; hərbi qayda-qanunun saxlanılması üzrə kompleks iş planı; profilaktik tədbirlərin hazırlanması və həyata keçirilməsi üzrə metodiki tövsiyələr.

Əmr, adətən növbəti tədris ili üçün verilir. Onun giriş hissəsində ötən ildə hərbi intizamın və qayda-qanunun saxlanılmasının real vəziyyəti təhlil olunur, hüquq qaydalarının pozulmasına imkan yaradan səbəblər və şərait, hərbi intizam və qayda-qanunun vəziyyətinə təsir göstərə bilən faktorlar, şərtlər göstərilir.

Əmrin sonrakı hissəsində hərbi intizamın və qayda-qanunun saxlanılması, o cümlədən nizamnamədənkənar qarşılıqlı münasibətlərin qarşısının alınması üzrə vəzifəli şəxslərə tapşırıqlar qoyulur. Burada, həmçinin nəzarət qaydası, həyata keçirilən tədbirlərin dövriliyi və forması müəyyən edilir.

Hərbi hissə (gəmi) komandirinin əmri bütövlükdə hüquq qaydalarının pozulmasının, o cümlədən nizamnamədənkənar qarşılıqlı münasibətlərin qarşısının alınması əsas sənəddir, obrazlı desək, "buraxıcı mexanizm" rolunu oynayır. O sistemin tələblərinin icrasına görə vəzifəli şəxslərin məsuliyyətini hüquqi cəhətdən müəyyən edir.

Kompleks iş planında fəaliyyətin aşağıdakı prioritet istiqamətlərini nəzərdə tutmaq olar: zabit heyətinin şəxsi nümunə göstərməsinin təmin edilməsi; vəzifəli şəxslərin iş üslubunun təkmilləşdirilməsi və onların şəxsi məsuliyyətinin yüksəldilməsi; hərbi xidmət üçün təhlükəsiz şəraitin yaradılması, şəxsi heyətin həyat və sağlamlığının qorunması; tərbiyəvi işin təkmilləşdirilməsi, hərbi kollektivlərdə sağlam mənəvi-psixoloji mühitin saxlanılması, intihar hallarının qarşısının alınması; döyüş hazırlığının, qoşun xidmətinin və hərbi intizamın möhkəmləndirilməsindəki rolunun artırılması, günün nizam qaydalarına ciddi əməl olunması; qarşılıqlı münasibətlərin, nizamnamə tələblərinin pozulmasının, hərbi xidmətdən boyun qaçırmanın, oğurluq və israfçılıq hallarının qarşısının alınması; maddi-məişət şəraitinin və şəxsi heyətin istirahətinin təşkilinin yaxşılaşdırılması.

Planda kimin hansı işi hansı ardıcıllıqla yerinə yetirəcəyi dəqiq göstərilməlidir. Hüquq pozuntularının qarşısının alınması üzrə vəzifəli şəxslərin funksional vəzifələri, hərbi intizamın və qayda-qanunun saxlanılması üzrə iş planı, habelə metodiki tövsiyələri əmrə əlavə kimi tərtib etmək məqsədəuyğundur.

Təhlillər göstərir ki, qoşunlarda nizamnamədənkənar qarşılıqlı münasibətlərin özünü ən çox büruzə verən formaları aşağıdakılardır: nisbətən çox xidmət edən hərbi qulluqçuların öz vəzifələrini gənc əsgərlərin üzərinə qoyması; gənc əsgərlərin mənəvi və fiziki cəhətdən təhqir edilməsi; pulun, qida məhsullarının zorla alınması; əyləncə xatirinə təhqiretmə; intizamsızlığa vadaretmə; Bu hallar əsasən şəxsi heyət üzərində nəzarətin

zəiflədiyi axşam saatlarında, təsərrüfat işlərində, növbədə, "yat" komandasından sonra, ezamiyyətdə və qarovul xidmətinin aparılması zamanı, eləcə də döyüş bölgələrində yerləşən hərbi hissələrin post başçısı çavuşlar olduğu bəzi mövqelərdən döyüş növbəsində təsadüf edilir.

Qarşılıqlı münasibətlərin nizamnamə tələblərinin pozulmasının qarşısını almağa imkan yaradan şəraitlər bunlardır: bölmə tərəfindən yerinə yetirilən tapşırıqların özünəməxsus xüsusiyyətlərinin hərtərəfli uçotu; zabitlərin, gizirlərin öz funksional vəzifələrin, habelə tabelikdə onların vəzifə borclarını bilməsi; tədbirlərin diqqətlə hazırlanması, şəxsi heyətin bu tədbirlərə tam qatılması; ayrıca hər bir hərbi qulluqçu ilə məqsədyönlü gündəlik işin aparılması.

Bölmə (hərbi hissə, tabor, bölük) komandirləri nisbətən çox xidmət etmiş hərbi qulluqçular tərəfindən gənc əsgərlərin təhqir olunması faktının aradan qaldırması üzrə tədbirlər həyata keçirərkən aşağıdakı tələbləri rəhbər tutmalıdırlar:

– hərbi qulluqçular tərəfindən hərbi hissədə (bölmədə) davranış qaydalarına riayət olunmasını sistemli təhlil etmək və obyektiv qiymətləndirmək;

– hərbi qulluqçuların intizamlılığının təmin olunması üzrə təşkilatı və tərbiyə işini yalnız qanunlar, təlimatlar, komandir və rəislərin əmrləri əsasında aparmaq;

– tərbiyə prosesini, hərbi hissələrdə mənəvi-psixoloji durumun real vəziyyəti və hərbi qulluqçuların fərdi-psixoloji xüsusiyyətləri barədə məlumatlar əsasında təşkil etmək;

– nizamnamədənkənar qarşılıqlı münasibətlərin qarşısının alınması üçün konkret bölmələrdə onun təzahür formalarını, neqativ ənənələrini mövcudluğunu bilmək, mikroqruplara təsir göstərməyi bacarmaq;

– neqativ hallara qarşı forma və vasitələr tapmağı (ictimai təşkilatların və fəalların hərbi kollektivlərdə mənəvi-psixoloji mühitə effektiv əks-təsir mexanizmi formalaşdırmasının, belə neqativ halların meydana gəlməsini şərtləndirən amilləri nəzərə almaq, bütün kateqoriyadan olan komandirlərin qarşılıqlı münasibətlərinin nizamnamə tələblərinin pozulmasının qarşısının alınması üzrə məqsədyönlü və sistemli işaparma üçün sosial-psixoloji hazırlıqları təmin etməyi) bacarmaq.

Komandir, şəxsi heyətlə iş üzrə müavinlərin fəaliyyətində nizamnamədənkənar qarşılıqlı münasibətlərin sayını xeyli dərəcədə azaltmağa imkan verən aşağıdakı prioritet istiqamətləri göstərə bilər:

– bölmələrdə sosial-psixoloji proseslərin öyrənilməsi və proqnozlaşdırılması, onların hərtərəfli təhlili, korrektə olunması və hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərdə neqativ meyillərin profilaktikası üzrə təsirli ölçülərin götürülməsi;

– hərbi kollektivdə qarşılıqlı münasibətlərin deformasiyaya uğramasının (pozulmasının) səbəblərini, qarşılıqlı münasibətlərdə nizamnamə tələblərinin pozulması profilaktikası üzrə işlərin təsirliyinin perspektivlərini aşkar etmək üçün sosial-psixoloji tədqiqatların aparılması:

– hərbi xidmətin mənəvi-psixoloji təminatının forma, metod və vasitələrinin təkmilləşdirilməsi, hərbi qulluqçuların emosional dayanıqlığının sabitləşdirilməsi və saxlanılmasına yönəldilmiş vasitələrin geniş tətbiq edilməsi, stress doğuran vəziyyətlərin aradan qaldırılması;

– hərbi qulluqçuların hüquq tərbiyəsinin inkişafı, genişləndirilməsi, şəxsi heyətin hüquq tərbiyəsi üzrə tematik axşamların, mühazirələrin, söhbətlərin, hərbi ədliyyə orqanlarının nümayəndələri ilə şəxsi heyətin görüşlərinin, hüquqi bilik günlərinin və digər tədbirlərin keçirilməsi;

– hərbi hissədə psixoloji işin gücləndirilməsi, psixoloji yardım xidmətinin təşkili, hərbi qulluqçular arasından seçilmiş şəxslərə əsəbi-psixi dayanıqsızlığın əlamətlərini aşkar etmək bacarığının öyrədilməsi, hərbi qulluqçuların hərəkətləri üzərində gizli müşahidənin aparılması;

– nizamnamədənkənar qarşılıqlı münasibətlərin hərbi qulluqçuların elementlərinin görünməsinə imkan verməyən xidmət və məişət şəraitinin yaradılması;

– qarşılıqlı münasibətlərin nizamnamə qaydalarının pozulmasının profilaktikasında ictimai təşkilatlarla sıx qarşılıqlı əlaqələrin yaradılması;

– hərbi qulluqçuların tərbiyəsi işinə incəsənət, mədəniyyət xadimlərinin daha geniş cəlb olunması.

Hərbi kollektivdə neqativ halların qarşısının alınması üzrə öz praktiki fəaliyyətində komandirin şəxsi heyətlə iş üzrə müavini aşağıdakı işləri görür:

– münaqişəli vəziyyətlərdə şəxsiyyətin rolunu, mövqeyini aşkar edir, hərbi qulluqçuların ehtimal olunan davranış üslubunu proqnozlaşdırır;

– davranışda və qarşılıqlı münasibətlərdə təcavüzkarlığa meyilli hərbi qulluqçuları aşkar edir;

– münaqişələrdə təcavüzkar meyillərə qarşı dayana bilməyən zəif hərbi qulluqçuları müəyyənləşdirir;

– hərbi kollektivdə neqativ təzahürlərə qarşı dayanıqlı olan və şəxsiyyətlərarası münasibətlərə tez uyğunlaşan hərbi qulluqçuları aşkar edir.

Sağlam mənəvi mühitin ölçü meyarı hərbi hissədə qanunçuluğa və qayda-qanuna riayət etmək, hərbi kollektivin birliyi, qarşılıqlı kömək və yardım şəraitidir.

Neqativ halların aradan qaldırılmasında komandirin şəxsi heyətlə iş üzrə müavininin rolu aşağıdakılardır: bölmədə, hissədə sosial-psixoloji mühitin öyrənilməsi, onun sağlamlaşdırılması üzrə tövsiyələrin hazırlanıb bütün vəzifəli şəxslərə çatdırılması; komanda heyətinin tabelikdə olan şəxsi heyətə psixoloji-pedaqoji təsir vasitələri ilə öyrədilməsi, yüksək pedaqoji-psixoloji diqqət tələb edən hərbi qulluqçuların psixoloji müşayiət olunmasının təşkil edilməsi və bu prosesdə şəxsi iştirak, hərbi qulluqçuların bölmələrə rasional bölüşdürülməsi üzrə təkliflərin hazırlanması.

Kollektivi öyrənərkən neqativ halların, jarqon, geyim qaydasının pozulması, tipik travmalar, cinayət və hadisələr, qida məhsullarının, paltarın, yataq yerlərinin, işin, naryadın ədalətsiz bölüşdürülməsi, bölmələrdə müəyyən ləqəblərin mövcudluğu kimi əlamətlər meydana çıxır.

Komandirin şəxsi heyətlə iş üzrə müavini tərəfindən tətbiq olunan əsas metodlardan biri parametrik sosiometriya metodudur. Onun sadəliyi, obyektivliyi şəxsiyyətlərarası münasibətlərin vəziyyətini qiymətləndirməyə, hərbi kollektivdə hansı halların mövcudluğunu proqnozlaşdırmağa, onların qarşısının alınması üçün tərbiyə işinin strategiyasını planlaşdırmağa imkan verir.

Sosiomatrisanın tərtib olunması müsbət və mənfi istiqamətli liderlərin, kollektiv münasibətlərindən təcrid edilmiş hərbi qulluqçuların aşkar edilməsinə və bunun da əsasında müvafiq tövsiyələrin hazırlanmasına yaxşı imkan yaradır. Bu zaman müsbət istiqamətli liderlərin dəstəklənməsinə, mənfi istiqamətli liderə pedaqoji-psixoloji təsir göstərməsinə xüsusi fikir verilməlidir.

Antiliderlər üzərində müşahidə bütün xidmət dövründə aparılmalıdır.

Hərbi kollektivdə neqativ halların xarakteri müşahidə metodu ilə müəyyən olunur. Bu zaman aşağıdakıları qeydə almaq zəruridir: "imtiyaz hüququ" əlaməti olaraq geyim qaydalarının pozulması, baş geyimlərinin formasının dəyişdirilməsi; paltarın qeyri-ənənəvi üsulla ütülənməsi; müxtəlif növ bilərziklərin, kulonların, üzüklərin gəzdirilməsi; saç düzümünün qeyri-standart forması və s.

Nisbətən çox xidmət etmiş əsgərlər hamamda, adətən, 1-ci çimməyə çalışırlar. Yeməkxanada qidanın düzgün bölüşdürülməməsi, gənc əsgərlərin yeməyinin mənimsənilməsi ehtimalı var.

Hərbi bölmələrin gündəlik həyatını diqqətlə müşahidə edərkən mənfi halların bu əlamətləri asanlıqla aradan qaldırıla bilər. Onların mövcudluğu isə mənəvi-psixoloji durumu sağlamlaşdırmaq üçün müvafiq tədbirlər görülməsini tələb edir.

Hərbi hissədə, bölmədə sağlam mənəvi-psixoloji mühitin formalaşması bütün kateqoriyalardan olan komandirlərin, şəxsi heyətlə iş üzrə komandir müavinlərinin, qərargahların, vəzifəli şəxslərin daim diqqət mərkəzində olmalıdır.

Hərbi kollektivlərdə qarşılıqlı münasibətlərin vaxtında tənzimlənməsi o vaxt mümkün olur ki, münaqişə vəziyyətlərinin qarşısının alınması və aradan qaldırılması üzrə ardıcıl və məqsədyönlü iş aparılsın. Konfliktlərin yaranmasının səbəbləri hərbi qulluqçuların (mikro və makroqrupların) qarşılıqlı münasibətlərindən və tələblərində yaranan həm daxili, həm də xarici ziddiyyətlərdir.

**KONFLİKTLƏRİN ƏSAS MƏNBƏLƏRİ VƏ YARANMA ŞƏRAİTLƏRİ AŞAĞIDAKILARDIR**

**a) obyektiv xarakterli:**

– xidməti-döyüş fəaliyyətinin təşkilində və idarə olunmasındakı nöqsanlar;

– hərbi qulluqçuların və onların ailə üzvlərinin maddi-texniki və məişət təminatının təşkilində çatışmazlıqlar.

**b) subyektiv xarakterli:**

– komandirlərin (rəislərin) zəif psixoloji-pedaqoji hazırlığı;
– ayrı-ayrı hərbi qulluqçuların rolu barədə düzgün olmayan təsəvvür (tərəfkeşlik);
– öz fəaliyyətinə, imkanlarına və qabiliyyətinə qeyri-tənqidi münasibət;
– qarşılıqlı münasibətlər haqqında anlayışın səhv yozumu;
– neqativ vərdişlər.

Kompleks sxemi tətbiq edərək münasibətlərin əsas mənbələrini, əlamətlərini, habelə onların aradan qaldırılması üzrə əsas tövsiyələri nəzərdən keçirək.

1. Əsas mənbə: xidmət-döyüş fəaliyyətinin təşkilində və idarə olunmasındakı nöqsanlar.

Bu nöqsanların əlamətlərini konkret olaraq 3 istiqamətdə qruplaşdırmaq olar.

**a) mövcudluq əlamətləri:** ayrı-ayrı hərbi qulluqçuların hərbi kollektivdəki vəziyyətdən narazılıqları barədə fikirləri və ərizələri.

Aşkara çıxarılması üzrə tövsiyələr: müşahidə, analiz, sorğu ( anonim) yolu ilə hərbi kollektivdə işlərin vəziyyətinin sistemli şəkildə öyrənilməsi; təkliflərin, şikayətlərin diqqətlə təhlili, hərbi qulluqçularla fərdi və qrup şəklində söhbətlərin aparılması.

Həlli istiqaməti üzrə tövsiyələr: ərizələrin obyektivliyinin yoxlanılması, komandir (rəis) ilə fərdi söhbətlərin aparılması, konstruktiv təkliflərin həyata keçirilməsinin konkret planının tutulması, fəaliyyətdə müsbət meyillərin açıq şəkildə dəstəklənməsi, lazım gəldikdə məsələyə kateqoriyalar üzrə iclaslarda (yığıncaqlarda) baxılması;

**b) mövcudluq əlamətləri:** təlim-tərbiyə prosesinin aşağı göstəriciləri.

Aşkara çıxarılması üzrə tövsiyələr: tədris proqramının faktiki cəhətdən yerinə yetirilməsinə daimi nəzarət.

Həlli istiqaməti üzrə tövsiyələr: bölmə komandirləri ilə məşğələlərin təşkili və keçirilməsi metodikası üzrə məşğələlərin keçirilməsi; tədrisdə geri qalan (məşğələlərdə iştirak etməyən) hərbi qulluqçularla əlavə məşğələlərin keçirilməsi, onlara tədris planının mövzuları üzrə fərdi tapşırıqların verilməsi:

**c) mövcudluq əlamətləri:** hərbi intizamın, komandirlərin, (rəislərin) əmr və göstərişlərinin yerinə yetirilməsinin yüksək səviyyəsi.

**Aşkara çıxarılması üzrə tövsiyələr:** cinayətlərin, hadisələrin, intizam pozuntularının mövcudluğu: əmr və göstərişlərin zəif yerinə yetirilməsi (yerinə yetirilməməsi), xırda qanun pozuntularının və intizam cəzalarının sayca çoxlu, sutka, həftə, ay ərzində hərbi intizamın vəziyyəti barədə komandirlərin (rəislərin) məruzələri, xidməti-döyüş fəaliyyətinin yekununda iştirak etmək.

Həlli istiqaməti üzrə tövsiyələr: bölmədə vəziyyət barədə məruzələr vaxtı qeyri-obyektivlik faktlarının aradan qaldırılması, inzibati təhqiqatların aparılması zamanı obyektivlik, aşkara çıxmış qüsurların, hüquq pozuntularının səbəblərinin prin-sipial qiymətləndirilməsi; intizamsız hərbi qul-luqçuların məsələsinə ümumi yığıncaqlarda (iclaslarda, şərəf məhkəmələrində) baxılması.

**2. Əsas mənbə:** hərbi qulluqçuların maddi-texniki və məişət təminatının təşkilində çatışmazlıqlar.

Mövcudluq əlamətləri: qeyri-kafi maddi-texniki təchizat, yeməyin keyfiyyətsiz, sanitar-gigiyena normal və tələblərin pozulması barədə hərbi qulluqçulardan daxil olan raport, təklif, ərizə və şikayətlər.

**Aşkara çıxarılması üzrə tövsiyələr:** maddi vəsaitlərin yoxlanılması üzrə komissiyaların işinə daim nəzarət edilməsi; hərbi qulluqçularla fərdi söhbətlərin aparılması; hərbi qulluqçularla məişət mövzusunda mütəmadi sorğuların keçirilməsi.

Həlli istiqaməti üzrə tövsiyələr: mənzillərin qeyri-obyektiv bölüşdürülməsi faktlarının aradan qaldırılması; maddi, əşya və ərzaq təminatı üzrə əmr, göstəriş və sərəncamların tələblərinin tam şəkildə yerinə yetirilməsinə nail olmaq; maddi vəsaitlərin oğurlanması; çatışmazlıq faktları üzrə inzibati təhqiqatların təyin edilməsi,

hərbi qulluqçuların maddi-texniki təminatı üzrə arxa cəbhə xidmətinin vəzifəli şəxslərinin məruzələrinin dinlənilməsi.

**3. Əsas mənbə:** komandirlərin (rəislərin) hərbi kollektivin rəhbərliyinə zəif psixoloji-pedaqoji hazırlığı.

Mövcudluq əlamətləri: tabelikdə olanların təlim və tərbiyələndirilməsində pedaqogika və psixologiyanın metodlarından düzgün istifadə olunmaması.

**Aşkara çıxarılması üzrə tövsiyələr:** fərdi və qrup halında söhbətlərin keçirilməsi; idarəetmə fəaliyyətinə nəzarət, sorğuların keçirilməsi.

**Həlli istiqaməti üzrə tövsiyələr:** iclaslarda (yığıncaqlarda) məlumatları dinləmə; fərdi söhbətlər, hərbi psixologiya və pedaqogika üzrə təlim-metodiki məşğələlərin keçirilməsi hərbi kollektivlərn fəaliyyəti ilə bağlı konkret vəzifələrdən istifadə etməklə pedaqoji və psixoloji mövzular üzrə seminar məşğələsinin keçirilməsi.

**4. Əsas mənbə:** ayrı-ayrı hərbi qulluqçuların rolu barədə düzgün olmayan təsəvvürlər.

Mövcudluq əlamətləri: kollektivdə sosial vəziyyətin dəyişdirilməsi istəyi ilə açıq və gizli formada rəsmi və qeyri-rəsmi ərizələr bilavasitə rəhbərə böhtan atılması, bu və ya digər işlərin yerinə yetirilməsində öz xidmətlərini qabartmaq, kollektivin xidmətlərini öz adına çıxarma, paxıllıq hissləri, yüksək vəzifəyə əsassız iddialar, formal və qeyri-formal qruplarda lider mövqeyi tutmaq cəhdi.

**Aşkara çıxarılması üzrə tövsiyələr:** iclaslarda, yığıncaqlarda çıxışların diqqətlə dinlənilməsi; xidmət-döyüş fəaliyyətinin müəyyən dövrü üzrə yekunların keçirilməsi, daim fəalların rəyinin öyrənilməsi: xidmətin və məişətin müxtəlif vəziyyətlərdə hərbi qulluqçuların davranışının müşahidə edilməsi, sosiometriya.

**Həlli istiqaməti üzrə tövsiyələr:** tabelikdə olanların attestasiya olunması zamanı qeyri-obyektivliyə yol verilməsi, xidmət-döyüş fəaliyyəti nəticələrinin obyektiv qiymətləndirilməsi, karyerizm, xidməti vəziyyətdən sui-istifadə etmək, özünün və tabelikdə olanların fəaliyyətinin nəticələrinin şişirdirilməsi faktlarının aradan qaldırılması.

**5. Əsas mənbə:** iş fəaliyyətinə və imkanlara qeyri-tənqidi münasibət.

Mövcudluq əlamətləri: kollektivdə neqativ halların qrup halında, fərdi qaydada, tam və ya qismən gizlədilməsi, tabelikdə onlar arasında tənqidin və özünütənqidin olmaması, neqativ hadisələrin müzakirəsinə laqeydlik.

**Aşkara çıxarılması üzrə tövsiyələr:** tabelikdə olanların davranışı üzrə müşahidə, mütəmadi sorğular keçirmək, ümumi iclaslarda və yığıncaqlarda iştirak etmək.

**Həlli istiqaməti üzrə tövsiyələr:** fərdi söhbətlərdə xidmət yoldaşlarının ədalətli iradlarının xeyirli olmasının izah edilməsi, yoldaşlıq və qarşılıqlı yardım mövzusunda qrup halında söhbətlərin ararılması, hər bir hərbi qulluqçunun xidmətinin obyektiv qiymətləndirilməsi.

**6. Əsas mənbə:** mənfi vərdişlər

Mövcudluq əlamətləri: spirtli içkilərdən (və ya narkotik maddələrdən) istifadə halları, cinayət və hadisələrin baş verməsi.

**Aşkara çıxarılması üzrə tövsiyələr:** şəxsi (xidmətdənkənar) vaxtlarda hərbi qulluqçuların davranışının müşahidə edilməsi; fəallarla fərdi söhbətlərin aparılması; hərbi qulluqçuların ailə üzvləri ilə görüşlərin keçirilməsi.

**Həlli istiqaməti üzrə tövsiyyələr:** hərbi ənənələrini və mərasimlərin qorunub saxlanılması və inkişaf etdirilməsi; cinayət və hadisələrin başvermə səbəblərini və şəraitini aşkar etmək üçün obyektiv inzibati araşdırmaların və ya təhqiqatların aparılması; təqsirkar hərbi qulluqçuların ümumi iclaslarda, yığıncaqlarda, şərəf məhkəmələrində dinlənilməsi, qınaq obyektivinə çevrilməsi, xidmətdənkənar vaxtlarda mədəni-istirahət tədbirlərinin təşkil edilməsi.

Təcrübə göstərir ki, bu və ya digər vəziyyətlərdə münaqişələrin həll edilməsi üzrə komandirlərin (rəislərin) davranışı üçün konkret mütləq tövsiyələr vermək mümkün deyil.

Lakin bir çox psixoloqların fikrinə görə, münaqişəli vəziyyətlərin qarşısının alınması üçün müəyyən ümumi tövsiyələr vermək olar. Onlar aşağıdakılardır:

– ümumqoşun nizamnamələrinin, hərbi andın, komandirlərin (rəislərin) əmr, göstəriş sərəncam və tələblərinin bütün kateqoriyadan olan hərbi qulluqçular tərəfindən yerinə yetirilməsinə nail

olunmalıdır;

– hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin vəziyyəti daim öyrənilməli, hərbi qulluqçular (qruplar) arasında münasibətlərin vəziyyəti, münaqişəli halların səbəbləri aşkar edilməlidir;

– nizamnamədənkənar davranış faktları üzrə inzibati araşdırmalara və ya təhqiqatlara münaqişənin həllində maraqlı olan bütün rəislərin etimadını qazanmış ən intizamlı və nümunəvi zabitlər cəlb olunmalıdır;

– münaqişənin həllində tərəfkeşlik hallarına, tərəflərdən birinin təmizə çıxarılmasına yol verilməməlidir;

– baş vermiş hadisələrin ümumi yığıncaqlarda, iclaslarda, şərəf məhkəməsində müzakirəsinin obyektivliyi təmin olunmalıdır;

– şəxsiyyətlərarası münasibətlərdə ziddiyyətlərin mahiyyətinin öyrənilməsi zamanı çeviklik göstərilməli, tərəflərin psixoloji, emosional xüsusiyyətləri nəzərə alınmalıdır;

– münaqişəyə girmiş tərəflərdən və neytral mənbələrdən alınmış məlumatlar diqqətlə tutuşdurulmalıdır;

– münaqişəyə girmiş tərəflərin münasibətlərinin tarixi öyrənilməlidir;

– tərəflərlə fərdi söhbət zamanı tam qənaətə gəlməyənə kimi digər hərbi qulluqçularla aparılmış söhbətlərin məzmunu açıqlanmamalıdır;

– tərəflərə tutduğu mövqenin doğruluğu barədə səhv təsəvvürlərin möhkəmlənməsinə xidmət edən məlumatlar çatdırılmamalıdır;

– inzibati araşdırmaların və ya tədqiqatın aparılmasının gizliliyi təmin olunmalıdır;

– münaqişədə iştirak etmiş hərbi qulluqçuların davranışına nəzarət olunmalıdır;

– digər hərbi qulluqçuların hadisənin baş verməsinin səbəb və şəraitinə dair ifadə vermələrinə təsir göstərilməsinə yol verilməməlidir;

– kollektivdə şəxsiyyətlərarası münasibətlərin mənəvi məzmunu barədə prinsipial mövqe formalaşdırılmalı, qarşılıqlı münasibətlərin nizamnamə tələblərini pozanlara neqativ münasibətlərin formalaşması ilə bağlı zabitlərlə, gizirlərlə fərdi söhbətlər aparılmalıdır;

– münaqişəli vəziyyətin araşdırılması üzrə ümumi yığıncaqlarda (xidməti iclaslarda, şərəf məhkəmələrində) çıxış üçün hərtərəfli hazırlıq aparılmalı, bu zaman yalnız obyektiv, yoxlanılmış məlumatlardan istifadə olunmalıdır;

– münaqişəyə girmiş tərəflərin təsərrüfat işlərini, gündəlik təlim tapşırıqlarını yerinə yetirməsi üçün şərait yaradılmalıdır. Belə ki, birgə səylərlə görülən işlərdə əldə edilən uğurlar həmin tərəflər arasındakı münasibətlərin yaxşılaşdırılmasına kömək edir.

Bütün bunlardan belə bir nəticə çıxarmaq olar ki, problemin həllində kollektivin rəhbəri əsas rol oynayır. Elə buna görə də tərbiyəçilərin (komandirlərin) özlərinin tərbiyə olunması, onların pedaqoji mədəniyyətə yiyələnməsi xüsusi aktuallıq kəsb edir. Bu, gələcəkdə münaqişəli vəziyyətlərin aşkara çıxarılmasına və aradan qaldırılmasına, qarşılıqlı münasibətlərin nizamnamə qaydalarının pozulmasının qarşısının alınmasına kömək edəcək.

# KONFRANSIN GÜNDƏLİYİNDƏN







# KONFRANSIN GÜNDƏLİYİNDƏN







# İCTİMAİYYƏTLƏ ƏLAQƏ –
# – HƏRBİ MEDİA





**HƏRBİ REDAKTORLAR ÇAĞIRIŞLARA QOŞULUR**





**YENİ DƏST-XƏT YARADICILIQ UĞURUDUR**





**HƏRBİ REPORTYORLAR YENİLİYƏ CAN ATIR**

# İCTİMAİYYƏTLƏ ƏLAQƏ – – HƏRBİ MEDİA





HADİSƏLƏR JURNALİST OBYEKTİVİNİN GÖZÜ İLƏ





MÜZAKİRƏLƏR PEŞƏKARLIĞIN RƏHNİDİR





HƏRBİ MÜXBİRLƏR YENİ ÜSLUB AXTARIŞINDA

**"Adam var ki, adamların naxşıdır, adam var ki, dindirməsən yaxşıdır!"**

# PSİXOLOJİ VƏRƏQƏ

**Hövsələnizin sərhədi haracandır?**
**(Səbr kasanız nə qədər dolub?)**

Ətrafdakıların hərəkət və vərdişlərinə qatlaşmaq asan iş deyil. Lakin unutmayın ki, eyni zamanda sizə də kimsə dözür. Nə qədər səbrli, hövsələli olmağınızı bilmək istəyirsinizsə sualları tez və çox düşünmədən cavablandırın. Düzgün cavab axtarmayın, yoxdur. Siz sadəcə öz gerçək vəziyyətiniz öyrənməyə çalışırsınız.

**1. Ağlınıza maraqlı fikir gəlir, lakin yoldaşlarınız onu dəstəkləmirlər. Onları ağılsızlıqda təqsirləndirməyə dəyərmi?**
a) bəli, onlar buna layiqdirlər; b) xeyr, ola bilsin, onlar düz deyirlər.

**2. Yoldaşlarınızdan biri istirahət etdiyiniz vaxt futbol komandası yığmaq fikrinə gəlir. Komandada oynamağa siz bir şərtlə razı olarsınız...**
a) orada yalnız güclü oyunçular olacaq; b) kim istəsə, oynaya bilər.

**3. Əgər əsgər yoldaşlarınızdan biri hansısa insan haqqında sizə pis, xoşagəlməz məlumat çatdırırsa, o insana qarşı münasibətiniz dəyişəcəkmi?**
a) bəli, özü də mənfi istiqamətdə; b) ümumiyyətlə dəyişməyəcək.

**4. Nəqliyyatda ayağınızı təsadüfən basdaladıqda, özünüzü idarə edə biləcəksinizmi?**
a) xeyr, mütləq etirazımı bildirəcəm; b) əlbəttə ki, dözmək lazımdır.

**5. Öz avtomobilinizdə avtoqəzaya (avariyaya) uğradıqda panikaya düşürsünüzmü?**
a) bəli, bu adi haldır; b) xeyr, onsuz da heç nə dəyişməyəcək.

**6. Əgər Allaha inanırsınızsa, sizi ateist və digər dinə qulluq edən insanlar qıcıqlandırırmı?**
a) bəli, onlar mühüm şeyləri başa düşmürlər; b) xeyr, bu hər kəsin öz işidir.

**7. Əsgər yoldaşınız sizdən daha üstün vəzifəyə keçərsə, neyləyəcəksiniz?**
a) rəhbərliyin qarşısında onun səhvlərini tutacam; b) öz səviyyəmdə saxlayacam.

**8. Yaşlı insan öz keçmiş dövrünü, gənclik illərini tərifləyir. Siz onunla mübahisə edəcəksinizmi?**
a) bəli, belə məqamlarda susa bilmirəm; b) xeyr, bu ağılsızlıqdır.

**9. Yeni qonaq gəldikdə hər kəs fikrini ona yönəldir. Sizin reaksiyanız...**
a) çalışacam diqqət mərkəzində olum; b) fürsətdən istifadə edərək istirahət edəcəyəm.

**10. Qeyri-adi saç düzümü olan, olduqca cəsarətli geyimlərə üstünlük verən insanlar sizi qıcıqlandırırmı?**
a) söhbət ictimai yerlərdən gedirsə, bəli;
b) xeyr, ictimai yerlər məhz insanların fərqini hiss etmək üçündür.

**Yekun nəticəni özünüz də hesablaya bilərsiniz.**

**Əgər "A" cavabları nə qədər çox üstünlük təşkil edirsə**, bir o qədər səbriniz tükənməkdədir. Gərək özünüzə diqqət yetirəsiniz və yaxşı xüsusiyyətlərinizi yox səviyyəsinə endirən əlamətləri üzə çıxarasınız. Ola bilsin ki, o zaman psixoloqun yanına getməyə ehtiyac qalmayacaq.

**Yox, əgər "B" cavabları nə qədər çox üstünlük təşkil edirsə**, həqiqətən də, bir o qədər sizin səbr etmək bacarığınıza həsəd aparmaq olar. Lakin siz çox sakit deyilsiniz? Bəlkə də bu, ətrafdakılara laqeyd yanaşmağınızdan irəli gəlir? Əgər o baxımdan problem yoxdursa, bu cür davam edin!

**Hazırladı: Elçin UMUDOV**

**Heç kimsə dost itirəcək qədər zəngin deyil.**

# P S İ X O L O J İ  V Ə R Ə Q Ə

**"Əsgəri yoldaşlığın 12 hökmü"**

Hələ 100 il bundan əvvəl hərbiyyə məktəblərinə "Əsgəri yoldaşlığın 12 hökmü" deyilən sənəd göndərilmişdir. Həmin tarixi sənəddən çıxarış:



1. Yoldaşlıq bir yerdə çalışan insanların inam və fədakarlığı üzərində qurulan xoş münasibətlərdir.
2. Əsgər yoldaşlığı candan keçir, könüldən qurulur.
3. Xidmətdə dostluq arzu olunur, yoldaşlıq isə mütləqdir.
4. Yoldaşlıq borcunu dostluq borcundan üstün tut.
5. Xidməti borcunu isə yoldaşlıq borcundan üstün tut.
6. Döyüşçü şərəfi əyilməz, yoldaşlıq xatirinə edilən şərəfsizlik, şərəfsizlik olaraq qalacaqdır.
7. Tabeçilik yoldaşlığı istisna etmir.
8. Öz səhvlərini yoldaşının boynuna atmaq satqınçılığa bərabərdir.
9. Yoldaşlıq münasibətləri mülkiyyət hüququnu azaltmaz.
10. Yoldaşlıq münasibətləri qarşılıqlı hörməti ifadə etməlidir.
11. Yoldaşlıq şərəfi bölünməz.
12. Yoldaşını təhqir edən yoldaşlığını təhqir edər.

## ÜNSİYYƏT MƏDƏNİYYƏTİ
**(QARŞILIQLI ANLAŞMA)**




**Hazırladı: Elçin UMUDOV**

# SƏYYAR İDEOLOJİ MƏNTƏQƏ








# SƏYYAR PSİXOLOJİ YARDIM MƏNTƏQƏSİ







**Bildirdiyimiz kimi SQ-də hərbi tərbiyə işinin aşağıdakı tərkib hissələri var:**

– hərbi ideolji iş;
– hərbi tərbiyə işi;
– hüquqi tərbiyə işi;
– mənəvi-psixoloji hazırlıq;
– hərbi qulluqçuların sosial hüquqi müdafiəsi;
– hərbi mədəni iş, asudə vaxtın təşkili;
– TTV ilə təminat.

**İdeoloji işin tərkib hissələrinə aiddir:**

– hərbi tərbiyə;
– siyasi tərbiyə;
– hüquqi tərbiyə;
– fiziki tərbiyə;
– etik-estetik tərbiyə;
– mənəvi tərbiyə;

**İdeoloji işin prinsipləri:**

– elmi bilik;
– həyata sıx bağlılıq;
– təbliğat və təşviqatın həyata uyğunluğu;
– əzmlilik;
– fərdi yanaşma;
– fasiləsizlik;
– fəal təsir.

**İdeolji işin əsas istiqamətləri:**

– ideya tərbiyəsi;
– təşviqat, təbliğat;
– mədəni-maarif;
– təhlil və naticə;

**İdeoloji işin üsulları:**

– ictimai-siyasi hazırlıq üzrə dərslər;
– təlim metodik məşğələlər;
– tədrisi iş.

**Hərbi tərbiyə işinin tərkibi:**

– təlim-tərbiyə;
– ictimai-siyasi hazırlıq;
– mədəni-kütləvi iş;
– yarışlar sistemi.

**Hərbi tərbiyə işinin istiqamətləri:**

– döyüş növbətçiliyinin təkmilləşdirilməsi
– mənəvi-psixoloji vəziyyətin yüksəldilməsi
– hərbi intizamın möhkəmləndirilməsi
– texnika və silahların öyrənilməsi

**Hərbi tərbiyə işinin üsulları:**

– təsiretmə;
– inandırma
– şəxsi nümunə;
– məşqetmə;
– həvəsləndirmə.

**«AZİMUT»**

**«HƏRBİ BİLİK» JURNALININ AYLIQ BÜLLETENİ**

**Baş redaktor**
**Polkovnik-leytenant**
**Zakir HÜSEYNOV**

**Baş redaktor müavini**
**Mayor**
**İsmayıl ABDULLAYEV**

**Lisenziya: № 002559**
**Yığılmağa verilmişdir: 20.10.2014**
**Çapa imzalanmışdır: 03.11.2014**
**Fiziki çap vərəqi: 10**
**Kağız formatı: 60x84 1/8**
**İndeksi: 0317**
**Tiraj: 600**
**Sifariş: 334**

**Bülleten Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatında ofset üsulu ilə çap edilib**
**Lisenziya: № 022042**
**Verilmə tarixi: 04.06.1999**

**Korrektor**
**Nəzrin ƏSƏDZADƏ**

**Fotomüxbir**
**Minaxanım ƏKRƏMQIZI**

**Səhifələyici-dizayner**
**Nazənin BABAYEVA**

**Redaksiyanın ünvanı:**
**370069 Bakı ş., «Qızıl Şərq» hərbi şəhərciyi,13**
**tel: 440-99-71**


MUROVDAĞ
ŞƏHIDLƏRİNİN
XATİRƏSİNƏ
AZƏRBAYCAN ƏFQANISTAN MÜHARIBƏSİ
VETERANLARINDAN
QƏHRƏMANLIĞA ÇAĞIRIRIQ!

İndeks 0317

"HƏRBİ BİLİK" JURNALININ AYLIQ BÜLLETENİ "AZİMUT"

Ünvanımız: "Qızıl Şərq" hərbi şəhərciyi 13, tel: 440-99-71

## İDEOLOJİ İŞ: YENİ METODİK VƏSAİTLƏR

























